**Hacı Əli Sobulu**

# ZƏNGİLANIN CANLI ENSİKLOPEDİYASI, XEYİRXAHLIQ VƏ ƏDALƏT RƏMZİ

**Bakı - 2022**

Tərtibçi və redaktor: **Hacı Əli Sobulu**

**Hacı Əli Sobulu**
ZƏNGİLANIN CANLI ENSİKLOPEDİYASI,
XEYİRXAHLIQ VƏ ƏDALƏT RƏMZİ
Bakı, «Zərdabi Nəşr» MMC, 2022, 168 səh.

Kitabda Zəngilanlı ziyalı, mahir qarmon ifaçısı və muğam bilicisi yazıçı-publisist Asif Bağırovun həyat və fəaliyyətindən bəhs edilir.

© Hacı Əli Sobulu, 2022

# Müəllifdən

Mən ağlım kəsəndən ədalətli cəmiiyyət arzusunda oldum. Həmişə insanlara bu cür yanaşdım, əksini görəndə isə sanki dərin bir quyuya düşdüm və aylarla oradan çıxa bilmədim, mənən əzildim.

Bizim Zəngilan dünyanın siyasi xəritəsində heç iynənin ucu boyda belə görünmür. Bu balaca diyarın bu dünyaya sığmayan saf, təmiz əqidəli, əxlaqlı, gözü tox insanları olub. Mən burada onlardan danışacağam. Çox güman ki, belələri az deyil, amma həyatda tanıdığım üç kişidən yeri gəldikcə söhbət açacağam. Burada onlardan uçunü qeyd edəcək birindən isə geniş danışacağam. Bunlar Mürsəl Qocayev, Sultan Vəliyev və Asif Bağırovdur.

Bu insanlar ömürləri boyu Zəngilan rayonunda yaşadılar. Mürsəl Qocayev rayonda nəşr olunan «**Kənd həyatı**» qəzetinin baş redaktoru idi. O, 35 il bu mətbu orqana rəhbərlik etmişdir. Bilirsiniz ki, sovet zamanında qəzetin hökmü milisdən, prokurordan, məhkəmədən də qüvvətli idi. Bu sahənin başında duran kişi nə istəsəydi edərdi. Amma, Mürsəl Qocayev ömrü boyu ictimai binada yaşadı. O istəsəydi özünə bir çoxları kimi şəxsi ev tikə bilməzdimi? Qaçqınlıqdan sonra da Bakıda yataqxanada yaşadı və bu yalan dünyanı düzlüklə, saf əqidə ilə tərk etdi.

İkinci tanıdığım adam isə Zəngilan səhiyyəsinə 35 il rəhbərlik etmiş Sültan Musa oğlu Vəliyevdir. O, da elə Mürsəl müəllim kimi, istəsəydi özünə təmtəraqlı bir həyat qurardı. O, da xəstəxanaya məxsus kiçik bir otaqda yaşadı. Qaçqınlıqdan sonra yenə yataqxana həyatı davam elədi və o da bu dünyaya təmizliklə, saf əqidə ilə əlvida dedi.

Üçüncü belə bir insan isə Asif Kərim oğlu Bağırovdur. Yuxarıda qeyd etdiklərim öz peşələrinin kamil ustaları idilər. Öz işlərini vicdanla yerinə yetirərdilər, kimsə onlarda həyatları boyu bir irad, bir nöqsan axtarmadı.

Asif müəllim də bunlar kimi işlədi. Mən bu adamda elə maraqlı məqamlar gördüm ki, ali təhsilli tarix müəllimi, pedaqoq,

təhsil sahəsində işini mükəmməl bilən biridi. İkincisi, bu adamı deyərdim ki, Zəngilanda tanımayan yox idi. Bu insan 25 ilə yaxın Zəngilanda el şənliklərinin önündə olub. Dediyinə görə 2 mindən çox toy çalıb. Onun rayonda qarmon çalanlar arasında şübhəsiz birinci olduğunu desəm səhv etmərəm. Əsas məsələ odur ki, bu adamın müsiqi təhsili yoxdu, amma muğamı, musiqini çox gözəl bilir və ifa edir. 20 ilə yaxın Pionerlər evinin direktoru işləyən Asif Bağırov bu illər ərzində onlarla gənc istedadları hazırlayıb Respublika və Ümumittifaq müsabiqələrinə yollayıb. Kənardan baxana asan gələ bilər, əsilində isə bu çox çətin və əziyyətli bir işdi. Sizlərin çoxunuzun tanıdığınız musiqiçilərin çoxunu o hazırlaşdırıb, o üzə çıxarıb. Toylara gedənlərin nələr qazandığını yaxşı bilirsiniz. Onların çoxunun maşını var idi. Amma bu adamın nə maşını oldu, nə də ki şəxsi (o, işğala kimi atası Kərim kişidən qalma evdə yaşadı. İşğaldan sonra isə Bakıda yataqxanada) evi. Qazandığını xeyirdə-şərdə dost-tanışları üçün xərclədi.

Bu adamın üçüncü bacarığımı deyim, qabiliyətimi deyim publisistikadı. Onun həm rayon, həm də ki, Respublika mətbuatında 200 dən çox elmi və publisistik yazıları və bir kitabı çap olunub. Bu adam təhsili, musiqini yüksək səviyyədə bildiyi kimi, yazılarında da ədəbi qaydalara da yüksək məsuliyyət və tələbkarlıqla yanaşır.

Mən bu insanların ilk ikisi barədə kitab yazdım. Mənim bu günkü söhbətimin qəhrəmanı Asif Bağırovdur.

Əziz oxucu. Sizi indi bu kitabla baş-başa buraxıram. Söz sizindi. Yaxşılarımızı tanıyaq, onları unutmayaq.

**H.Ə. Sobulu**

# I FƏSİL

## Asif Kərim oğlu Bağırovun həyatı və fəaliyyəti



Bağırov Asif Kərim oğlu 1947-ci ilin 01 yanvarında Zəngilan rayonunun Pirçivan kəndində doğulub. 1954-55-ci tədris ilində Pirçivan kənd orta məktəbinin I sinfinə getmiş, 1966-cı ildə Zəngilan qəsəbə orta məktəbinin 11-ci sinfini bitirmişdir. Orta məktəbi bitirdikdən sonra o 1967-1970-ci-illərdə Zəngilan rayon Mədəniyyət şöbəsində avtoklub müdiri, mədəni çadır müdiri, bədii rəhbər vəzifələrində işləyib. 1969-ildə qiyabi yolla o vaxtkı V.İ.Lenin adına (indiki Nəsrəddin Tusi) Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olmuş, 1974-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Ali məktəbdə oxuduğu illərdə daha doğrusu 1970-ci ildə Zəngilan rayon Pioner və məktəblilər evinə direktor təyin edilmişdir. Bu təyinatın başlıca səbəblərindən biri Asif Bağırovun istedadı, təşkilatı bacarığının yüksək olması idi. O ilk dəfə olaraq Zəngilan rayon mədəniyyət evində Azərbaycan xalq çalğı alətləri ansamblını yarada bilmişdi. Ora geniş tərkibdə bir neçə istedadlı gənci cəlb etmişdi.

Bu kollektiv nəinki Zəngilanda, eləcədə qonşu Cəbrayıl, Qubadlı, həmçinin Ermənistanın Qafan şəhərində, Hənd, Şixavuz, Şeşkerd kəndlərində də maraqlı konsert proqramları ilə çıxış etmişdir.

Kollektiv üzvləri Zəngilan rayon İcraiyyə Komitəsi və Maliyyə şöbəsi tərəfindən təsdiq olunmuş aylıq smeta dəyəri 500 manat olan pullu konsertlər də vermişdir.

Maraqlı konsert proqramlarının aparıcıları Məhəmməd Hüseynov və Yavər Paşayev intermediyaları və kiçik səhnəcikləri məharətlə ifa edərək o dövrün ən populyar adamlarına çevrilmişdilər.

Azərbaycan xalq çalğı alətləri ansamblının müsiqiçiləri Qəzənfər Rüstəmov (tar), Arif Şıxəliyev (nağara), Allahyar Abdullayev (klarnet) və Asif Bağırov ((akkordeon).

Solistləri isə Həcər Hüseynova, Tamam Bəşirova, Aşur Adıgözəlov və Cəlil Məmmədov olmuşdur.

Proqramda: Muğamlar rəng və dəramətlər, təsniflər, xalq və bəstəkar mahnıları olmuşdur.

Konsert proqramlarının hazırlanması birbaşa Asif Bağırovun rəhbərliyi ilə olmuşdur.

Səhnəcik və intermediyalarn hazırlanmasında o vaxtlar mahir futbol hücumçusu kimi tanınan Salam Cavadlının təmənnasız köməyi olurdu.

Zəngilanda baş vermiş bəzi maraqlı hadisələrin ssenarisini S. Cavadlı ilə A.Bağırov özləri yazırdılar.

Özünün dediyinə görə qarmon çalmağı qardaşı Şəhriyardan öyrənib. Bu sahədə püxtələşməyində Zəngilandakı musiqi məktəbinin müəllimi, sonralar duirektoru olmuş Məcnun Kərimovun əməyi böyük olub.

Bunun nəticəsi idi ki, Zəngilan rayon Komsomol Komitəsinin I katibi Gülarə Ələkbərova hər iki gəncə münasib iş verilməsi üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldırmışdır.

Belə ki, Salam Cavadlı rayon «Kənd həyatı» qəzeti redaksiyasında, Asif Bağırov isə rayon Pioner və məktəblilər evində işlə təmin olundular.

Sovet zamanında Pionerlər evinin nüfüzu məktəbdən heç də geri qalmırdı. Sovet gəncləri burada ilk olaraq bu quruluşu dərk edir, onun layiqli kardları kimi tərbiyə edilirdilər. Bu işin davamı isə orta məktəbdə həyata keçirilidi.

Asif Bağırov sonralar, yəni 1978-1979-cu illərdə Bakı zona Komsomol məktəbini bitirmişdir. Məktəbə Zaqafqaziya Res-

publikalarından dinləyicilər gəlirdilər. 1989-cu ilin oktyabrından 1991- ci ilin sonuna kimi isə Asif Bağırov daha bir mədəni quruma, Rayon Kino-video qurğuları idarəsinə rəhbərlik etmişdir.

Bu barədə Asif Bağırovun dedikləri:

-1989-cu ilin Aprel ayı idi. Xərtini çox istədiyim Təhsil şöbəsinin müdiri rəhmətlik Tofiq Məmmədyarov telefonla məni yanına çağırdı, bildirdi ki, yoldaş Tofiq Mehtiyevlə (raykomun I katibi) Cəbrayıl rayonuna tədbirə getmişdik. Tədbirdən sonra Cəbrayıl rayon müəllimlərindən ibarət kollektivin ansamblı maraqlı proqramla çıxış etdilər. O, da mənə təklif etdi ki, belə bir ansamblı Zəngilanda da yaratmaq olarmı?

Ona görə sizi çağırmışam ki, bu mümkündürmü? Mən dərhal cavab verdim ki, bəli, ancaq mənə 15 gün möhlət verin ki, ansambl üzvləri hərəsi bir kənddən, məktəbdən olacaq. Onlara icazə verilməsi və Pionerlər evinə məşqlərə gəlməsi üçün nəqliyyat məsələlərini siz həll edərsiniz. Gələcəkdə əgər rayonda Müəllimlər evi aça bilsəniz, həmin müəllimlərə də orada dərnəkdən, qrupdan verərsiniz.

Mən ansambl üzvlərinin adlarını, işlədikləri məktəbləri, söhbətimizdən heç bir saat keçməmiş yazıb T.Məmmədyarova verdim. Məşq günlərini ona bildirdim. Pionerlər evinində təyin olunan gündən məşqlərə başladıq. Artıq may ayında ansambl konsert vermək üçün hazır idi. Bunu T.Məmmədyarova bildirdim öz növbəsində o da T.Mehtiyevə məlumat verdi..

T.Mehtiyevin tapşırığı ilə Zəngilan rayon Mədəniyyət şöbəsinin müdiri Camal Sultanovla Tofiq Məmmədyarov müəllimlər ansamblının çıxışına bələd olmaq üçün Pionerlər Evinə gəldilər. Proqram və çıxışlar xoşlarına gəldi, I katibə bu barədə məruzə etdilər. Konsert mayın axırına təyin edildi.

Bu zaman Azərbaycan KP MK-nın mühazirəçilərindən biri professor Vaqif Arzumanlı tədbirdə iştirak edirdi. Sonda I katib məni raykoma çağırdı.

Ümumi şöbənin müdiri Eldar Eyvazov mənə T.Mehtiyevin xoş sözlərini çatdırdı və onu da əlavə etdi ki, mən Asif müəllim

haqqında yaxşı mövqe tutmamışam. Sağımda solumdakı bədxahların yalan məlumatına görə. Anam rəhmətlik deyirdi ki, insanın daxili aləmini onun siması biruzə verir. Asif müəllimin sifətindən nur tökülür. Əslində Mədəniyyət şöbəsinə belə adamlar rəhbərlik etməlidir. Birinci katibin çox səmimi sözləri məni də kövrəltdi. Eldar müəllimin vasitəsi ilə ona minnətdarlığımı çatdırdım, kabinetinə girməkdənisə imtina etdim.

Üstündən beş ay keçmiş Zəngilan rayon XMŞ-nin inspektoru Tarverdi Abbasov saat 16.00 radələrində mənə zəng edərək bildirdi ki, yoldaş Mehtiyev sizi təcili çağırır. Təcili raykoma getdim. Ümumi şöbənin müdiri E.Eyvazovla görüşdüm. O zaman rayon Partiya Komitəsi üçün yeni bina tikilmişdi. Köhnə binanı isə I katib Pionerlər Evinə vermək istəyirdi və deyirdi onun adını Estetik tərbiyə mərkəzi qoyarsınız..

Eldar müəllim mənə əsas məsələni açdı, bildirdi ki, T.Mehtiyev sizi Kino birliyinə müdir qoymaq istəyir. Mən dərhal cavab verdim, ona dedim ki, mənim belə bir istəyim yoxdu. Mənə dayı deyən E. Eyvazov dedi ki, siz əvvəl ona minnətdatlıq edib, sonra da fikrinizi bildirərsiniz. Mən sizə heç nə deməmişəm.

Mən T.Mehtiyevin kabinetinə girəndə təsəvvür etmədiyim mənzərə ilə rastlaşdım. O baş tərəfdə yox, lap aşağı tərəfdəki stulda mənimlə üzbə üz əyləşdi. Bundan əvvəl I katiblərin belə qəbulunu görməmişdim. Çox səmimi söhbətə başladı və dedi ki, köhnə binanı sizin sərəncamınıza verirəm. Burada müəyyən yenidənqurma apara bilərsinizmi?

Cavab verdim ki, Dilşad Həsənovadan xahiş etdim müəyən dəyişikliklər, ilk növbədə Pioner şeypurçusunun və təbilçisinin heykəllərinin qoyulacağı yeri təyin etsin.

Sonra o sözünə davam edərək mənə dedi ki, özün üçün buranı kabineti seçmə, nisbətən kiçik otaqlardan birini götür. Ona bildirdim ki, yoldaş Mehtiyev Pionerlər Evindəki ən kiçik otağı özümə kabinet seçmişəm.

Birdən o əsil mətləbə keçdi.

-Asif, mən səni bura ayrı məqsədlə çağrmışam. Səni yüksək vəzifəyə, Kino birliyinə direktor qoymaq istəyirəm.

Mən də ona minnətdarlıq edərək bildirdim ki, əvvəlki rəhbərlik mənə Pionerlər Evini də çox görərdi. Halbuki mənim işim həm Təhsil Nazirliyinin, həm də ki Azərbaycan LKGİ-ı MK-si tərəfindən yüksək qiymətləndirilirdi. Konkret olaraq belə vəzifədə məni «**Fəxri Fərman**» la da təltif etmişlər. O məndən bu cavabı gözləmirdi. Gülə-gülə dedi:

-Asif, əlinin altında neçə maşın, möhür-ştamp, katibə olacaq, niyə imtina edirsən? sualın verdi. Dedim ki, yoldaş Mehtiyev əvvəla mən kommunist deyiləm, ikincisidə ailəmi dolandırmaq, imkansız qohumlara hərdən əl tutmaq üçün toylara gedirəm. Özümün ansamblım da var. Bir dəfə siz təhsil islahatı ilə əlaqədar aşağı Mədəniyyət evində öz məruzənizdə mənim adımı çəkdiniz.

O yenə gülə-gülə, onda sizi yaxşı tanımırdım. Atam (onun atası Şəfahət Mehtiyev 40-cı illərdən Zəngilanda müxtəlif vəzifələrdə sonda isə ZDS İK-nin sərdi işləyib) rayonda işləyəndə qardaşın Şamı ilə yaxın olub. Sən gəl mənə kömək elə Kinonu təhvil götür və Pionerlər Evindəki dərnəyini özündə saxla ki, pedaqoji stajın pozulmasın. Mən artıq heç nə deyə bilmədim.

Bu təklifi qardaşım Şamıya, ondan sonra neçə illər dostluq elədiyim Arif Bəşirova bildirəndə hər ikisi razı olmadı. Həftənin 1 günü Rayon İcraiyyə Komitəsinin sədri Əli Quliyevin Mədəniyyət naziri P.Bulbuloğluna ünvanlanan məktubun mənə verdilər. Məsələni eşidən Şamı get tərəddüd etmə- dedi. Arif Bəşirov isə ürək dirək verərək sən yaxşı işləyəcəksən, ancaq görüləsi işlərin çox olacaq, dedi.

Doğrudanda görüləsi, tökülüb qalmış çox mürəkkəb məsələləri həll etməli oldum. Kinonun yaxşı kollektivi var idi. Baş mühasib Məlahət xanım, mühəndis Arif Bəşirov, dispetçer Fəsi Məmmədovun məsləhəti ilə neçə illər aylıq planı yerinə yetirməyən Kino qabaqcıl idarəyə çevrildi.. T.Mehtiyev mənə toylara getməyə də icazə vermişdi. Toylardan gətirdiyim pulla idarədəki kompüterlə işləyən kino qurğuları biri Bakıdan, digəri isə Moldaviyadan olan mütəxəssislər vasitəsilə saz vəziyyətə saldım. Bir başa Bakıdan yaxşı kino filmlər əldə etdim. T.Mehtiyev mənim hər bir

xahişimə dərhal cavab verərdi. Gələn qonaqları yeni istifadəyə verilmiş Mərkəzi Komitə nümayəndələri üçün ayrılımş otaqlarda yerləşdirirdi.

Kinoya rəhbərlik etdiyim ilk ayın axırında səyyar kino qurğunun şoferlərindən ən yaşlısı və mənə də müəyyən qohumluğu çatanlardan biri bükülü şəkildə bir neçə 50-liyi mənim pencəyimin cibinə qoymaq istədi. Dərhal onun pulunu qaytardım və idarəyə qayıdan günün səhəri digər şöferləridə çağırıb onlarla hərtərəfli sönbət etdim, planlarınızı dolduracaqsınız əlavə hər ay 20-30 manat artıq verəcəksiniz ki, sizə mükafat da düşsün.

Onlara sözümü dedikdən sonra Məlahət xanımı, Arif Bəşirovu və Fəsi Məmmədovu kabnenetə dəvət etdim. Onların yanında sürücülərə dedim ki, iş rejiminiz 22 gündür. Təyin edilmiş günlərdə marşrut üzrə kəndlərdə kino nümüyiş etdirəcəksiniz. Mən bunu 18 günə endirirəm. Asudə vaxtınızda lap kənar yerlərə də (taksi kimi) gedə bilərsiniz. Əgər mən sizdən pul almıramsa bu idarədə heç kim onu etməz. Kənar şəhərlərə, rayonlara getməli olsanız Arif Bəşirovun xəbəri olsun. Sizə yolda tutulmamaq üçün putyovka da (yol vərəqəsi) yazsın. Qayıdanda putyovkanı ona verin cırıb atsın.

Ancaq A. Bəşirovun xəbəri olmadan Qazançı kəndi əvəzinə Cəbrayıl rayonu tərəfdə ilişsəniz səssiz-səmirsiz ərizənizi yazıb işdən çıxın. Bütün kollektiv can-başla işə girişdi. Artıq yanvar ayına 15-20 gün qalmış bütün kino qurğuları illik planı artıqlaması ilə ödədilər. Kino işçiləri hər ay əmək haqqından əlavə mükafat da aldılar. İlin yekununda onlar uzun illər görmədikləri 13-cü əmək haqqı da aldılar. Mənimlə baş mühasibin mükafatın isə nazirlik verirdi.

T.Mehtiyev rayona gələn vaxt N.Nərimanovdan bəhs edən «**Ulduzlar sönmür**» filmini gətirtmişdi. Lakin bu film heç yerdə nümayiş etdirilməmişdi. Mən rayon PK-nə, XDS İK-nə, o cümlədən bütün idarə, müəssisələrə, kolxoz və sovxozlara dairəvi məktub yazdım.

Bu film həmin qarışıq vaxtda nümayiş etdirildi. Raykomun II katibi C.Həsənova RK və İK-si işçiləri üçün göstərilən seansda

üzürlü səbəbdən iştirak edə bilmədiyinə görə məndən icazə istədi. Baxın mənim tabe olduğum rəhbərlik üzrxahlıq edir. Bu bizim nümunəvi işimizin nəticəsi idi. İşçilər bəzən gecə saat 24-ə kimi işləməli olurdullar. Onlar Niyaz, Muradxan, Arif, Şəfiqə, Fəsi, Tərlan, Dilbər, Şövkət, Asya, Tamaşa, Sərxan və s idi.

1990-cı ilin mayında Azərbaycan KP Zəngilan rayon təşkilatının konfransında T.Mehtiyevin məruzəsində Kino və ƏMXK-nın yaxşı işinə geniş yer almışdı.. Kino idarəsinin veteranları A.Bəşirov və F.Məmmədov bir dəfə söhbət zamanı mənə bildirdilər ki, sizdən əvvəl H.Mehrəliyeva direktor idi. Lakin az müddət işlədiyindən müəyyən işləri həyata keçirə bilmədi. Biz bu idarədə 50-ci illərdən işləyirik. İki nəfəri təmiz və vicdanlı müdir görmüşük. Biri Qara Zamanov, ikincisi də üzə demək olnmasın siz. Qara Zamanov bizim çoxumuzun ömür gün yoldaşını kursa yazdı onlar da kino mexanik oldular. Hər ay bir ailədən iki nəfər əmək haqqı aldı. əlbəttə, bu söhbət məni daha da vicdanla işləməyə sövq edirdi.

Az müddətdə Mədəniyyət Nazirliyinin və Azərkinovideo İstehsalat Birliyinin etimadını qazandım. O zamanlar Bakının «**Nizami**» kino teatrında Türk filmləri festivalı keçirilirdi. Mənim xahişimlə həmin kinolar və digər kommersiya filmləri növbədənkənar üç günlüyə Zəngilanda nümayiş olundu.. Bu üç gün müddətində bəlkə 8-10 dəfə onların seansı keçirildi. Biz Nüvədi kəndinə və oradakı hərbi hissədəkilər üçün də filmlər göstərirdik. Bunu öz daxili imkanlarımız hesabına edirdik.

1991-ci ilin aprel ayının axırı T.Mehtiyev «Azərittifaq»a sədr seçildikdən sonra Ə.Quliyev Zəngilan rayon PK I katibi seçildi. Əli müəllimlə lap gənc yaşlarımızdan otur-durumuz və dostluq əlaqələrimiz var idi. Yeni vəzifəyə keçdikdən bir neçə ay sonra o mənə sənədlərini (şəxsi işimi) gətir ümümi şöbəyə, Məhiyyəddin müəlimə ver dedi. Eyni zamanda onu da dedi ki, səni öz yanımda işə götürəcəyəm. O respublikada yeni struktur dəyişikləri, icra strukturları və rayon sovetləri barədə məlumatlı idi. Oktyabr ayında rayon qəzetində yeni strukturun əsasnaməsi dərc olundu. 1992-ci ilin yanvar ayında Zəngilan rayon İcra Hakimiyyəti Ərazi

hakimiyyət və idarəetmə orqanları ilə iş üzrə şöbəyə məsləhətçi vəzifəsinə təyin olundum. Bu əvvəl mənə təklif edilən vəzifə deyildi. On beş gün işə getmədim. Həhayət böyük qardaşım Şamının məsləhəti ilə işə başladım. O, mənə dedi ki, bu məsələ Əli müəllimlik deyil. Ondan incimə.

Beləliklə, yanvar ayının ikinci yarısından işə başladım. Əli müəllim mənə tapşırdı ki, kinoya kimi müdir qoyursansa o sənlikdi. Mən isə Bartazdan olan Ramazan adlı işçini namizəd göstərdim. Bu adam Rusiyada kino ixtisası üzrə texnikom qurtarmışdı. Bakıya təsdiqə getdi və yeni işinə başladı. Əli müəllim bəzi məsələlərdə mənimlə məsləhətləşirdi. Çox işə məni göndərirdi və həmin işləri həll etməyi bacarırdım.

1992- ci ilin fevral ayında iş yoldaşlarım M.Qəhrəmanov, T.Quliyevlə biz teplovozla Ağkənd kəndinə yerli əhali üçün müəyyən qədər un, yağ və kartof apardıq. Qar dizə çıxırdı. Orada eyni zamanda bizim əsgərlərimiz də yerləşdirilmişdi. Düzünü deyim ki, kənd camaatının bizimlə görüşdə nədənsə narazılıqları vardı. M.Qəhrəmanovun atası, pəhləvan cüssəli Alməmməd, yaxınları Məhiyəddin, Ərşad, Əsgər məni də, atamı da, qardaşlarımı da yaxşı tanıyırdılar. Bəs bu soyuqluq haradan idi? Məsələdən halı olduq bir nəfər də olsa içi Əli müəllim qarışıq T.Mehtiyev Zəngilandan gedəndən sonra kimsə oralara ayaq basmayıb. T.Mehtiyevin Qazançıya çəkdirdiyi yol da yarımçıq qalıb.

Biz rayona qayıtdıqdan sonra dizə qədər qara batmış paltarlarımı dəyişib, bir az da dincələndən sonra İH-nə qayıtdım. . Gündəliyimdə qeyd etdiyimi kənd sakinlərinin dediyi iradları Əli müəllimə mərizə etdim. O, məni dinləyib, iki gündən sonra Ağkəndə getməyi qərarlaşdırdı. Zəngilan dəmiryolu vağzalından motovozla Əli müəllim, prokuror İ. Əzizov, batalyon komandiri Bayram Məmmədov, DTK rayon şöbəsinin rəisi, Məhiyəddin Qəhrəmanov və mən Ağkəndə getdik. Hava çox soyuq idi. Əli müəllim sakinlər və əsgərlərlə səmimi söhbət elədi.

O, dediklərimi kənd camaatının özündən eşitdi. Hətta şaxta olduğuna baxmayaraq o, həyəcandan dəmir əsgər kruşqasında buz kimi su içdi.

Onun nələr çəkdiyini, başa düşmək çətin deyildi.

Havalar istiləşən kimi yarımçıq yolun tikintisi davam etdirildi. Sıradan çıxmış deputatın əvəzinə M.Qarayev rayon Sovetinin deputatı seçildi. Mütamadi olaraq Ağkənd, Dərəli, Qazançı, Seyidlər kəndlərinə baş çəkməyə və yardımlar göstərməyə başlanıldı.

1992-ci il 28 apreldə Qazançıdan qayıdarkən ermənilər (bundan sonra haylar yazılacaq) Bürünlü kəndi yaxınlığında Çəkədin tövlələri istiqamətindən əl pulemyotları ilə bizi atəşə tutdular. Zəngilan rayon Mədəniyyət şöbəsinin maşınında mən İçəri Müşlan kəndindən olan Rəhimlə kabinkada yanaşı oturmuşdum. Hədəf maşını ön tərəfdən vurmaq idi. Arxada yəni salonda isə «İki sahil» qəzetinin zəngilanlı muxbiri M.Nərimanoğlu, Şamaxılı müxbir Elton Dünyamalıoğlu, Rəşid müəllim, Şayıflıdan sahə müvəkkili olan bir nəfər polis və Qazançılı biri əyləşmişdi. Pulemyotdan çıxan mərmilər dağa dəyərək şimşək kimi parıldayır, od püskürüdü. Kapitan məndən icazə alaraq haylar tərəfə atəş açdı. Demək olar ki bir maqazini boşaltdı. Bundan sonra haylar susdular. Onu da deyim ki, «İki sahil» qəzetinin muxbirləri rayona xeyli siqaret gətirmişdilər. Həmin siqaretləri Əli müəllim ilə məsləhətləşəndən sonra müdafiədə olan əsgərlərimizə paylamağı qərarlaşdırmışdıq. Bu işi isə ancaq mənə həvalə etmişdi. Arada Nüvədi kəndindən Vejnəli kəndində məskunlaşan soydaşlarımıza da filtirli və filtirsiz siqaretlərdən paylamışdıq.

Biz Qazançıdan qayıdarkən baytar həkimi Eldar Həsənovun böyük qardaşı Rəşid bizim maşına yaxınlaşıb bir şüşə zoğal arağı, lavaş çörəklə arasında təzə yağ-şor verərək, əmioğlu yolda yeyərsiniz demişdi.

Ağkənddə isə sevimli müəllimimiz Əyyub Həsənovun oğlu Sabir bizə pay olaraq iki ədəd konservləşdirilmiş ət vermişdi. Ölümdən qurtarmaq münasibəti ilə «Qotursu»da sürfə açdıq. M.Nərimanoğlu məndən icazə alaraq tost söylədi.

-Əsil təvəllüdümüzə baxmayaraq biz bu gündən 28 aprel 1992-ci ildə doğulmuşuq-dedi. Bu mənim Ağkənd tərəfə sonuncu 14- cü səfərim oldu.

O zaman Zəngilanın müdafiəsi üçün xeyli iş görmüş batalyon komandiri polkovnik-leytenant İldırım Məmmədov belə məsləhət gördü ki, daha oralara getmək olmaz. O işini mükəmməl bilən, vətənini dərindən sevən əsil hərbiçi idi. Zəngilanın müdafiəsi üçün Bakı və Sumqayıtda yaşayan həmyerlilərimizdən Bəxtiyar İbrahim oğlu Süleymanlı, Məmmədxan Bayraməli oğlu Rəsulov, Məhiyəddin Yəhya oğlu Abdullayev, Cəmil İsfəndiyar oğlu Sayılov, Mahir Allahverdi oğlu Cavadlı, Məmməd Tumas oğlu Qasımov, Tofiq Allahverdi oğlu Bağırov, Nəcəf Əmir oğlu Səlimov, Ələkbər Suqurət oğlu Mustafayev və başqaları (çoxunun adını unutmuşam) «**Zəngilan xeyriyyə cəmiyyəti**» yaratmışdılar. Bu qrupa Məmmədxan Rəsulov rəhbərlik edirdi.

Bundan əlavə Əli müəllim mənə rayondakı idarə və müəssisələrdən onların rəhbərləri vasitəsi ilə silah-sursat almaq üçün pul toplamağı tapşırmışdı. Eyni zamanda Horadizdəki hərbi bazadan hərbi dzotlar almaq üçün M.Qəhrəmanovla iki dəfə ora getməli olduq və oradan xeyli sayda dzotlar alıb gətirdik..

Mən idarə və müəssisələrdən bəziləri istisna olmaqla (Əli müəllimin tapşırığı əsasında) xeyli pul topladım. İşin sonunda bundan xəbər tutan böyük qardaşım Şamı bizim evə gəldi və o ki var məni danladı, dedi ki, pulları sahiblərinə qaytar. Bu iş çöldən-çölə olacaq. Kimi inandıra biləcəksən ki, yığdığın pulları mayor Yerşova vermisiniz. Yerşov həm Qafana, həmdə ki, Zəngilana baxırdı. Mən ASB -na gedib Hürü müəllimə ilə məsləhətləşdim. O da baş mühasib Oruc Alməmmədovla götür-qoy etdikdən sonra qərara gəldilər ki, pulu yerli batalyonun hesabına köçürək. Buna isə Əli müəllim razı deyildi. Bir təsadüf nəticəsində qardaşımın haqlı oğluğunu gördüm.

Mənimlə İH-də işləyən yaxşı kişilərdən birinin oğlu məndən soruşdu ki, filan idarə nə qədər pul verib. Əlavə dedi ki, mənim yoldaşımdan 50 manat alıblar. Mən yığılan pulla və işçilərin sayına baxanda dəhşətə gəldim. Həmin idarənin rəhbəri toplanan pulun onda doqquzunu mənimsəmişdi. Onun kimi digərləri də var idi.

Həmin günün səhəri İH-nin böyük akt zalında rayonun idarə müəssisə rəhbərlərinin iştirakı ilə keçirilən iclasda mən həmin pulu saxlamaqdan imtina etdim. Toplanan pulu siyahı ilə birlikdə təhvil verdim.

Burasını da deyim ki, biz İH-nin işçiləridə öz əmək haqqımızın bir hissəsini yerli batalyona vermişdik. Mən hər dəfə Ağkəndə gedəndə öz əmək haqqımla aldığım siqaret, lezva, kibrit, bəzən pendir, o vaxtlar növbə ilə verilən çörək də alıb apardım. Oradakı və Qazançıdakı postlardakı hərbçilərin çoxu məni öz əmiləri kimi çox istəyirdilər. O zaman rayon Avtobazasının müdiri olan Xürrəm Həsənov məni nəqliyyatla təmin edir, və hərdən özü də mənimlə o ərazilərə gedərdi.

Rayon İstehlak Cəmiyyətinin ticarət şöbə müdiri Rüstəm Rüstəmov növbədənkənar çörək almaqda mən kömək edərdi.

Dəfələrlə Ənvər Əhməd oğlu Məmmədyarovun ordu üçün göndərdiyi ət, mer-meyvə və digər ərzaqları əsgərlərimizə çatdırmağı Əli müəllim mənə həvalə etmişdi. 28 apreldən sonra mənim Dardanyuxarı yerlərlə əlaqəm kəsildi.

1992-ci ilin 24 mayında Zəngilan RİH-də insident baş verdi. Axşam İldırım Məmmədov ora silahla hücüm edənlərin iki nəfərini elə oradaca güllələmişdi. Bu kim tərəfindən planlaşdırılmışdı bilmədik. Gecə İ.Məmmədovu milis şöbəsinə apardılar. Məncə bu İ.Məmmədovdan çox Əli Quliyevə qarşı bir təxribat idi.

1992-ci ilin 29 mayında Əli müəllim məni kabinetinə çağırdı. Xeyli siqaretlə Ağakişilər, Fərəcbəyli və İskəndərbəyli tərəfə, oradakı əsgərlərə baş çəkməyə getdik. Onun şəxsi sürücüsü Əbülfət Cavadovun atası Hidayət Cavadov vəfat etdiyindən onu digər sürücü, Telman Qocayev (NİVA markalı minik maşını ilə) əvəz elədi. Əli müəllim çox bikef idi. Siqretləri əsgərlərə payladıq. Ağakişilər kəndinin kolxoz sədri Şikar Əsədovun bizim üçün hazırladığı yeməkdən Əli müəllim bir tikə götürdü və mən qatıq yeyəcəyəm dedi. Orada maşından aralanıb xeyli söhbət elədik. Bildirdi ki, tamam bu işimdən bezmişəm. Ertəsi günü mayın 30-da günortadan sonra idarədə pıçha-pıç başladı ki, Əli müəllimin

yerinə təzə icra başçısı gəlir. Axşam üstü yeni başçı gəldi. Bu Telman Kazlmov idi. İH-nin böyük akt zalında o Zəngilan rayon ictimaiyyətinə təqdim olundu. May ayının 31-də mən növbətçi idim. O, Seyidəli və Eldar Babayevlə Şayıflı istiqamətinə gedib gecə təxminən 23.30 radələrində kabinetinə qayıdanda axşam saat18-dən sonra bura gələn adamlar və zənglər barədə məruzə etdim. Eyni zamanda ona bildirdim ki, Əli müəllimin vaxtında mən işdən azad olunmağım barədə iki dəfə yazılı ərizə vermişəm.

T.Kazımov da mənə bildirdi ki, sən işləməlisən və gələcəkdə səni daha yaxşı bir vəzifə ilə təmin edərəm.

Oradakı vəzifəli adamlardan ikisi barədə mənə suallar verdi.. Heç kim barədə pis söz demədim.

İki aydan sonra o mənə əvvəlcədən bütün işçilər içərisində xəbərdarlıq etmədən çörək zavoduna və Pirçivan bazarına müdirliyi məsləhət gördü.

Artıq mən onun niyyətini başa düşdüm. Ancaq onun nə səbəbdən bu qərara gəldiyini heç indi də araşdıra bilmirəm. Az müddətdə T.Kazımovun qonşuları Arif Hüseynov, Xürrəm Həsənov, Dilşad Həsənova və mən öz işimizlə vidalaşmalı olduq.

1993- cü ilin yanvarında isə T.Kazımovu vəzifədən uzaqlaşdırdılar. Onun əleyhinə olan adamların heç birinə qoşulmadım, əleyhinə heç nə demədim.

Vəzifədən çıxdıqdan sonra humanitar məsələlər üzrə İH başçısının müavini Zoya Cəbrayılovanın xahişi ilə Zəngilan rayon qiyabi-axşam orta məktəblər şəbəkəsinə direktor keçməyə razılıq verdim. Həmin məktəbin direktoru Aftandil Fərmanovu mənim yerinə təyin etmişdilər. Zoya xanımı hamımız çox istəyirdik. Onun atası Hüseyn ilə isti münasibətlərimiz var idi, müəyyən qohumluğumuz da çatırdı. Bu vəzifəni hələ 1980-ci ilin mayında RXMŞ-nə müdir keçən Yadulla Hacıyev mənə təklif eləmişdi. Mən razı olmadım. O, mənə Şamı ilə məsləhətləş, gəl elə başa düş ki, kiçik bir rayonunun Maarif şöbəsinin müdiri olursan.

. Doğrudan da o zaman qiyabi-axşam orta məktəblər şəbəkəsinin 60 məntəqəsi var idi. Hələ Qafandakı Azərbaycan orta məktə-

bində də məntəqə açılmışdı. Şamı gilə getdim. Yadulla müəllimin təklifini ona çatdırdım. O, bir qədər fikrə gedib məndən soruşdu:

-Pulun var?, Elə bildim ki, ona lazımdı. Cavab verdim ki, evdə 200 manatım var, Gedim gətirim?

O, gülə -gülə: o məktəbə rəhbərlik edənlərin əksəriyyətini radioda, mətbuatda tənqid ediblər, bunları eşitməmiş olmazsan? Həmin məktəblərdə çox vaxt müəllim şagirdləri, şagirdlər də müəllimləri tanımırlar. Orada adları olan müəllim və şagirdlər dərs keçilən məktəbin heç yerini də bilmirlər.

Mən səndən ona görə pulunu soruşdum ki, gələcəkdə bəd ayaqda özünü qurtarmaq üçün sənə xeyli pul lazımdı. Yadulla müəllimə mənim də minnətdarlığımı bildir, bu işdən vaz keç.

RXMŞ-nə getdim. Yadulla müəllimə Şamının da salamını və minnətdarlığını çatdırmaqla o vəzifədən imtina etdim.

Burasını da deyim ki, Y.Hacıyev özündən əvvəlki və sonrakı Maarif müdirlərindən həm şəxsiyyətcə, həm də intellektual səviyyəsi ilə geri qalmayan şəxsiyyətlərdən biri idi.

On iki ildən sonra Zoya Cəbrayılovanın xahişini tərəddüd etmədən qəbul etdim. İndi məktəbdə cəmi 6 məntəqə fəaliyyət göstərirdi. Şamı da mənim bu hərəkətimi bəyəndi və bildirdi ki, münaqişədən uzaq olmaq üçün yeganə düz yol seçmisən.

1992-ci ildə Zəngilan RXMŞ-nə müdir təyin edilmiş Tofiq Heydərov hərtərəfinə bizə münasib adam idi. Məktəbi təhvil götürəndə bir çox nöqsanlar üzə çıxartdım. Bəzi adı olub özü olmayan sinifləri ləğv etdim. T.Heydərov da bir neçə ay idi ki, həmin vəzifəyə gəlmişdi. O, mənə minnətdarlıq edərək, Bağırov çox sağ ol, gələcəkdə məni də, özünü də rüsvayçılıqdan və biabırçılıqdan qorudun. Allah köməyin olsun -dedi.

Rayonun İH-nin yeni başçısı İlham Hüseynov vəzifəsinin icrasına başlayandan 1-2 gün sonra məni soruşur ki, Asif Bağırov niyə işə gəlmir. Vəziyyəti ona bildirirlər. O məni çağırıb işimə qayıtmağı, əvvəlkindən də yuxarı vəzifə verməyə hazır olduğunu bildirdi. Mən çox razılıq edərək İH-də işləmək niyyətində olmadığımı bildirdim.

1993-cü ilin 01 sentyabrınadək direktor işlədim. RXMŞ də məktəb inspektoru vəzifəsi boşaldığı üçün İlham Hüseynovun təklifi ilə RXMŞ-nin müdiri 01.09.1993-cü il tarixdə məni həmin vəzifəyə təyin etdi.

Artıq haylar 1992- ci ilin dekabrında strateji əhəmiyyətə malik yüksəklikləri və kəndləri işğal etmişdilər. Bu xüsusən «Dardanyuxarı» deyilən əraziyə aid idi. Azərbaycanda ilk və sonuncu olaraq 1993-cü ilin 10 aprelində haylara qarşı keçirilən əks hücumda Qafan rayonunun bir neçə kəndi ələ keçirilmişdi. Azərbaycan rəhbərliyinin müdaxiləsindən sonra bizim ordu oranı boşaltmalı olmuşdu.

1993- cü ilin avqust-sentyabr aylarında Zəngilana yaxın rayonlar, o cümlədən Qubadlı da işğal altında idi. Bu Zəngilanın müdafiə vəziyyətini olduqca ağırlaşdırdı. Çünki Qubadlı ilə Zəngilan əlbir olaraq lazım gələndə Qafanı qorxu vəziyyətinə gətirirdilər. Qafan rayonunun milis rəisi Edik təhlükəli vəziyyətlərdə Şayıflı kənd xəstəxanasının baş həkimi Tariyel Salmanova zəng edərək, biz atəşi kəsirik, siz də kəsin deyə xahiş edirdi və eyni zamanda bunu Qubadlıya da bildirəsiniz -deyirdi. T.Salmanov o zaman Zəngilanın müdafiəsi üçün bir nov əlaqələndirici vəzifəsini yerinə yetirirdi. Onun bu sahədəki əməyi inkar edilməzdi. 1993-cü ilin oktyabr ayının ortalarında Azərbaycanın o vaxtkı müdafiə naziri Məmmədrəfi Məmmədov Zəngilandan iki 40 stvollu qradı və komputer ilə işləyən tankı Beyləqan istiqamətinə apardı. Rayondakı tankların əksəriyyəti nasaz vəziyyətdə idi.

Bizi haylardan əvvəl öz müdafiə nazirimiz tərksilah, əliyalın elədi. Bir neçə ay mühasirə vəziyyətində qalan Zəngilan 1993-cü ilin 23 oktyabrında Horadiz və Mahmudlu istiqamətindən Bakı ilə əlaqəsini tamamilə itirdi.

Döyüşçülərimizin qəhrəmancasına şücaətinə baxmayaraq neçə-neçə şəhid verən Zəngilanlılar həmin ayın 27-dən başlayaraq rayonu tərk etməli olurdular.

Azərbaycan prezidenti möhtərəm Heydər Əliyevin göstərişi ilə Naxçıvanda Araz çayının suyu ehtiyat bəndlərə vuruldu. Yenə

də Heydər Əliyevin İranın o vaxtkı prezidenti H.Rəfsəncani ilə apardığı danışıqlar nəticəsində zəngilanlılara Arazdan İran ərazisinə keçməsinə icazə verdilər. 70 illik sovet rejimi vaxtında Araz tərəfə baxmağa icazəsi olmayanlar indi bu çayı keçmək məcburiyyətində qalmışdı. 30 mindən çox insanın çox olsa min nəfəri qorxmadan çayı keçmək bacarığında idi. Qadınlar, qocalar və uşaqlar barədə bunu demək olmazdı. Acınacaqlı vəziyyət yaranmışdı. Zəngilanlılar kişi kimi, cəsarətlə vuruşsalarda təpədən-dırnağa kimi silaha sarılmış mənfur düşmənə qarşı tab gətirə bilmədilər.

Qafandan, Meğridən, işğal olunmuş Qubadlı, Cəbrayıl və Füzulidən də üstümüzə haylar gəlirdilər. Mənim vəziyyətim də yaxşı deyildi.

Ağsaqqalım, ata əvəzim, böyük qardaşım Şamı, anamın dayısı oğlu, eyni zamanda da bacım Səlbinin yoldaşı Qurban, onun dörd qızının yeganə qardaşı Əmir də orduda idilər. Oktyabrın 27-də mən Tofiq Hacıyevin bacısı oğlu Qasımın dəfn mərasimində istirak edirdim. Günortaya yaxın evə qayıdanda şəhərdə hamının köçdüyünü gördüm. Düşmən artıq şəhərə girhagirdə idi. Üç gün əvvəl məşhur ayaqqabı ustası Əli Fərhadov bizə gəlmişdi. O, mənə bildirdi ki, ikinci qızı Xavər müəllimənin yoldaşı Nicat «Kamaz» sürücüsüdü. Vəziyyət pisləşərsə maşın sizin sərəncamınızda olacaq. Əli Fərhadovun qızı Narın və yoldaşı Rəhim bizimlə qonşu idi. Mən razı olmadım və dedim ki, usta çox-çox minnətdaram. O, daha bir alicənablıq göstərərək belə dedi:

-Asif müəllim sən ağsaqqalımızsan, yol göstərənimizsən, nə edək? Baxın, mən 1947-ci il təvəllüdlü, o isə 1929. Mən qəlbən həmişə bu adama özümü borclu kimi saymışam. Onun Şamıya da, mənə də, ailəmizə də böyük hörməti var idi. Mən dedim ki, Fərhadov bizim ev yol üstündədi mən də məhşur adamam, maşının da üst hissəsi görünəcək yol ilə gəlib gedənlərin marağına səbəb olacaq. Məsləhətsə maşın sizin qapıda qalsın.

Mən evə gəldim. Böyük qızım Aytəkin və kiçik qızım Lamiyyə həyətdə idilər. Anaları evdə yoxdu, oğlum Vüqar da. Lamiy-

yənin 9 yaş var, ağlayır silah səslərinin gurultusundan qorxurdu. Amma, Aytəkin bir az toxtaqdı.

Soruşdum dedi ki, anam getdi Mincivana. Nənəm oradadı sifariş eləyib ki, gəlin məni gətirin. Getdi onu gətirməyə. Camaat Mincivana tərəf gedirdi. Bu da neyləsin, onun böyük qızıdı. Çox əsəbiləşdim Nə edim. Ah madar bir oğlum var, onu da özü ilə aparıb. Mən bu qarışıqlıqda yoldaşımı, oğlumu necə tapacağam?

Bu tərəfdən də Şamıdan, Qurbandan, Əmirdən nigaranam. Əmiri çox istəyirəm. Bu heyni də maşın gəldi. Ə.Fərhadov rəhmətlik maşını qızı gilə yox, bizim qapıya sürdürmüşdü.

-Asif müəlim yığışın gedək. Mən əvvəldən ona demişdim ki, Fərhadov mən getməyəcəyəm. Sən uşaqlara bax. O, da and içdi ki, sən getməsən, mən də getməyəcəyəm. Yalvar-yaxarla dedi:

-Gəl otur maşına. Oturdum maşına. Aytəkin bir təhər 20-25 yeməli vəziyyətdə olan çolpaların ayağını bağlamışdı ki, yola götürək. Ona acıqlandım, dedim aç. Elə də qaldı, bizdən sonra kim götürdü bilmədim. Sonra dedi ki, ata icazə ver albomları boşaldım. Evdə həm mənim həm də ki, böyük qızım Aytəkinin albomları var idi. Təzxinən 40 illik şəkillər idi. Aytəkin albomları silkələdi. Yapışanlar xaric bir qismi töküldü, onları götürdük. İki litrlik bir kauçuk və ya kaprondan olan boş termos götürdüm, eşitmişdim ki, həyəcandan adamın dili-dodağı quruyur. Yolda su dolduraraq. Evin hamısı qaldı. Amma Qubadlı gedəndə şofer Qasımın oğluna pul vermişdim ki, bizim evdən bir neçə dəst yorğan-döşəyi Bakıya aparsın. Bir də Şamının böyük oğlu Nazim gələndə təzə rəngli televizoru və sifarişlə düzəltdirdiyim qarmonu ona vermişdim. Bilirdim ki, gedirik. Orada sataram. Hər ikisi pula gedən mallar idi. Dayı Alllahverdiyə dedim gəl gedək, gəlmədi. Dedi ki, Nuranı apar. Nura onun ögey bacısı idi.

Kamazla Mincivana gəldik. Rəhmətlik qayınanamı da, oğlum Vüqarı da onun anasını da tapdıq. Maşını Arazın qırağında saxladıq. Bizimlə gələnlərdən ilk olaraq mən Arazı keçməli oldum. Burada Araz 4 qola ayrılırdı. Birinci olaraq öz uşaqlarımı deyil, Fəsi Məmmədovun böyük qardaşı Allahverdi müəllimin quca-

ğında 4-5 aylıq körpəsi olan gəlinini keçirməli oldum. Ondan soruşdum ki, uşağın adı nədi. Bu sualla uşağın oğlan və ya qız olduğunu öyrənmək istəyirdim. Dedi Xanlar. Xanlar Fəsinin atası idi. Dedim bala burada gözlə gedim, o biri qonşuların da ailə-uşağını gətirim. O vaxt Kamazda uşaqlı-böyüklü 38 nəfər var idi. İndi həmən adamların 10-15 nəfəri dünyasın dəyişib. Xürrəmin də ailəsi orada idi. Əli Fərhadovun böyüklüyü onda idi ki, dar gündə böyüklük elədi.

Bir-bir Arazın qolların adladıq. Xürrəmlə Rəhim deyərdim ki, ömründə çayda çimməyibəlr. Hamımız adladıq.

Mən İran (Cənubi Azərbaycan) tayda Şamını tapmadım. Bizdən iki-üç saat sonra Cabbar İmamverdiyev atası Məhəmməd dayı ilə Arazı keçmişdilər.

Arazdan İran tərəfə qayıdanda sofer Famili gördüm. Xeyli adam Arazı keçirdi. Onun da oğlu Emin şəhid olmuşdu.. Köhnə Pirçivanlı Cəbrayılın oğlu Ramazanın şəhid olmasını bizə Cabbar dedi. Cabbar məni nigarançılıqdan qurtarmaq üçün Şamının ona verdiyi bir çemodanı da mənə göstərdi. Çemodanda Şamının pal-paltarı var idi.

Məmmədov Zülfüqar da yoldaşı ilə gəldi. Biz bir yerdə toplaşıdıq. Muğanlı (Vənətli) sürücü Salman, Zülfüqar, Rəhim və mən bir yerdə idik. Arada mən Arazdan Zəngilan tərəfə keçmişdim.

Gecə Xürrəm, sürücü Salman, Cabbar, Zülfüqar və mən sofer Salmanın gətirdiyi üzüm arağını pomidor və pendir və s. Arazın qırağında ailə və uşaqlarımızdan aralıda qəmgin vəziyyətdə yedik-içdik.

Gecə mən, Xürrəm və Şıxəliyev Arif uşaq döşəkcəsini dolayı «Kamaz»ın altına yerə sərərək yatdıq. İşin tərsiliyindən də aramsız yağış kəsmək bilmirdi.

Səhərisi qonşumuz Allahverdi Namazov da gəlib çıxdı.

O nəyi isə məndən gizlədirdi. O bir gün əvvəl ögey bacısı Nuranı bizə qoşsa da özü şəhərdən çıxmadı. Amma bir gün sonra məndən soruşdu ki, Asif müəllim gecə evinizdə adam vardı? Eyni zamanda Şamının ayın 28-də onu zorla yola saldığını dedi

və əlavə etdi ki, məni hədələdi ki, rayondan çıxmasan səni bu avtomatla gülləyəcəyəm.

Ancaq Allahverdi dayı Zülfüqara, Xürrəmə bir də Cabbara deyib ki, gecə filankəsin, filankəsin və filankəsin oğlu Asif müllimin darvazasının qıfılını qırıb böyük Kamazla onların həyətlərinə daxil olmuş, evi talan etdilər. Gecə saat 2 olardı, qorxudan səsimi çıxartmadım. Mən Allahverdiyev Bəhmənin evinin küncündə gizlənmişdim. Məni silahla öldürə bilərdilər.

Biz 27, 28 oktyabrda eləcə Arazın qırağında qaldıq. 29 oktyabrda axşam tərəfi Nicatın maşınında Azərbaycan istiqmətinə yola düşdük. (İran-Cənubi Azərbaycan tərfi ilə) Uşaqlı böyüklü Kamazda 38 nəfər idik. İranın bir kəndinin yanından keçəndə Xürrəm Şamını görüb kabinkanı döyəcləməyə başladı. Şamı dayı, Şamı dayı deyərək qışqırmağa ara vermirdi.

Biz maşından düşüb Şamı ilə görüşdük. Hərbi formada idi. Qısa görüşdən sonra o, məni kənara çəkib təxminən 3 min İran rialı verdi. Əlindəki fartuğu (torbanı) da Xürrəmə uzadaraq,-bu çəpış əti və çörəkdi. Ərşad Mehtiyev verib uşaqlara paylayın-dedi.

Biz xeyli yol gedəndən sonra İranın Katdalı kəndinin qırağında gecələməli olduq. Kəndəki iki evdən qadın və kişilər gəlib Allahverdi müəllimi, Fəsi və məni evlərinə apardı. Qadınlardan isə Fəsinin anası Xanım nənə, mənim qayınanam, yoldaşım, Minayə müəlimə, Narını müəlliməni və uşaqları qadınlar evlərinə apardılaar. Cavanlar maşında gecələdilər. Səhərisi nahar edəndən sonra yola düşdük.

Nicat maşına yanacaq vuranda mən zorla Şamı verən pulla onu ödədim. İrandan 70 kiloqramadək bir kisə kartof, 5-10 kiloqram qırmızı soğan, qənd və xeyli çay aldım. Bunları Narın xanımın sərəncamına verdim. Mənim təklifimlə Narın müəllimə ərzaqları necə işlətməyə rəhbərlik edirdi. Özlərində və Xürrəmgildə olan ərzaqlar da onun sərəncamında idi. Biz gecə yarısı Qaradonlu stansiyasına çatdıq. Elə dəmiryolunun qırağında da gecələdik. Səhərisi İmişlidə Xürrəmin kiçik qardaşı Xəyyam gəlib bizi tapdı. Xeyli qara çörək gətirmişdi. Bəlkə də bir neçə gündə qarın dolusu ilk dəfə yedik.

Xürrəmin təklifi ilə İmişli rayon İcra Hakimiyyətinə getdik. Kabinetlərin birində atası Zəngilanda 10 il məhkəmə işləmiş, mənim uşaqlıq dostum, Daşdəmir Kazımovu gördük. O ərazi hakimiyyət və idarəetmə orqanları ilə üzrə məsləhətçi vəzifəsində işləyirdi. Xürrəmi tanıdı. Hər ikimizlə görüşsə də, məni tanımadı. Xürrəm ona, bu yoldaşı tanıdınmı? deyə sual verdi. Yenə diqqətlə baxsa da tanımadı. Xürrəm ona bu Bağırov Asifdi deməsindən sonra Daşdəmir qəhərləndi, elə Xürrəmin yanında durub məni marça-marçla öpərək, Asif sizi heç hara buraxmayacağam. Ramiz təzə ev tikib. O özündən kiçik qardaşın deyirdi. Bircə pəncərəsinin şüşəsi yoxdu. Onu da düzəldərik. Ailənlə həmin evdə yaşayacaqsan, nə tapsaq ondan da yeyəcəyik- dedi.

Ona minnətdarlıq bildirəndən sonra bizi Bakı istiqamətindəki rayonlardan birinə göndərməsini xahiş etdim.

O, bir neçə rayon saydı. Xürrəmlə Əli Bayramlını (indiki Şirvan) seçdik. O qərərgahla əlaqə yaradıb, bizi avtobusla Əli Bayramlıya yola saldı.

Gecə bizə dəri-zöhrəvi dispanserində yer verdilər. Ora çatanda Əli Bayramlı İcra Hakimiyyətindən biri qadın, biri də kişi olan iki nümayəndə gəldi və bizdən soruşdu:

-Asif Bağırov kimdi?

Mən özümü təqdim etdim. Xəstəxanada otaq bölgüsünü mənə həvalə etdilər. Əvvəlcə yaşlılara, böyük ailələrə iki otaq verdim. Axırda da özümüzə bir otaq götürdüm. Çoxumuz oranın havasını, iyi-qoxusunu götürməsək də məcburiyyət qarşısında orada məskunlaşmalı olduq. Səhərisi yenə axşamkı nümayəndələr gəlib hər ailəyə bir neçə ədəd zavod çörəyi payladılar.

Bir neçə gündən sonra ailə və uşaqlarımızı Bakıya qohumlarımızın evinə yolladıq.

Biz uşaqları Bakıya yola salandan sonra mən, Xürrəm və Rəhim orada qalası olduq. Arada ən yaxın dostumuz Məmmədov Hüseyn Bəhlul oğlu gəlib bizi tapdı. O, da haradasa yaxınlıqda ailəsi ilə qalırdı.

Bizim nahar, günorta və axşam yeməyimiz ancaq soyutma kartof və soğan idi.

O, axşamlar bizim yanımıza gələndə çay stəkanları da gətirmişdi. Hüseyn mənim və Xürrəmin uşaqlıq dostumuz olmaqla, çox təmiz və mərdanə bir insan idi. Mənim əlavə işlərim çıxmışdı. Zəngilanın müxtəlif kəndlərindən gələn məcburi köçkünlərin siyahısın tutub, bəzilərini elə qaldığımız xəstəxanada yerləşdirdim. Mincivandan Süleyman müəllimə (o Telman Kazımovun xalası oğludu) yanımızda otaq ayırdım. Qəzet köşkündə işləyən Zeynəb bacıya (oğlanları Elman həkim, Tariyel və Bəxtiyar) Əli Bayramlıdakı əslən Naxçıvandan olan Seyidli adlı şirkət rəhbəri özü xahiş eləmişdi ki, məcburi-köçkünlərdən bir ailəni həm otaqla, həm də ki, gündəlik yeməklə təmin edəcək. Zeynəb bacıgilə həmin şirkət rahat otaqlar ayırdı..

Üç-dörd gündən sonra Xürrəmlə Zeynəb bacıya baş çəkməyə getdik ki, vəziyyətini öyrənək. Bizi buraxmadılar. Zorla süfrə açdılar. Təzə pomidor-xiyar, üstəlik quzu ətinin kababı. Kababı Elman həkim özü bişirirdi. O zaman Zəngilan rayon sovetinin sərdi işləyən Zakir İbrahimov mənə Əli Bayramlı şəhər İH-də bir otaq ayırmışdı. (Çox güman ki, xahiş eləyib almışdı). Mənim qələm-kağız almağa pulum yox idi. O, məni yazı ləvazimatı ilə təmin edirdi. İH-nin binasının çöl tərəfində, zəngilanlıların göbələk adlandırdıqları dairəvi şəkildə bir bina var idi. Genlikdən, Malatkeşindən, Müşlandan, Cahangirbəylidən, Qaradərə, Ördəkli, Üdgün və s. kəndlərdən olan həmyerlilərimizlə o binada görüşüb qeydiyyata alırdım.

Onların neçə nəfər ailə üzvü olduqlarını və Əli Bayramlının harasında yaşadıqlarını, pasportlarının nömrəsini də qeyd edirdim.

Hər bir adama da tapşırırdım ki, ətrafınızda yaşayan Zəngilanlılara deyin ki, gəlsinlər onları qeydiyyata alaq. Bu çox vacibdir. Az müddətdən sonra yüzlərlə insanı qeydiyyata aldım. O zaman Zəngilan rayon İH-nın başçısı İlham Hüseynov, əksər idarə və müəssisə rəhbərləri Sabirabad şəhərində qərarlaşmışdı. Bir gün Xürrəm Həsənov ilə avtobusla Sabirabad şəhərinə getdik. Topladığım materiallarla (siyahı) İ.Hüseynovu tanış etdim. O baş mühasib Əminə xanımı çağırdı. Siyahını ona verdi. Məndən də xahiş

elədi ki. Asif müəllim dövlət hər bir məcburi köçkünə 500 manat ayırıb. Əli Byramlıdakı məcburi köçkünlərin pulunu siz paylayın. Mən ona minnətdarqlıq edərək bildirdim ki, İH-nin məcburi köçkünlərlə iş üzrə məsləhətçisi Xanqulu Almuradov bu işi icra etsə yaxşı olar.

İki-üç gün keçmiş Xanqulu Almuradov pulları paylamaq üçün ilk olaraq Əli Bayramlıya gəldi.

Xürrəm, Rəhim, Hüseyn, Süleyman və mən özümüzü varlı, imkanlı adamlar kimi hiss etməyə başladıq. Xanqulunu da buraxmadım. Yüngülvari bir məclis qurduq.

Bu minvalla noyabr ayını Əli Bayramlıda yola saldıq. Əli Bayramlıda qalanda müxtəlif günlərdə bir dəfə Sumqayıtdakı baldızım Nazilə xanım, bir dəfə də Estoniyadan köçüb Bakıda yaşayan baldızım Nailə xanım bizə baş çəkdilər. Hərəsi gücü çatan pulu ağlaya-ağlaya öz böyük bacılarına, mənim həyat yoldaşıma verdilər. Mən Bakıdakı qohum və dostlarımdan heç kəsi qınamıram. Hamısının öz ailəsindən məcburi köçkünü var idi. Onları dolandırmaq, yerbə-yer etmək çətin idi. Həmin vaxtlarda Azərbaycanda, o cümlədən də Bakıda yaşayanların dolanışığı pis vəziyyətdə idi.

Bir gün həyat yoldaşım Əli Bayramlıya gəldi və bildirdi ki, Qurban dayı və Səlbi xala (Səlbi bacım, Qurban isə onun yoldaşı idi) AZİ-nin yataqxanasında *(Azərbaycan Neft Akademiyasının Tələbə şəhərciyi nəzərdə tutulu*r) bizə yer,otaq tutublar. Yığış gedək. Eyni zamanda Xürrəmlə Rəhimə bildirdi ki, Maya xanım (*Xürrəmin baldızı idi. O vaxt Binəqədi rayon polis idarəsində pasport masa rəisi işləyirdi)* Azərbaycan Həmkarlar İttifaqı Komitəsinin Tədris Korpusunda otaq alıb. Artıq uşaqlarınız orada yaşayırlar. Xatirimdən çıxıb, deyəsən dekabr ayının əvvəlləri idi, Bakıya gəldik.

Qubadlı işğal olunan zaman qonşumuz şofer Qasımın oğlunun vasitəsi ilə gətirilmiş yorğan-döşəkləri Qurbangilin Azərbaycan Neft Akademiyasının Tələbə Şəhərciyində 6 saylı yataqxanada 8-ci mərtəbədə bizim üçün tutduğu otağa yığdıq.

Bakıdakı baldızım gəlib bizi evlərinə apardı ki, heç olmazsa bir neçə gün onlarda qalaq. Üç gün olardı ki, bacanağım gildə qalırdıq. Axşam tərəfi kiçik baldızım gəlib bizə xəbər verdi ki, yataqxanada bir nəfər zəngilanlı qapının qıfılını qıraraq sizin otağa girib. Yataqxanaya gəldik. Otağımızı zəbt edən adam məndən on yaş böyük olan, uzun illər çörək kəsdiyim bir adamın oğlu idi. Həyat yoldaşı da yanında idi.

Ona dedim ki, ay bala sən bura girəndə içəridəki yorğan-döşəyi görmədinmi? Baxdım ki, bunda abır-həya, utanan üz də yoxdu. Burasını da mənə xəbər verdilər ki, Qurban ona acıqlanıb, üstəlik bir sillə də vurub ki, (üzr istəyirəm)-a, küçük o otaq Asif müəllimindi, heç utanmırsan. Bu adam isə özünəməxsus bir-iki bağlamanı həyasızcasına qoyub bizim otağa. Əvvəldən yataqxanadakı dəmir çarpayılardan Qurbangil ikisini həmən otağa qoymuşdular. Onların da ancaq setkası var idi. Kəlləsi və ayağı yox idi. Artıq gecə saat 2 olardı. Bunlar da getmək istəmirdilər. Əlacsız qalıb yoldaşımla yorğan döşəyi açıb hərəmiz bir setkanın üstündə mürgüləməyə başladıq. Yatmazdan əvvəl onlara «gecəniz xeyrə qalsın» deməyi də unutmadım. Səhərə yaxın onlar otağı tərk etmişdilər. Səhəri eşitdim ki, Bəxtiyar Süleymanlının kiçik qardaşının tutduğu otağa da onlar giriblər və oradan onları kötəkləyərək qovublar.

Dayı Allahverdinin Cabbargilə dediyi filankəsin oğlu burada da mənə məxsus otağı zəbt etmək istəyib. Həmin adamın əməllərindən qardaşım Şamının kiçik oğlu Şahin və Şamının kiçik qızının yoldaşı Rasif xəbər tutaraq onu əzizdirmək qərarına gəliblər. Bu xəbəri onlara Xürrəm çatdırıb. Mən buna yol vermədim. Allahıma şükür etdim nə yaxşı ki, onun mənim evimə girməyi və yandırmağı barədə xəbərim olmayıb. Fiziki cəhətdənn zəif olan bu adamı elə həmin gecə 8-ci mərtəbənin balkonundan üzüaşağı tullayacaqdım. Yəqin ki türmələrdə mən tab gətirə bilməzdim.

Yavaş-yavaş yataqxana həyatına uyğunlaşırdım. Burada ən çox məskunlaşanlar Zəngilanlılar idi. Çoxu da bizə münasib idi. Həmin vaxtlar Məmmədov Telman, İskəndərov Xuduş, Ağayev

Nəriman, Heydərov Yusif, Abdullayev Murtuza, Cavadov Cavad, Qarayev Mikayıl, Əzimov Şəhrux, İsmayılov Yavər, Salahov Zülfüqar, Əsədov Əziz və s. bizim korpusda yaşayırdılar. Digər korpusda Bəşirov Şərif, Eyvazov Eldar, Cavadlı Salam, Arif və Aydın Şıxəliyev qardaşları, Salamın anası Fatma kirvə, qayınanası Ayna xala, köhnə Pirçivanlı Alışov Famil və digərləri yaşayırdı. Y.Hacıyevin həyat yoldaşı Elmira xanım da orada yaşayanlar arasında idi. Bir sözlə Zəngilanlıların ən çox kompakt şəkildə yaşadığı yer Azərbaycan Neft Akademiyasının Tələbə Şəhərciyi idi.

İlk günlərdən orada öz ofisi yerləşən Səxavət adlı bir iş adamı bütün məcburi köçkünlərə yardım edirdi. Gecələr qonşularımız Telman müəllimlə, Xuduş müəllimlə söhbətlər edərək bu mənzərənin nə vaxta qədər davam edəcəyini düşünərdik.

Mən şəhərcikdə məskunlaşdığım vaxtda ora həmişə rəhmətliklər Mürşüd həkim, Ənvər Məmmədyarovun gəldiyini görərdim. Onlarla bərabər bir ucaboylu şəxs də gəlirdi. Bu Azərbaycan Neft Akademiyasının prorektoru idi. Soyadı İmranov idi. Onlar camaatın problemləri ilə maraqlanır aidiyyatı qurumlarla həll etmək istəyirdilər. Ən ağır problemlərdən biri heç kimin işləməməsi (isizlik) və hüzürü düşən ailələrin dəfn üçün yer və pul tapmaması idi. Şəhərcikdə 400-ə yaxın zəngilanlı uşaqlar təhsildən kənarda qalmışdı. Altmışa qədər pedaqoji işçi, onlarla sənətkar (*bənna, çəkməçi, dərzi, bərbər, sürücü, divar ustası, dülgər və s,*) bekar idi. Mən bunlarında təxmini qeydiyyatını aparırdım. İcra Hakimiyyətin başçısı İlham Hüseynovun sərəncamı ilə mən Nəsimi rayonu üzrə nümayəndə idim. Şəhərcikdə yaşayanların çoxu yataqxanada komendant tərəfindən uçota alınsalarda bu Nəsimi Rayon İH-də qeydiyyata alınmamışdı. Mənə İH dəki 24 saylı kabinetdə yer ayırmışdılar. Burada Şəfəq xanımla (*o o vaxt baş məsləhətçi idi, sonra şöbənin müdiri oldu*), bərabər (gərək ki adı) Aynur xanım,eyni zamanda Akif adlı bir Şüşalı ilə bir yerdə otururduq. O Şuşa şəhəri üzrə nümayəndə idi. Az sonra mən Heydərov Yusifi də kömək üçün ora apardım. Orada Zəngilanlılar üçün yardım (əsasən kartof və soğan) paylayırdıq.

Bir gün Mürşüd həkimlə Ənvər müəllim yataqxanaya gəlib mənə dedilər ki, Zəngilanlıların nə problemi varsa bu gecə yaz. Sabah Azərbaycan Respublikası Ali Soveti sədrinin birinci müavini Afiyəddin Cəlilov bura gələcək. Şərait yaradarıq bu barədə sən məlumat verərsən.

1993- cü ilin 15 dekabrında tələbə şəhərciyinin akt zalında A. Cəlilov ilə görüş keçirildi. Zaldakı bəzi adamların hərəkəti, atmacaları xoşa gələn deyildi. Bu səs küydə oradakıların probleminə həsr olunmuş çıxışımı da eşitməyəcəkdilər.

Onu qənimət bildim ki, A.Cəlilovun özünə, yazdıqlarımı bir təhər çatdırdım. Görüş demək olar ki, yarımçıq başa çatdı. Həyətdə Mürşüd həkimlə Ənvər müəllim mənə dedilər ki, sabah axşam saat 18.00-da Ali Sovetdə A.Cəlilovun qəbulunda olacağıq. Yazdıqlarını da əzbərlə, şəxsiyyət vəsiqəni və ya pasportunu da götür. Orada ancaq sən danışacaqsan. Ertəsi gün Ali Sovetdə olduq. Təxminən 10-15 nəfər adam idi. Orada siyahıya və pasportlarımıza baxıb bizi içəri buraxırdılar. Adı siyahıda olmayan, Zəngilanda yüksək vəzifələrdə işləmiş bir nəfər zorla içəri girmək istəyirdi. Mürşüd həkim onu sərt baxışı və sözləri ilə içəri girməyə qoymadı.

Rəhmətlik A.Cəlilovun kabinetinə girəndə elə kabinetinin qapısı ağzında ayaq üstə gülərüzlə bizi qarşıladı. Hamımız əyləşdikdən sonra o Heydər Əliyevin salamını bizə çatdırdı.

Qısa çıxışından sonra bizi dinləməyə başladı. Ənvər müəllimin işarəsi ilə mən çıxışa başladım. Dünən çatdırdıqlarıma müəyyən əlavələr də etdim. Qəbulda Mürşüd həkim, Ənvər müəllimdən başqa Nəriman Ağayev, Şəmil Aslanov, Həsən Həşimov, Ələkbər Həşimov (o Səhiyyə Nazirliyinin tikinti trestinin rəhbəri idi) və digər insanlar da vardı. H.Həşimov Zəngilanda əvvəllər mənim yanımda Pionerlər Evində kütləvi işçi, orduya gedib-gələndən sonra isə şəhər 1 saylı OM də hərbi rəhbər vəzifələrində işləmişdi. İşğaldan bir neçə il əvvəl Bakı şəhərində yaşayırdı. Onun Ənvər müəllimlə və şair N.Kəsəmənli ilə isti münasibətləri var idi. Bu siyahıya düşməyi də Ənvər müəllimin hesabına idi.

Həm A.Cəlilov, həm də bizim nümayəndə heyəti çıxışımı diqqətlə dinləyirdilər. Həmyerlilərim başı ilə dediklərimi təsdiq edirdilər. A.Cəlilov isə müəyyən qeydlər aparmaqla hərdən gözü ilə də dünən ona verdiyim qeydlərə baxırdı. Mən çıxışımın sonunda yazdıqlarımda olmayan bir məsələni də ona çatdırdım. Bu Ənvər Məmmədyarovla H.Həşimovun xahişi idi. Gürcüstandan bir iş adamı onlardan xahiş etmişdi ki, Qazaxıstandan Azərbaycana buğda gətirmək istəyir. Əgər gömrükdən və vergidən azad olunarsa Zəngilanlılara 100 tonlarla taxıl yardım edə bilər. A.Cəlilov sanki bundan əvvəldən xəbərdar imiş kimi mənə bildirdi ki, müəllim bu iş bizim səlahiyyətimizə aid deyil.

Qəbuldan çıxanda mənə qohumluğu çatan Ə.Həşimov məni qonaqlığa dəvət etdi. Mən imtina etdikdə, o mənə mənim Abşeron mehmanxanasında bir toya getməyə razılıq verməyimi istəyərək, orada qonşun Rəsul İmaməliyev də olacaq. Gedək bir az kefin də açılar, dedi. Cibimdə 5 Məmməd yəni 5 min pul var idi. Mən siyahını bəhanə gətirərək bundan da yayınmaq istədim.

Ələkbər and içdi ki, biz heç birimiz adımızı siyahıya yazdırmayacağıq, fəxri qonağıq. Evlənən türkdü, ərə gedən Zaqatalalı. Ələkbərlə gedəsi oldum. Rəsul o zaman Respublika prokurorluğunda mühüm işlər üzrə müstəntiq idi. Onunla neçə illər əvvəldən tanıdığım Ələkbərlə vaxtılə bir otaqda qalan Məcid adlı bir nəfər də gəlmişdi. O zaman o tələbə idi. İndi isə Respublika prokurorluğunda mühüm işlər üzrə baş müstəntiq idi. Biz bir sürfə arxasında cəmləşdik. Ələkbər Məcidə sual verdi ki, Asif müəllimi tanıyırsan? O, da cavab verdi ki, xeyr. Çox pərt oldum. Onu cavabsız qoymayaraq dedim:

-Amma mən sizi 20 ilə yaxındır ki, tanıyıram. Ələkbərlə filan (özüm belə dedim) yerdə kvartirant qalırdınız. Gecə vaxtı sizin otağa gəldim, gördüm ki, kartof qızardırsınız. Sizi Bakı mehmanxanasındakı restorana apardım. Mən həmin adamam. Üstəlik iki il bundan əvvəl Ələkbərin kiçik qardaşı Mirhaşımın toyuna da gəlmişdiniz. Orada ağsaqqalığı Ələsgər dayının təklifi ilə mən aparırdım. Əlbəttə indi məni tanımırsınız, indi mənim öz itimin

məni tutan vaxtıdır. Rəsul gözü dolmuş halda məni öpdü. Məcid də sanki özünə gəldi, məndən üzr istədi. Toydan çıxanda Məcidin təklifi ilə dəhlizdəki kafedə snigerslə konyak içməyə başladıq. Mən də içirdim. Məcidə xatırlatdım ki, Mirhəşimin toyunda Mirağanın oğlu Musəvinin də kirvəsi sən oldun. Məcid boynumu qucaqlayaraq- müəllim amanın bir günüdü mənim çəkdiklərim özümə bəsdi. Məni maralnı öldürmə, dedi.

Rəsul məni maşınla yataqxanaya gətirdi, üzümdən öpərək əlavə etdi. Qonşu sənin başına dönüm. Sən əsil kişisən. O zamanlar müzxtəlif Beynəlxalq təşkilatlardan tələbə şəhərciyinə ərzaq yardımı gəlirdi. Mən onların paylanmasına qarışmırdım, çünki bu mənim səlahiyyətimə aid deyildi.

Bir gün axşam tərəfi yataqxanaya qayıdanda qayınanamgilin qaldığı otaqda (onlar yeddinci mərtəbədə qalırdılar) böyük bir karton qutuda ağzınacan dolu İran çayı gördüm. Soruşdum dedilər ki, Heydərov Yusiflə Aynişan oğlu Əli gətirib. Yusif çay verən adamın adını, haralı olduğunu soruşsa da o, özünün kim olduğunu deməyib. Sadəcə onu deyib ki, xahiş edirəm bunu Asif Bağırova çatdırın.

Ertəsi gün Heydərov Yusiflə Əlini çağrdım. Onları anda verdim ki, bu siz gətdiyinizdi, üstündən götürməyiblər ki? Hər ikisi Allaha and içdi ki, necə gətirmişik elədi. Onlardan yarım kiloluq çay qutularını saymağı xahiş etdim. 63 qutu idi. Hərəsinə bir qutu verdim. Bir qutu qayınanamgilə bir qutu da özümüzə götürdüm. Fikirləşdim ki, yerdə qalan 59 qutunu kimlərə paylayım. Özüm qərar qəbul etdim ki, bunları nisbətən əlsiz-ayaqsızlara, çox kasıb olanlara, qocalara və yaxın vaxtlarda hüzürü düşənlərə paylayacağam. Elə də etdim. Həmin çayları ancaq 6 saylı yataqxanada yaşayanlara payladım və hər bir adama yazdığım siyahıda qol çəkdirdim.

Artıq yataqxanada köşkünlərin əksəriyyəti öz problemlərini mənə çatdırırdılar. Mən də qeyd edərək bunları Nəsimi Rayon İH-nin humanitar məsələləri üzrə müavini işləyən Yeganə Musazadə soyadlı xanımın kabinetinə girərək ona çatdırmaq istə-

dim. Doğrusu həmyerlilərimin ora gedib kabinet qapısı ağzında boyun bükməsini istəmirdim. Yeganə xanımın kabinetinə girmək istəyəndə vaxtı ilə müəllimimiz olmuş İsmayıl Zeynalov da mənə qoşuldu. Yeganə Musazadə bizi qəbul etmək istəmirdi. Buna baxmayaraq qapını açaraq ona, bizə görə burada işləyirsən və mən sizin rayon üzrə Zəngilanın nümayəndəsiyəm. Neynək, çöldəki yüzə yaxın qadını göndərərəm özləri səni başa salarlar, dedim. Qapını çırpıb getmək istəyəndə o cəld oturduğu yerdən bayıra çıxıb məni içəri qaytardı. İsmayıl müəllim də fürsətdən istifadə edib içəri girdi. Yeganə xanım kabinetindəki qarderobun qapısını açaraq düymələri qırılmış şubasını bizə göstərərək:

-Bunu Zəngilanlılar edib-dedi. Ona etiraz edərək bildirdim ki, Zəngilanlı qadınlar ləyaqətli insanlardır. Onlara şər atma. İsmayıl müəllim də ona məni o ki, var tərifləyərək, Bağırov rayonda uzun müddət rəhbər vəzifələrdə işləmiş adamdır, Zəngilanlılar onu çox istəyirlər. İsmayıl müəllimi yola salandan sonra o bizimlə bir kabinetdə işləyən Şəfəq xanımı çağırdı və ona bəzi tapşırıqlar verdi. Bir neçə gündən sonra İH-də ya baş mühasib, ya da mənzil istismar sahəsinin rəisi olan həmyerlim Sabir Ramazan oğlu Əliyev məni iş otağına çağırdı. Allah ona rəhmət eləsin. Həm mədəni, həm də el-oba təəssübü çəkən idi və mənə bildirdi ki, köçkünlərə güzəşt olaraq (bu xüsusilə talon almayanlara aid idi) 500 kiloqram kərə yağı, 500 kiloqram da qənd ayırıblar. Onu paylamaq səlahiyyəti sizə verilib. Kərə yağının bir kiloqramı 300, qəndin isə bir kiloqramı 150 manata satılacaq. Başqa yerlərdə yağ 600, qənd isə 300 manat idi. Ərzaqlar «Muğan» mehmanxanası ilə üzbəüz olan 5 saylı mağazaya verilib. Beləliklə mən hər bir vətəndaşın pasport nömrəsini yazmaqla mağazanın əmtəəşünası olan gənc bir oğlana neçə kiloqram yağ və neçə kiloqram qənd satmasını yazılı surətdə bildirirdim. Həmin ərzaqları yataqxanada yaşayanlarla, orada yaşamayan Zəngilanın kara gələn adamlarına da yazdım. Çünki hamı eyni vəziyyətdə idi.

Hamının pasportlarında onsuz da qeydiyyat aparılırdı. Pasportsuz heç kimə heç nə verilmirdi. Mənə elə gəldi ki, bu tap-

şırığı şəffaflıqla yerinə yetirdim. Məni dolayı yolla şirnikləndirmək istəyən bəzi həmyerlilərimin şirnikləndirici məsləhətlərinə qulaq asmadım. Bir gün artıq mənimlə dost münasibətində olan Yeganə Musazadə məni kabinetinə çağıraraq Respublika sarayı ilə üzbə-üz tikinti işləri aparan bir şirkətin onlara müraciət edərək üç köçkün ailəsinə hər ay yardım etməsini xahiş etdiyini bildirdi, eyni zamanda şirkətə ünvanlanmış mənim, Yenikəndən bir nəfərin və Şuşadan bir qadının adı yazılmış məktubu həmin şirkətə çatdırmağı məndən xahiş etdi.

Sonradan bildim ki, bu Mərkəzi bank üçün tikilən binadır. Oranın rəhbəri Gəncədən olan yaraşıqlı bir insan idi, görkəminə uyğun mehribançılığı, həm də səxavəti ilə seçilən bir şəxsiyyət idi. Cibindən 5 min çıxardıb mənə vermək istədi. Ona özüm haqqında qısa məlumat verib xahiş etdim ki, mənə verilən pulu cədvələ yazdırsın qol çəkim götürüm. O, dərhal cədvəl tərtib elədi və əlavə olaraq mənə bildirdi ki, çöl tərəfdə satılan kartof, soğan, kələm bizə məxsusdu. Əlindəki siyahıya mənə pulsuz verilən ərzaqların miqdarını da yazdı. Mən ora bir aydan sonra gedəndə məni qınadı ki, sən hər həftə bura gəl, istədiyin ərzaqları apar. Ona minnətdarlıq edərək bildirdim ki, Allah sizdən razı olsun. Ayda bir dəfə gələcəyəm. İş elə gətirdi ki, yanvar ayının axırlarında qaldığımız yataqxanada sarılıq xəstəliyi yayılmağa başladı. Kiçik qızım Lamiyyədən də bu yan keçmədi. Ölənlər oldu. Həmin vaxt mən bikef halda həmin tikinti rəhbərinin yanına getmişdim. O mənim bikefliyimi görüb məsələdən hali olandan sonra mənə ürək-dirək verdi. Müəllim, qorxma mənim də qızım sarılıq tutmuşdu. Keçib gedər. Ancaq həkimə müraciət etmək lazımdı Nə kömək olsa mənə de, köməklik edərəm.

Ona təşəkkür edərək məyus halda onun verdiyi yardımı: pulu, kartof, soğanı götürərək yataqxanaya qayıtdım. Eşitdim ki, anamın dayısı qızı Gülara xanım da (*Qurbanın bacısı, zərgərlik zavodunun sabiq direktoru Tofiq Əhmədovun yoldaşı*) bizə gəlib baş çəkib və pul yardımı edib. Ondan 2-3 gün əvvəl isə Səlbi bacımın qızı Solmazın yoldaşı Seyfulla bizə gələrək zorla mənim cibimə

müəyyən xərclik qoymuşdu. onun atası, anası, qardaşı, bacısı da məcburi köçkün idi. Neçə gün idi ki Xürrəm bizə gəlib, baldızı Maya xanımın «Tülpan» mehmanxanasında bizim üçün otaq tutduğunu deyir, həm də xahiş edirdi ki, bu iyinin qoxunun içində yaşamaq uşaqlarınız üçün də ziyandı. Artıq mən təklifi qəbul etməyə hazır idim.

Digər tərəfdən öz xeyirxahlığı ilə seçilən qohumum Telman Məmmədov (Vənətli) mənə məsləhət gördü ki, Semaşko (M.Nağıyev adına) xəstəxanasının aptekində olduqca mehriban İbrahim adlı həkim işləyir. Zəngilanlı məhşur alim Şamil Xudiyevin oğludu. Təmənnasız adamdır. Ona təkcə Zəngilanlıyam deməyin kifayətdir, sənə lazım olan köməkliyi edəcək. Mən həyat yoldaşımı və qızım Lamiyyəni götürərək onun aptekinə getdim. O məni, mən də onu tanımırdım. Vəziyyəti ona bildirdim. O zəng edərək infeksiya şöbəsindən İntizar adlı bir xanımı çağırdı və bizi yaxın qohumu kimi təqdim etdi. Analizdən sonra qızımda sarılıq olduğu müəyyənləşdi. Qızımı dərhal xəstəxanaya yazdılar, anası da onunla qalacaqdı. Evdən təmiz mələfə, yastıq üzü və s. gətirməyi tapşırdılar. İbrahim həkim İntizar xanım yazan dərmanları pulsuz olaraq işlədiyi aptekdən bizə verdi və bildirdi ki, bir dərman çatmır, onu da gətirdəcəm. Mən ona ancaq «çox sağ olun» dedim. Belə hörmət görməmişdim. Doğrusu dərmanların dəyərini ödəmək üçün heç cibimdə pulum da yox idi. Deyilən yatacağı bir də ki, Lamiyəyə yemək üçün məsləhət bilinən, kartof və qatıq məsləhət görmüşdülər, alıb xəstəxanaya qayıtdım. Onları verib yataqxanaya qayıdanda birinci mərtəbənin qapısı ağzındakı otağın kiçik pəncərəsinin ağzında böyük bir növbə yaranmışdı. Həm çörək pulu, həm də deyəsən ilk olaraq maaşları verirdilər. Mən hamıdan xahiş etdim ki, məni irəli buraxsınlar, qızımın xəstəxanaya qoyulduğunu da onlara bildirdim. Lap irəlidə olanlar:

-Asif müəllim Allah şəfa versin, gəlin keçin pulunuzu alın-dedilər Heç kim yadımda qalmayıb. Amma həmyerlilərimin çətin anda mənə hörmətlərini heç zaman unutmaram. İrəli keçib Əminə xanımdan bizə çatan pulları aldım. Həkimlər qızıma yavan (yağ-

sız) mal əti də yeməyi məsləhət görmüşdür. Artıq neçə gün idi ki, Lamiyənin müalicəsi gedirdi, vəziyyəti yaxşılaşırdı.

İnfeksion palatasına heç kəsi buraxmasalar da qohumlarım Lamiyyəyə baş çəkirdi. Bir gün xəstəxanadan qayıdanda «Muğan» mehmanxanasının aşağı hissəsindəki supermarketin qapısında böyük bir növbənin yarandığını gördüm. Şamıgilin qonşusu Bayram müəllmdə növbədə idi. Ondan soruşdum ki, nə satırlar dedi ki, bir kiloqramlıııq Seylon çayıdı. Mən də növbəyə durdum iki qutu çay ala bildim. Səhərisi həmin çayın bir kiloqramını İbrahim həkimə verdim. Götürmək istəmirdi. Xahiş etdim ki, burada dəmləyib işərsiniz. Onsuz da sizin yanınızda xəcalətliyəm. Pulsuz dərman verdiyiniz, və məni tanımaya-tanımaya İntizar həkimə qohum kimi təqdim etməyini xatırlatdım. İbrahim həkim artııq mənim haqqımda bəzi məlumatlara malik idi. O yaxın dostlarım rəhmətlik Eldar Babayevin və Məzahir Qocayevin vasitəsi ilə mənim kim olduğumu öyrənmişdi. Artıq Lamiyə sağalmışdı. Onun həkimi olduqca sadə və mehriban İntizar xanıma həm minnətdarlıq, həm də ki, hədiyyə almaq üçün İbrahim həkimlə məsləhətləşdim. Bir dəstə gül və müəyyən qədər pulu konvertə qoyaraq ona verdim. O pula görə tərəddüd etsə də mənim xahişimi yerə salmadı.

Biz yataqxanaya deyil, «Tülpan» mehmanxanasında bizim üçün Maya xanımın seçdiyi otağa getdik. Ora olduqca təmiz və rahat yer idi. «Tülpan»nın direktoru Həsənağa Bağırov İsmayıllıdan idi. İki nəfər inzibatçısı, bir neçə xidmətçisi var idi. Mehmanxanaya gəlib qalanların içərisində bir gün Qədir Rüstəmovu da gördüm. O həmişə sakitliyinə görə həmin mehmanxanada qalırmış. Onunla görüşəndə xeyli təriflədim. Onu müasir Cabbar Qaryağdıoğlu adlandırdım. Repertuarından mahnıları sadaladım. O məni diqqətlə dinlədikdən sonra mənə «Əmioğlu bağışla adınızı da unutmuşam», siz də burada yaşayırsınız- deyə soruşdu. Halbuki biz onunla birinci dəfə idi ki, mehmanxanada rastlaşırdıq.

Mehmanxanada dörd Zəngilanlı və bir Füzuli ailəsi var idi. Qalan otaqlar hamısı mehmanxananın idi. Zəngilanlılardan Bəhlul Mehtiyev, biri gitara çalan Davudun qardaşı Qəhrəman, biri

Yavər həkimin bacıısı oğlu, biri də mən idim. Nəsib Mehtiyev sonra gəldi.

Mən Nəsimi rayon İH-dəki işimi davam etdirirdim. Fevral ayında mənə bildirdilər ki, Zəngilanlılar üçün hər qutusu 20 kiloqram olan ərzaq yardımı gəlib. Onu 51 saylı MİS-nin həyətində siz paylayacaqsınız. Bütün siyahıları bir də yoxladıqdan sonra İcra Hakimiyətinin birinci müavini (adını unutmuşam), Şəfəq xanım, Şuşalı Akif, H.Yusif və mən MİS-nin həyətində toplaşdıq. Ərzaqlar oradakı anbarda idi. Paylanış əvvəlcəədən tərtib olunmuş siyahı üzrə olacaqdı. Nəsimi rayon İH-nin başçısının I müavininin qısa nitqindən sonra mən ilk olaraq camaatdan icazə alıb İbiş Məmmədovu yola saldım. Bir iki gün əvvəl onun qaynı Baytar müalicəxanasının baş həkimi Allahverdi Ələkbərov rəhmətə getmişdi. Mehtiabad qəbristanlığında dəfn mərasimində mən də iştirak etmişdim. Şamı gözümə dəyməmişdi. Sonra öyrəndim ki hüzr yerinə gələrkən yolda onu maşın vurub. Xöşbəxtlikdən zədəsi ağır olmayıb. Bunlar 1994- cü ilin fevral ayının hadisələri idi. Səsgücləndirici ilə siyahını oxuyurdum. Basırıq olmaması üçün adamları 5-5 çağırıb, arada 5 dəqiqə kimi fasilə verirdim. Paylanış gecə saat 12-yə kimi çəkdi. Heç bir narazlılıq baş vermədi. Nüvədindən olan Fərəc müəllimin oğlu İltifat (hər ikisi rəhmətə gedib, Allah rəhmət eləsin) mənə görə hamımıza yemək-içmək təşkil etdi. Özü də təmənnasız. Mən onu tanımırdım, özü gəlib tanışlıq verdi ki, biz qohumuq. Çox vaxt gələn yardımı İH-nin binasının zirzəmisinə yığırdılar. Onun pəncərəsindən paylayırdıq. Y.Heydərov mənə çox kömək edirdi. Biz yardımı Tələbə şəhərciyindəki Zəngilanlılara paylayırdıq. Bir gün Şəfəq xanım mənə bildirdi ki, Heydər Əliyev Gülüstan sarayında (mart ayında) məcburi köçkünlər üçün ziyafət verəcək. Kimlərin ora getməyini məsləhət bilirsən.Mən H.Yusifilə özümü və Qurbanov Əşrəfi dedim.

Dəqiq yoxlanışdan sonra bizi saraya buraxdılar. Rəhmətlik Heydər Əliyev 5-6 metrlikdə bizimlə üzbə-üz oturmuşdu. Yusifə dedim ki, lap sakit olmalı, özümüzü mədəni aparmalıyıq. Hazırlanmış yeməklərdən Heydər Əliyev də bizimlə bir yerdə yedi.

Saraydan çıxanda hərəmizə böyük bir bağlamada Novruz bayramı sovqatı verdilər. Burada qənd şəkər tozu, çay, iki toyuq, yağ, düyü, aş qarası (kişmiş, ərik, gavalı) və s. var idi.

Mən işimə davam edirdim. Artıq 1994-cü ilin aprel ayının axırları idi. Bir gün bir qarayanız adam 24 -cü (bizim otağa) otağa daxil oldu. Eyni ilə Bəhmən Allahverdiyevə oxşayırdı. Gəlişinin məqsədini açıqladı. Şəfəq xanım mənə

- Asif müəllim bu işi təşkil edərsinizmi sualın verdi. Mən tərəddüd eymədən bəli dedim. Həmin adam professor İsrafil İsmayılov idi. O, bildirdi ki, 07 mayda (Qələbə günündən iki gün əvvəl) Böyük Vətən Müharibəsi iştirakçıları ilə görüş keçiriləcək. BVM-si iştirakçısı olan Zəngilanlılardan həmin görüşə 7-8 nəfər gətirə bilərsinizmi? Mən ona sual verdim ki, gələnlərə bir maddi-maraq yarada biləcəksinizmi? Cavab verdi ki, mütləq. May ayının 3-ü və ya 4-ü olardı, həmən adam 24-cü otağa gəlib işin vəziyyətini soruşdu. Mən də dəvət elədiyim adamların adlı siyahısın ona göstərdim. Heç nə demədən mənim də adımı başdan siyahıya əlavə etdi.

Siyahıyda Nəriman Ağayev, Nəriman Əliyev, İdris Şıxəliyev, Həmid Əliyev, Rəzdərədən bir yaşlı kişi (adın unutmuşam), arxa cəbhə veteranı Kolluqışlaqdan Cəmil Quliyev və s. var idi. Mən müharibə iştirakçılarına bildirmişdim ki, ayın 7-si saat dördün yarısında Tələbə Şəhərciyinin zoopark tərəfindəki qapının ağzında (tramvay xəttinin yanında) dayansınlar. Mən ora gələndə Nəriman Əliyevlə «Dostluq» kino-teatrının qabağında rastlaşdıq və razılaşdırılmış yerdə heç kəsi görmədim. Bizə dedilər ki, Nəriman Ağayev həmin adamları özü apardı. Tədbir Dəniz küçəsində təxminən Konservatoriyanın arxa tərəfində keçirilirdi. Biz Nəriman Əliyev ilə soraqlaya- sorqalaya gedib oranı tapdıq. İsrafil İsmayılov bizi görən kimi yuxarı başda Zəngilanlıların əyləşdiyi yerə masaya dəvət etdi. Biz ora getmədik, elə qapının ağzında qoyulmuş masanın ətrafında əyləşdik. Gözlənilmədən İsrafil müəllim mənim haqqımda xöş sözlər deyərək, əlavə də etdi ki, mən bilsəydim işğal olunmuş digər rayonların da nümayəndələrinin

bu tədbirə qatılmağını sizdən xahiş edərdim. Tədbirdə digər rayonlardan heç kəs yox idi, amma Nəsimi rayonundan 50-60 dan çox müharibə iştirakçısı var idi. İsrafil müəllim ikinci dəfə çıxış edəndə Asif müəllim öz tövsiyyələrini versin, görək işğal yerlərində partizan hərəkatı yaratmaq mümkünmü -dedi?

Mən 1947-ci il təvəllüdlüyəm. Hansı tövsiyyəni verə bilərdim.

Ayağa qalxdım professora təşəkkürümü çatdırandan sonra bildirdim ki, bu barədə Nəriman Ağayev daha dürüst məsləhət verə bilər.

Nəriman müəlimə söz veriləndə o ilk olaraq mənə təşəkkürünü bildirdi. Tədbirin sonunda çay sürfəsi meyvə şirniyyat və s. olmaqla açıldı. Cədvəl gətirib hərəmizə qol çəkdirərək min manat və 500 qramlıq İran çayı verdilər.

Deyə gülə hər kəs məskunlaşdığı yerə qayıtdı. Mən bu sətirləri qələmə alanda o iştirakçıların hamısı əbədiyyətə qovuşmuşdular. Onların ahıl vaxtında az da olsa könüllərini açdığım üçün özümü xöşbəxt hesab elədim.

Hələ qələbə günündən bir neçə gün əvvəl Şamı bizə gəlib, oradan aralan, tapşırığını vermişdi. Mən ondan mayın 7- dəki tədbirə görə icazə istədim. Əlavə olaraq ona bildirdim ki, Nəsimi rayon İH-ti başçısının müavini Yeganə xanım, başçı Tahir Quliyevlə danışıb. Məni qaçqınlar və Məcburi Köçkünlər üzrə şöbəyə müdir qoymaq istəyirlər. Bu münasibətlə Tahir müəllimlə, Yeganə xanım bir tədbirdə eyni sürfə arxasında çörək də yemişik, mənim də razılığımı alıblar. Həmin vəzifədə bir ləzgi işləyir. Onu oradan uzaqlaşdıracaqlar. Şamı dedi ki, o vəzifə sənlik deyil. Yardımları başqaları yeyəcək, səni dolaşdıra bilərlər. Şamının məsləhətini Yeganə xanıma çatdırdım. O, da məsələni Tahir Quliyevə çatdırdı. May ayının birinci ongünlüyündə İH-dən aralanmalı oldum. Həmin vəzifəyə Qafan rayonundan Əhəd adlı sakit və mədəni bir oğlanı qoydular. Rəhmətlik Şamı haqlı imiş. Mənim xəbərim olmadan bir nəfər saxtakar başqa rayondan olan köçkünlərə qənd və yağ almaq üçün mənim imzamı oxşadaraq 30-kiloqrama yaxın kərə yağı və qəndi mənimsəyibmiş. Mağaza ilə üzləşmə aparanda bu mənə məlum oldu. Onlardan heç birisi Zəngilanlı deyildi.

Fevralın sonundan başlayaraq bəzi Zəngilan məktəbləri fəaliyyətə başladı. Zəngilan Təhsil şöbəsinin müdiri Tofiq Heydərovun bu sahədəki xidmətləri əvəzsizdir. İlk olararaq Azərbaycan Neft Akademiyasının Tələbə Şəhərciyində tam orta təhsil verən böyük məktəb açıldı. Piriyev Ərşad direktor təyin olundu. Yavaş-yavaş Bakının digər rayonlarında, Sumqayıt şəhərində, Əli Bayramlı şəhərində, Saatlı, Sabirabad rayonlarında da Zəngilan məktəbləri açıldı. Məktəblərdə müxtəlif kəndlərdən olan şagirdlər təhsil alır, müxtəlif kəndlərdən olan müəllimlər dərs deyirdi. Şagird kontingenti və məktəblərin binası ora təyin olunan müəllimlərin çox gərgin zəhməti hesabına başa gəlirdi. Direktorların çoxu əvvəllər Zəngilanda bu vəzifədə işləməmiş adamlardı. Mən inspektor işləməklə yanaşı yarım stavka müəllimlik əmək haqqı (orta əmək haqqı) alırdım. Bir gün Xürrəmilə yoldaşı Minayə xanım bizə gəldilər. Yaşadığımız bunaların arası 50-60 metr olardı. Mənə bildirdilkər ki, Maya xanım B.Sərdarov adına zavoddakı kiçik müəssisədə Narın müəlliməyə və əmisi Əzizin qızına iş düzəldib. Müəssisənin rəhbəri əlyandımda rəssam axtarır. Rəssamın işi kafel üzərində trafareti qoymaqla kirəmidə kleyli su qarışığı ilə trafaretdəki şəkiləri pulavizatorla rəngləməkdi. Həmin kafel xüsusi peçdə yüksək dərəcədə (2000 dərəcədə) bişəndən sonra hər bir kafelin arxa hissəsinə nömrə yazmaqla trafaretdəki şəkil və ya mənzərə olduğu kimi canlanır. Şəkil quruyandan sonra qabllaşdırılırdı. Mənim maaşım əvvəllər 150 min, bir aydan sonra 200 min yəni, 20 şirvan oldu. Üç gündə demək olar ki, bu peşəni mükəmməl öyrəndim. Maaşımın artması da bu səbəbdən idi. Pannolardan biri Nizami Gəncəlinin «Yeddi gözəl» əsəri idi. Ədəbiyyatdan olan biliyim karıma gəldi. Hind gözəli, Çin gözəli, slavyan (rus gözəli), Rum gözəli, və.s. Onların rəngini, sifət quruluşunu və s. yaxşı bildiyimdən panno çox təbii alınırdı. Məsələn hind gözəlinin rəngi qapqara, dodaqları qıp-qırmızı, dişləri ağappaq, slavyan gözəli sarışın, kürən, Çin gözəli gözləri qıpıq və s. Bu panno onların yarıçılpaq şəkildə göldə çimərkən təsvirləri idi. Getdicə panno üçün Bakının kəndlərindən, xüsusən Maştağadan

Masallıdan, İmişlidən və s yerlərdən alıcılar, (müştərilər) gəlirdi. Mən elə günlər olurdu ki, 16-17 panno hazırlayırdım. Sexdə biz 5 nəfər idik. Bir gündə hazırladığım pannonun dəyəri bizim bir aylıq maaşımızdan iki qat çox olardı. Burada icarə haqqı, elektrik enerjisi, işlənən malların,xammalın xərcini və s.pulunu çıxandan sonra 20 günlük işin bütün gəliri bizim müdirimizə qalırdı. O, həmişə axşam tərəfi öz maşını ilə gəlib məni yeddinci mikrorayondakı restoranda xəngəl yeməyə aparardı. Çox yorğun olardum. Bütün işləri ancaq ayaq üstə işləmək mümkünidi. Dekabr ayının ortalarındək orada işlədim. Müəyyən səbəbdən işdən imtina etməli oldum. Dekabr ayının işinin də pulunu almadan sexin açarlarını müdirə vermək üçün onların 7 mikrorayondakı evlərinə getdim. Özü evdə olmadığından, açarları anasına verdim. Nə qədər xahiş etsələrdə ki, işə qayıtmadım. Hərdən «Xalqlar Dostluğu» tərəfdəki Peşə məktəbində rayon rəhbərliyinin həftədə bir dəfə Zəngilanlılarla keçirdiyi yığıncaqlarda iştirak edirdim. 1995-ci ilin yanvar ayında uşaqlarımın anası ilə münasib bir adamın vasitəsi ilə Bakı «Elm istehsalat birliyinin» Kondisioner zavodundakı rəngləmə sexində işə düzəldik.

Hərdən zavodda məcburi məzuniyyət olurdu, bu xammal çatışmazlığı və s. ilə əlaqədar idi. May ayında sexin rəisi mənə təklif etdi ki, Asif m burada gecələr növbətçi lazımdı. Əgər istəyirsənsə səni keçirək o vəzifəyə. Gündüzlər saat 16-da işə gələssən, sabah səhər saat 08-də çıxacaqsan. İki gün evdə istirahət edəssən. Şənbə günü işləyəndə isə səhər saat səkkizdə gəlib, axşam saat 20-də evə gedəcəksən. Sexdəki malları göz bəbəyi kimi qorumalısan.

Mən razılıq verdim. İlk iş günü zavodun mühavizəsində olan polislərdən iki nəfəri mənə yaxınlaşıb pulu ilə məndən 8 ədəd karkaz istədilər. Mən yox deyəndən sonra onlar məndən narazı halda getdilər. Sexdəki növbədə hər gün bir nəfər dayanmaqla üç nəfər idik. Gələn növbədə yenə iki nəfər polis gələrək pulu ilə məndən karkaz istədilər. Mən onlara sabah, o biri gün burada növbədə duranlardan alarsınız dedim. Onlar da biz nə sabah nə də biri gün növbədə olmayacağıq dedilər və əliboş getdilər. Mən

zavoda işə girəndə əmək kitabçamı ora təqdim eləməmişdim. Axı mən inspektor vəzifəsində idim işdən də azad olunmamışdım. Əmək kitabçamın işğal zonasında qaldığını bildirmişdim. Yoxsa məni işləyə-işləyə zavoda işə götürməzdilər.

Beləliklə, həyat yoldaşımla işə başlamışdıq. Onun işlədiyi montaj sexi başqa binada olmaqla 200 m kimi aralıda yerləşirdi. Həmin sex deyəsən rəngləmə sexinin tabeliyində idi. Orada Zəngilanlı Həşimov İbadullanın böyük oğlu Yaşar və onun kiçik qardaşı Poladın həyat yoldaşı Mələk xanım da işləyirdi. Biz hələ Zəngilanda olanda o ailə ilə çox mehriban münasibətlərimiz var idi. Mən bir gün evdə olanda axşam üstü işdən qayıdan yoldaşımı qaş-qabaqlı gördüm. Səbəbini soruşduqda mənə bildirdi ki, 3 şirvana zavodda bir elekrik peçi düzəltdimişdim. «Ulduz» metrosu tərəfdə işdən çıxanda polislər onu məndən aldılar. Yoldaşıma dedim ki, mən orda işləyə-işləyə sənin peç düzəltdirməyin nə dərəcədə düzdür? Səhərisi işə gedəcəkdim. Narahat olma dedim. Bizimlə eyni seksiyada (hər seksiya 5 otaqlıq idi) yaşayan Bəhlul Mehdiyevin yoldaşı Üreyya xanım çörək almağa gedərkən maşın vurmuş ayağı, qolu bərk əzilmişdi. Füzulidən olan Talıb adlı qonşum bunu mənə xəbər verəndə dərhal M. Hağıyev adına xəstəxanaya getmişdim. Ürəyya xanımı maşınla vuran 19 yaşlı oğlan özü onu xəstəxanaya aparmışdı. Mehdiyev Bəhlulu mən xəstəxanadan qayıdandan sonra ora apardım. Onun hadisədən xəbəri yox idi. Ona ürək-dirək verdim ki, yoldaşı yüngülvari yaralanıb. Yaralı olan palataya girəndə Ürəyya xanımın başının üstündə dayanmış Qəbələ rayonundan olan Elxanı gördüm. O, Abbasov Mürvətin oğlu İlhamla əsgərlikdə eyni hərbi hisssədə qulluq etmişdi. Dəfələrlə Mürvətgilə Samigilə gəlib getmişdi. Məni tanıyırdı. Soruşdum dedi ki, xanımı vuran mənim böyük qardaşım Müseyibin oğludur. Özü və qardaşı məni kənara çəkib xahiş etdilər ki, yaralının bütün müalicəsinin xərclərini özümüz çəkəcəyik, şikayət etməsinlər. Onlara yaxın bir hərbi formalı adam da bu xahişə qoşuldu və özünü Zəngilanda Prokuror işləmiş Əzizovun kiçik qardaşı kimi təqdim etdi. Mən Bəhlul Mehdi-

yevi palatadan kənara çağırıb, onların dediklərini ona çatdırdım. Rəhmətlik mənə Asif müəllim siz necə deyirsiniz elə olsun, dedi. İstintaq orqanlarına Bəhlul Mehdiyev izahat verəndə Üreyya xanımın (Hamı onu Leyla adlandırırdı) ikinci mərtəbədən yenərkən pilləkəndən yıxılaraq yaralandığını bildirdi. Elxangil isə kişi kimi verdikləri vədə əməl etdilər. Bu hadisəni xatırlatmağımın səbəbi var. Həmin hadisədən üç-dörd ay sonra bu elektrik pilətəsinin əldən alınması baş vermişdi. Səhəri mən zavodda öyrəndim ki, giriş-çıxış qapısının ağzında I şöbənin rəisi Firudin Seyidov da dayanıbmış. I şöbənin rəhbərliyi altındakı Zavod Nəzarət Qrupunun əməkdaşları mənə xəbər verdilər ki, Seyidov tapşırıb ki, o işçinin izahatını alın. Görün pilətəni kimdən alıb. Mən F. Seyidovun Qəbələli olduğunu öyrənmişdim. Onun kabinetinə getdim, salam verdim, özümü təqdim etdim. Bildirdim ki Pilətəni satın alıb aparanın həyat yoldaşıyam. Biz Zəngilandan olan məcburi köçkünlərik. Yoldaşımın və özümündə adımızı soyadımızı hansı sexdə işlədiyimizi dedim. Özüm müharibə veteranıyam. O pilətə çölə atılmalı dəmir qırıntılarından düzəldilib, yoldaşım onu «3 şirvan»a alıb. Biz «Tülpan» mehmanxanasında qalırıq. Orada da qaz yoxdur. O, sizə izahat verməyəcək və hər ikimiz ərizəmizi yazıb işdən çıxacayıq. Zavoddakı bütün oğurluqlardan mənim xəbərim var. Dedilər ki, siz Qəbələdənsiniz. İxtisasca tarixçiyəm. Qəbələ qədim Alban Dövlətinin paytaxtı olub. Tarixdə belə təsvir edilir ki onlar uca boy, göy-alagöz, hər cür xırdaçılıqdan uzaq adam olublar. Seyidov isə boydan gödək, nisbətən kök, gözü eynəkli bir adam idi. Zavodda nəinki, fəhlələr, vəzifəli adamlar da ondan çəkinirdilər. Mən həmdə Mehdiyev Bəhlulun yoldaşının hadisəsini ona çatdırdım və əlavə etdim ki, onu maşınla vuran uşağın əmisini tanıyırdım, Mən belə deyəndə o, oturduğu yerdən duraraq: Müəllim məni bağışla, böyük səhv etmişəm. Müseyibin, Elxanın xalası qızı mənim həyat yoldaşımdır. Sizin haqqınızda onlar mənə deyib, bağışla ki, bilmədən mən böyük qəbahətə yol vermişəm. Get pilətəni götür, evə apararsan. Mən isə o pilətə bizə lazım deyil – deyərək kabinetdən çıxdım. Həmin gün mən növ-

bədə idim. Az keçməmiş Zavod Daxili Nəzarət Qrupunun işçiləri onu gətirib zorla mənə verdilər. Mən növbədə olanda Seyidov gəlib mənə baş çəkər, ehtiyaclarımla maraqlanardı. Bir dəfə də gələndə Asif müəllim bizim qrupda işləyərsinizmi? sualını verdi. Orada maaş mənim inspektor maaşımdan üç dəfə artıq idi, razılığımı alandan sonra mənə şəxsi işlərimi düzəltməyi tapşırdı. Kadr anketi və başqa blankları özü gətirdi. Müəyyən müddətdən sonra mənə tərcümeyi halımı bir də yazıdırdı. Bildim ki, əvvəlki tərcümeyi halımla üzləşdirir. Mənə saxta tarcümeyi-hal lazım deyildi. Onsuz da müxtəlif rəhbər vəzifələrdə işləmişdim. Onun fikri məni nəzarət qrupunun rəisi qoymaq idi, mən o işi bacarmazdım, zavodda oğruların sayı həddən artıq çox idi. Zavod daxili nəzarət qrupunun əməkdaşı kimi nəzarətçi-müfəttiş vəzifəsinə təyin edildim. F.Seyidovla möhkəm dost olduq. Hərdən qohumu Elxan da onun yanına gələndə mütləq mənə baş çəkirdi. Məni Seyidovun adamı kimi bilənlər də az deyildi. Lakim mən öz mənliyimi heç nəyə verməzdim. 2000-ci ildə zavoddakı anbarların birinin içərisində baş verən yanğını axşam tərəfi saat 17 radələrində mən aşkar etdim. Zavodun iki yanğınsöndürən maşını vardı, kömək üçün Nərimanov rayonundan da yanğınsöndürənlər gəldi. Mən də yanan anbara daxil oldum. Axşam Baş Direktor Yaşar Dəmirov Prezident Heydər Əliyevin sərəncamı ilə vəzifədən azad edildi.

Bir neçə gündən sonra mənimdə səhətimdə problemlər yarandı. Təzyiqim yüksəldi. Başımda gicəllənmə sol, qulağımda səs-küy əmələ gəldi. Yeriyəndə müvazinətimi güclə tənzimləyirdim. Həmdə ki zavodun yeni rəhbəri yerində olmayan, ancaq öz mənafeyini güdən adam idi. Zavodun əsasını qoyan adamların əksəriyyəti öz işindən aralanmalı oldu. Mən də ərizə yazaraq zavoda əlvida dedim. Təhsil şöbəsində də rəhbərlik dəyişdi. Akif Quliyevin yerinə Zakir İbrahimov gəldi. Mən I stavka dərnək rəhbərliyi aparmaqla inspektor, sonralar adı dəyişilən məsləhətçi vəzifəsində işimi davam etdirdim. 2014-cü ilin iyun ayının 18-də Sumqayıtda 5 saylı tam orta məktəbdə bir neçə valideyinin adından imzasız saxta məlumatı yoxlayırdım. Valideyinlərdən biri dedi ki,

bizim şikayətdən xəbərimiz yoxdu. Oradan qayıdan günün səhərisi yuxudan oyananda sağ qulağımın tamamilə batdığını, heç nəyi eşitmədiyimi gördüm. Bakıda, Təbrizdə müalicələrimin heç bir nəticəsi olmadı. İşə getmək istəmədim. Zakir İbrahimov mənə bildirdi ki, mən də yaşa görə pensiyaya çıxacam. Bir yerdə çıxarıq. 2015-ci ilin yanvar ayının 5-də Zəngilan Rayon Təhsil Şöbəsinin əmri ilə ərizəmə əsasən vəzifədən azad edildim. Yanvar ayının 8-də Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Həsənov Zəngilan Təhsil Şöbəsində məni təntənəli şəkildə, hədiyyələrlə yola saldı. O, mərasimdən sonra məni də öz maşınında oturdaraq yaxşı bir restoranda ziyafət və verdi. Lakin Təhsil Nazirliyi məni işdən çıxarmırdı. Çox get-gəldən sonra mən 2015-ci ilin yanvar ayının 21-də öz xahişimlə 45-ildən çox olan əmək fəaliyyətimi dövlət vəzifəsi təqaüdü ilə başa vurdum.

***

Asif Bağırov rayonumuzdakı istedadlı uşaqların seçilib rayon müsabiqəsinə, oradadan da Respublika turuna göndərilməsində əsas simalardan biri olub. Məhz onun rəhbərliyi altında bir çox istedadlı gənc səhnəyə ilk olaraq ayaq basıb. Asif Bağırov eyni zamanda həm rayonumuzu, həm də Azərbaycanı Ümumittifaq Pioner təşkilatı olan «Artek» də təmsil edib.

Asif müəllimə gələcək işlərində əvvəl cansağlığı, səadət və uğurlar arzulayırıq.

PS. Asif Bağırov çoxsahəli insandır. İxtisasca tarix müəlimi olmasına baxmayaraq bizlər onu yaxşı qarmon ifaçısı kimi tanıyırdıq. Mən son illərə kimi onun musiqi təhsili olmadığını bilmirdim.

Özünün dediyinə görə qarmon çalmağı qardaşı Şəhriyardan öyrənib. Bu insanin Zəngilanda xoş niyyətlə açmağıqı qapı yoxdu. Özünün dediyinə görə 2000-ə dək toy çalmışdır. Bilirsiniz bu nə deməkdir. Orta hesabla hər toyda 200 adamın iştirak etdiyini nəzərə alsaq bu 400 min adama sevinc bəxş etməkdir. O rayondan əlavə qonşu Qubadlı, Cəbrayıl, Füzuli,

Naxçıvan, Ordubad habelə Ermənistan SSR-nin Qafan, Qacaran şəhərlərində, Gorus, Sisiyan və Vedi rayonlarında dəfələrlə el şənlikləri keçirib.

Onun fəaliyyəti bununla bitmir. Eyni nzamana o bədii yaradıcılıqlada da məşgul olur. Indiyə kimi onun Zəngilanla bağlı və digər mövzularda 200-ə yaxın elmi, publisistik və bədii yazıları çap olunub. Onun bədii yaradıcılığının zirvəsi isə rayonun işğalından sona nəşr etdirdiyi «Doğma yurda qayıtmaq istəyinə boy verən Zəngilan lətifələri» kitabıdır.

Mən bu kitabı oxuyandan sonra çox şey öyrəndim. Rayonumuzdakı bəzi insanları onun vasitəsi ilə yaxından tanıdım.

Son olaraq. Asif müəllim canınız sağ, gününüz xoş ruziniz bol olsun ki, qələminizi hər zaman işlədəsiniz.

*«Artek» (rus. *Арте́к*)-Ukrayna ərazisində (hal-hazırda Rusiya Federasiyasının ərazisidi), Krım yarımadasında beynəlxalq uşaq mərkəzi. Krım yarımadasının cənub sahilində, Qurzuf qəsəbəsinin yaxınlığında yerləşir. Vaxtilə keçmiş SSRİ-nin ən məşhur pioner düşərgələrindən biri olmuşdur. Uzun müddət sosialist ölkələrindən gələn nümayəndələrin və xarici dövlət rəhbərlərinin qaldığı yer olmuşdur. 1991-ci ildə o Pioner təşkilatının dağılmağndan sonra adi bir tətil yerinə çevrildi.

# II FƏSİL

## Atası Kərim Məmmədbağır oğlu Quliyev



Quliyev Kərim Məmmədbağır oğlu 1889-cu ildə Pirçivan kəndində anadan olub. Gənclik illəri I dünya müharibəsi illərinə təsadüf edib. Sovet hakimiyyətinin rayonumuzda bərqərar olmasından sonra hələ rayon mərkəzi kənd Zəngilanda olan dövrdə Qara İlsyasovun rəhbərliyi altında milis dəstələri təşkil edilmişdi.

Bu dəstəyə o zaman Həsənqulu Bayramov, Genlik kəndindən olan Muxtar kişi (Soltan və İsmayıl Zeynalonların atası) və Kərim Quliyev də daxil idilər.

Bu dəstənin Zəngilandakı başçısı Əli bəy Nikolayın zabiti imiş. Dəstənin on nəfərinə üç günlük istirahət verib, onların mandatlarını da alaraq gecə xəlvət ikən Arazdan İrana qaçıb.

Həsənqulu Bayramov və Muxtar kişi bu işə davam etsələr də Kərim Quliyev bir daha o dəstəyə qoşulmayıb. Sonra o kolxoz təsərrüfatında işləməyə başlamışdır. 1941- 1945- ci illər müharibəsi zamanı Gürcüstanın Batumi, Suxumi eləcə də Tuapse, Soçi şəhərlərində xidmət etmişdir. Müharibədən sonra müxtəlif sahələrdə çalışan Kərim kişi GES (elektrik stansiyası)-də, kolxozda təftiş komisiyasının sədri, bostan briqadiri, ipək qurdlarının dirildilib kolxozçulara paylanması kimi mühüm işlər görüb O son dövrlərdə şəhərimizin mərkəzi parkı hesab olunan Lenin bağında həm bağban, həm gözətçilik edərək bağa qulluq etmişdir. Məhz onların sayəsində bu bağda can dərmanı desən tapmaq olardı.

Ötən illərdə televiziyanın hələ evlərimizə girmədiyi dövrdə hər bir kənddə, şəhərdə müəyyən evlərdə el ağsaqqaları, sinədəftər

baba və nənələrimiz toplaşar uzun qış gecələrində həm dərdləşər, həm də ki, şifahi xalq ədəbiyatını təbliğ edərdilər. Məhz o dövrlərdə Kərim kişinin evi də belə bir məclis rolu oynamışdı. Burada Rüstəm kişi, Xəlil, Gülüş kişi, Əziz, Qasım, Xudaverdi,Törə Qəbil, fotoqraf Abas. Həmzə və s. adamlar toplaşar söhbət edərdilər.

Kərim Məmmədbağır oğlunun üç oğlu, üç də qızı olub. Oğlanları Şamı, Şəhriyar, Asif Bağırovlar, qızları Firəngiz. Səlbi və Xasadlr.

Kərim kişi işğaldan əvvəl 1980-ci ilin 06 yanvarında 91 yaşında Zəngilan şəhərində vəfat etmişdir. Allah rəhmət eləsin.

Kərim kişi eyni zamanda dövrünün savadlı adamlarından olub. O dövrdə Quran oxuyanları barmaqla saymaq olardı. Onlardan biri də Kərim Məmmədbağır oğlu idi. Sovet hökuməti ondan Quran oxumaması üçün dilindən iltizam alıb.

Onu da əlavə edim ki, eşitdiyimə görə Kərim kişi (övladları ona Kərim əmi deyə müraciət edərdilər) həm də çox xeyirxah bir iş sahibi olub. O şəhərimizə dalaşanları, mübahisə edənləri, qız qaçıranları barışdırmaq, qız elçiliyi eləmək kimi missiyanı da yerinə yetirib. Iki məqamı qeyd edəcəyəm.

Vaxti ilə Pirçivan kolxozunun sədri işləmiş Həşim kişi (Abbas Hüseynovun atası) ilə Qəbil (ona da el arasında törə Qəbil deyərdilər) arasında mübahisə baş vermiş və Qəbil onun ayağından tutub yerə yıxmışdır. Həşim kişi də ondan şikayət eləmiş və Qəbilin həbsi təhlükəsi yaranmışdı. Qəbil Kərim kişinin yanına gələrək məsələni anmlatmışdır. Kərim kişi də Həşim kişiyə minnətə gedərk onları barışdırmışdır.

İkincisi. Köhnə Pirçivanlı Allahverdi kişi (ona el arasında qara Allahverdi deyərdilər, Əlinin, Bəhmənin Bahadurun atası) ilə Ədil Kərimovun qardaşı Atlıxan yer üstündə dalaşmışlar (bu gün nə o torpaqlar var nə də ki o insanlar. Görəsən niyə bizlər belə mənasız şeylər üçün dalaşırdıq? Bu torpaq hamımıza yetəcək, hamımızı udacaq) və Allahverdi şana ilə vurub onun başını yarmışdır. Atlıxan da ondan şikayət edib. Allahverdi kişi minnətə getsə də Atlıxan ipə- sapa yatmır ki, yatmır.

İş belə olanda onlar Kərim kişiyə minnətə gəlirlər. Kərim kişi də soraqlayıb Ədil Kərimovu tapır və məlum olur ki, o milis şöbəsində növbədədi. Kərim kişi baxır ki, Ədil növbəni tərk edib qardaşının evinə gedə bilməz. Odur ki, şöbəyə gəlib məsələni Ədilə deyər. Ədil də onu dinləyib qardaşı Atlıxana belə bir məktib yazar:

-Atlıxan Kərim əmi sizə gəlir. O, nə desə əməl et. Beləliklə Kərim kişi onları da barışdırır.

Kərim Quliyev eyni zamanda qoşulub qaçan qızların ailələrini də barışdırmış, onları davadan, ədavətdən çəkindirmişdir.

## Anası Quliyeva Diliş Paşa qızı

Quliyeva Diliş Paşa qızıdır. Onun Firəngiz, Şamı, Səlbi, Şəhriyar, Xasa və Asif adlı altı övladı olub. Asif Bağırov ailənin son beşiyidir. Anasını erkən itirib. Onun 4 yaşı olanda daha dəqiqi 1951-ci ildə anası haqqın rəhmətinə qovuşub.



## Ailəsi və övladları

Asif Bağırovun həyat yoldaşı Bağırova Həcər Ələsgər qızıdır.

Qızı Bağırova **Aytəkin Asif qızı** 1977-ilin 08 yanvarında Zəngilan şəhərində anadan olub. Ixtisasca memardır. Lakin Sumqayıt şəhərində 5 saylı Zəngillan rayon tam orta məktəbində təsərrüfat müdiri vəzifəsində işləyir. İki qızı, bir oğlu var. Böyük qızı Aysu BDU-nun informatika fakültəsininin II kurs tələbəsidir.

Oğlu **Bağırov Vüqar Asif oğlu** 1980-ci ilin may ayının 3- də Zəngilan şəhərində anadan olub. Azərbaycan Dövlət Bədən Tər-

biyəsi və İdman Akademiyasını bitirib. Idman sahəsində çalışır. Həcər və Ayla adlı qızları V və III sinifdə oxuyurllar.

**Qızı Bağırova Lamiyə Asif qızı** 1984- cü ilin may ayının 24-də Zəngilan şəhərində anadan olub. Ixtisasca ibtidai sinif müəlliməsidir. Zəngilan rayonu 6 saylı tam orta məktəbdə sinif müəllimi işləyir. Röyal adlı oğlu Bakıdakı 179 saylı tam orta məktəbdə oxuyur.

# III FƏSİL

## Asif Bağırovun macaraları

Bizi Gorusun «Qurd Qalağı» kəndinə toya dəvət etmişdilər. Mən, oxuyan, nağaraçı, qoşa nağara çalan bir də ki, zurnaçı Məhəmməd 5-ci gün axşam saat 17-də Mincivan-Qafan qatarı ilə Qafana gedib ordan maşınla toy evinə yollanmalıydıq. Nağara və qoşa nağara çalanlar qatarla Mincivandan gəlməli idilər. Biz Pirçivan vağzalında onları qarşılayıb vaqona minəndə nağara çalandan məni pis, üfünətli içki iyisi vurdu. O, məndən üzr istəyərək:

- Asif müəllim bağışla arağı, çaxırı birdə ki, kələm şorabasını bir-birinə qarışdırmışam- dedi. Qafana gəldik, bir erməni ilə (bundan sonra hay deyiləcək) danışdıq, o bizi Gorusa aparıb, bazar günü də toy qurtarandan sonra öz «Villisi» ilə Qafan vağzalına qaytarmalı idi. O, yoldaşlarımızdan təkcə nağara çalanı tanıdı. «Qurd Qalağı» kəndinə, toy evinə çatdıq. Toy sahibləri iki mərtəbəli evlərinin ikinci mərtəbəsində bizim üçün sürfə açdılar. Bizi gətirən hay yemək yesə də dilinə içki vurmadı ki, ara mən rulda olanda araq içmaram. O, Qafana qayıtdı. Biz həyətə toyxanaya getdik. Səs gücləndiricini və s. alətləri tənzimlədik. Nağaraçı hələ yeyib-içməkdə idi. Evin də pilləkanı nərdivandan idi. Biz aşağıda nağara çalanı gözləyirdik. Kənd yeri hər yer zülmət qaranlıq idi, ancaq toyxanada işıqlar yanırdı. Bir vaxt gördük ki, nağara danqa-daranqla pilləkəndən aşağı dərəyə tərəf getdi. Toy sahibləri isə pilləkənin qaranlıq yerinə doğru yüyürməyə başladı. Onlar nağara çalanın qoluna girərək onu bizim üçün qurulmuş masaya tərəf gətirdilər. O, ikinci mərtəbədən nərdivanın yanından dik aşağı düşmüşdü. Onun qolu sınmışdı. Gecə ikən zurnaçı Məhəmmədə bir nəfər də qoşaraq Qafandan həm tanıdığım nağaraçını gətirməyi həm də Bəktaş kəndində nağaraçılarını sınıqçıya göstərməyi tapşırdım. Gecə bir təhər qoşa nağara ilə toyu yola

verdik. Saat üç olardı ki, həm yaralı, həm də salamat nağaraçı Məhəmmədlə gəlib çıxdılar. Gecə sınıqçının məsləhətinə görə yaralı nağaraçının qoluna toy üçün kəsilmiş cöngənin qursağını bağladılar. Hələ də ayılmayan nağaraçı mənə dedi ki, çınıqçı tapşırıb ki, yatanda böyrünə araq qoy, yaran ağrıyanda ondan qoluna sürt. Mən onun niyyətini başa düşərək, sınıqçı başını daşa döyüb, dedim. Səhərisi Qubadlının Davudlu kəndində toy çalıb, axşam tərəfi gəlini Qurd qalağı kəndinə gətirdik. Yaralı nağaraçalanın qoluna bağlanmış qursaq isti havada xoşagəlməz iyi verirdi. Məcbur olub onu açdıraraq kənara tulladıq. Bazar günü də məclisin sonunda Məhəmməd kefləndi. Onun sinəsində iki dənə medal və ya nişan asılmışdı. Toy qurtarmışdı. Biz hayı gözləyirdik. O da gəlmək bilmirdi. Məhəmməddən yerli cavanlardan dayı o nə medalıdır? soruşduqda Məhəmməd ona cavabında: «Vayna» dedi. Sonra məclisdəki 5-10 adama üzünü tutaraq siz «Uzaq Sahillərdə» kinosunu görmüsünüz? deyə soruşdu. Hamı əlbəttə dedi. Ordakı «Mixaylo» yadınızda qalıb? Cavanlar: Usta əlbəttə, onu heç unutmaq olar? Mehdi Hüseynzadə! Məhəmməd ayaq üstə duraraq Bax həmən Mixaylo mənəm- dedi. Xəcalətimdən az qaldım ki, yerə girəm. Məhəmmədi aşıq dilində başa saldım ki, pulundan kəsəcəm. O, dərhal ayıldı. Biz bir vaxt gördük ki, bizi beşinci gün gətirən Villis kəndə doğru irəlləyir, özüdə səkkiz yaza-yaza. Hay o qədər vurub ki, maşını gah yolun altına, gah da üstünə sürür. Əlac yoxdu hayın «Villisi»nəoturub Qafana yola düşdük. Hay əvvəldən hiss eləmişdi ki, dəstənin ağsaqqalı, sözü keçəni mənəm. Məndən soruşdu ki, Seyidlərli Bahadur doxturu tanıyırsan, mal doxturu? Cavab verdim ki, bəli, necə? Ara, kirvə onu tanıyırsansa pulumu bir az çox elə. Az pul versan Baxadur doxtur sizdən inciyar.

Bir baxın, huşu başında olmayan, sükanı zorla əlində saxlayan sərxoş hay nə deyir? Mənimkilərin də biri altı metrlik nərdivanla yuxarı çıxsada, oradan kəsə yenmək istəyir. Ahıl yaşlı digəri isə sərxoş vəziyyətdə özünü «Mixaylo» adlandırır. Özümün-özümə yazığım gəldi. Qeyri iradi olaraq beynimə bu fikir düşdü.

- Ay Allah, qurbanın olum, bizi niyə gic, (əslində yanımdakıları nəzərdə tuturdum) bu hələ huşu başında olmayan bir haydır. Onları bic yaratmısan?

- Gorusdakı həmin toy unudulası mümkün olmayan qanqaraldıcı hadisələrlə yadımda qaldı.

## «Məni kövrəldən toy»

Asif müəllimin dediklərindən:

Həkəri çayı hövzəsindəki kəndlərdən birində toy çalırdıq. Kənd toylarının ayrı ləzzəti var idi. Hayıf o günlərdən. Artıq toy qurtarmaq üzrə idi. İstəyirdik ki, yekun vuraq, yavaş-yavaş şələ-şüləmizi yığışdıraq, amma bəy yoxa çıxmışdı. Onu çox axtardılar, tapa bilmədilər. Gecədən xeyli keçmiş onu gedib atasının qəbri üstündə ağlayan vəziyyətdə tapmışdılar.

Bəy atasının qəbri üstündə ağlayaraq ona demək istəyirdi ki, ata haradasan, mən evlənirəm, amma sən məclisdə yoxsan, yerin görünür.

Bu hal cavan da olsam beynimdə əbədi həkk olundu. Ömrümdə çaldığım toylardan ən düşündürücüsü kimi qaldı. Həmin bəyə rəğbətim indi də var. Bu vaxtilə Rayon Partiya komitəsində təlimatçı, Kənd Təsərrüfatı Mallarının satın alınması üzrə Dövlət Keyfiyyət Müfəttişi və öz kəndlərində kolxoz sədri vəzifələrində işləmiş, el arasında hörmət qazanmış Həmid Əliqulu oğlu Quliyev idi.

## Gözlənilməz təklif

Keçən əsrin yetmişinci illəri idi. Zəngilan şəhərində toy çalırdım. O zaman toy sahibləri pul yığmırdılar. Qız toyu olanda ora dəvət olunan qadınlar paltar kəsdi siyahısına pul yazdırardılar. Həftənin şənbə günü toyu yola verdik, adətən belə məclislərin səhərisi günü toya kişilər dəvət olunurdu. Qadınların məclisində musiqiçilər üçün pul az toplanardı. Biz ümidimizi kişilərin məcli-

sinə bağlayardıq, daha doğrusu onların verdiyi “qabağa gəldi» və şabaşa. Bazar günü toyu başlamaq istəyəndə toy sahibinin qonşusu bizə yaxınlaşaraq:

- «Sizə üç yüz manat verəcəyik» dedi. Yoldaşlarım da mat qaldılar. Ümumiyyətlə, Zəngilanda və Qubadlıda musiqiçilərlə kəsəmət olmurdu. Nə şabaş yığılsa, lap az olsa belə musiqiçilər toy sahibindən pul istəməzdilər. Mən həmin adama dedim ki, toy başını (sərpayı) özünüz razı salacaqsınız. Toyu başladıq. Mən heç vaxt pul üstündə mübahisə etməzdim. Qonaqları və gələcək gəlini yola saldıq. Adətən qızı yola salandan bir-iki saat sonra biz də toyu kəsər, ev sahibinə xeyir-dua verərdik. Bu dəfə belə olmadı. Heç bir oynayan olmasa da biz beş-altı saat boş-boşuna çalırdıq. Axırda bizimlə kəsəmət kəsən adam mənə yaxınlaşdı və bildirdi ki, toyda cəmisi 230 manat pul yığılıb, neyləyək? Dedim ki, 70 manatda qoyun üstünə bizə verin. Hamı bir-birinə baxırdı. Heç kəs də 70 manatı ödəmək arzusunda deyildi. Toybaşından 230 manatı alıb, həmin puldan 23 manatını ona qaytardım. Bir-iki ildən sonra həmin qapıda oğlan toyu olacaqdı. Bəyin atası mənim yanıma gəlib toyu aparmağı xahiş etdi ona dedim ki, kəsəmət kəsəssinizsə elə burada de, mən və yoldaşlarımız işimizi bilək. O da mənə bildirdi ki, həmişə sizinlə üzbə-üz qarşılaşanda xəcalət çəkirəm, siz kişi adamsınız. Ona söz verdim ki, arxayın ol, sizdə olacağıq. Nə yığışsa qəbuldur.

Toyu başlamamışdan əvvəl bizinən qız toyunda kəsəmət kəsən qonşu da əlində bir «beşlik» açılışda iştirak etdi. Zarafatla ondan soruşdum: Kəsəmət kəsəcəyik? O, «yox», «yox» «yox» deyərək sürətlə bizdən aralandı. Toyda səkkiz yüz manat pul yığışdı. Artıq Zəngilan toylarında da siyahı vardı. Mən də adımı siyahıya yazdırdım.

## Adilin toyu

Haradasa 1967-ci ilin may ayı olardı. Məlikli kəndindən olan uşaqlıq dostum Feldşer Adil bir gün bizə gəldi və toyunu çalmağı məndən xahiş etdi və bildirdi ki, Rəzdərədən Zeynəb adlı

Tibb bacısı qaçırtmışam. Bu əslində qonum-qonşulardan ibarət bir kompaniya idi. Əksəriyyət kolxozçu və ferma işçiləriydi. Mən Arif İdris oğlu Şıxəliyevi və Yavər Əli oğlu Paşayevi götürüb Məlikli kəndinə getdim. Arif yaxşı nağaraçı idi, Yavər isə azacıq nağara çalmağı bacarırdı. Biz dəmir yolun qırağındakı elektrik dəyirmanının sol tərəfindən təzəcə cücərməyə başlayan Pambıq civələrinin arası ilə toy evinə getdik. İki-üç saatdan sonra bir çoban oyuna girdi, adı Qurban idi. Adilin əmisi qızının yoldaşıydı. O, bir sağıcı qadınla oyuna girmişdi, oyundən çıxmırdı, bir saata yaxın qan-tərin içərisində oyundan doymurdu. Sən demə sağıcı qadına eşq elan edibmiş. Yavərə pıçıldadıq ki, sən də gir oyna, iti hava sifariş elə, bəlkə bu təzə bəy eşqinə düşmüş Qurban yorulub çıxdı. Yavər beş qəqiqəyə artıq ayaq üstə güclə dayanan Qurbanı oyundan kənar elədi. İndi Yavər Ariflə mənim nəfəsizmizi kəsmək istəyir, oyundan çıxmırdı. Hərdən də «əşşi-əşşi» deyərək qışqırır, ləzgilər kimi süzürdü. Qaş-gözlə onu bir təhər oyundan çıxardıq. Toyu başa vuraraq yenə də Pambıq civələrinin arası ilə Mincivan-Pirçivan yoluna çıxdıq. 25 kiloqramlıq akkordeonu Yavərə şəllədik. Piyada ağzı yuxarı evimizə qayıdırdıq. Heç bir maşın düşmədi, biz də Yavərdən belə qisas aldıq.

## Süleymanın toyu

Zəngilan şəhərində Məscidin yanında Lala oğlu Süleymanın toyunu çalırdım. Toydakıların əksəriyyəti qonşular və kolxozçular idi. Süleymanin anası Lala xala ömrü boyu kolxozda pambıqçı işləmişdi. Əmək qabaqcılı idi. Hamı toyda ürəklə iştirak edirdi. Lala xala Süleymanı atasız böyütmüşdü. Atam, Rüstəm əmi, Məhəmməd əmi, Tumas əmi, Müslüm əmi və s. Lala xala ilə bir kolxozda işləyirdilər. Məclis yekunlaşandan sonra biz Mincivana qız evinə getdik. Gəlini gətirəndə o, içəri girərkən qarşısını kəsdik, belə olanda oğlanın ən yaxın adamları toyçulara pul verirlər. Süleymanla mən bir ildə, bir ayda, bir gündə anadan olmuşuq. Bir birimizi çox istəyirdik. Mən gözləyirdim ki, Süleymanın da-

yısı dəllək Fərrux, Bacısı Tamaranın yoldaşı Fərrux və ya Süleymanın Ağdaşda yaşayan ata bir qardaşı bizə nəmər verəcəklər. Gözlədiyimizin əksinə oldu. Boynumun arxasından möhkəm bir zərbə dəydi. Bu hələ tam yetişməmiş böyük bir heyva idi, ayağımın altına düşdü. Ora-bura göz gəzdirdim heyva meyvəsini qonşu Namazov Allahverdinin evi tərəfdən tullayan təzə bəy Süleyman imiş. O, mənə baxıb gülürdü. Qarmonu yerə tullayıb onu qova-qova tutdum. Bir ikisin çırpıb yerə uzatdım. Süleyman yerdə yıxılı vəziyyətdə gülürdü. Ağdaşda yaşayan atası sağ idi. Onun ünvanına bir-iki kəlmə xoş söz dedim. Süleyman gülə gülə mənə bildirdi ki, Asif bir Allah haqqı mən heyvanı gəlinin başına vurmaq istəyirdim «navodkanı» düz götürə bilmədim. Biz qucaqlaşaraq öpüşdük və toyu çalmaqda davam etdim. Gəlinin başında meyvə (alma, nar, heyva və s.) vurulması adətini «Travma» aldığım Süleymanın toyunda öyrəndim.

## Sərməz Əhmədovun toyu

1980-ci ilin aprel ayı ənənəvi Lenin iməciliyi ərəfəsi idi. Zəngilan rayon komsomol komitəsinin şöbə müdiri Sərməz Əhmədovun toyunu çalırdıq. Masa bəyi Heydərqulu Kərimov idi. Toy başlamamışdan əvvəl mən evdən götürdüyüm puldan 25 manat siyahıya yazdırmışdım. Sərməsin atası rəhmətlik Məmməd Əhmədovla böyük qardaşım Şamı möhkəm dost olmuşdular. Sərməslə də mənim isti münasibətim var idi. Məclisin şirin yerində toyda bir canlanma oldu ki, Rəmiş toya gəlir. Onu diş həkimi Alışla, Telman həkim gətirmişdi. Rəmiş məclisə gələndə biz hamımız ayağa durduq. O, kənardan beş-on dəqiqə bizim ifamıza qulaq asdı. Oxuyan Nüsrət müəllim, gitaraçı isə Cəfərov Davud idi. Hər ikisi Zəngilandan kənarda da məşhur idi. Rəmiş bizim oturduğumuz yerə yaxınlaşdı. Çox sadə bir gitarası vardı, onu səs gücləndiriciyə qoşdu. Çalmazdan əvvəl mənə siz öz yerinizdə əyləşin və ifanızı davam etdirin dedi. Gitaradan nə səslər çıxardı, sanki bir orkestr çalırdı. Zəngilan musiqi məktəbində Şuşadan bir Əli adlı

kamança müəllimi vardı, O Rəmişdən əl çəkmirdi ki, mənim tələbəm olub, gərək mənə də bir pay verəsiniz şərti kəsmək istəyirdi. Rəmiş gözü-könlü tox adam idi. Biz də Əli müəllimə heç bir qəpik də vermədik. Bəlkə də dirəşməsəydi beş-on manat verərdik. Səhəri toy qurtara-qurtararda dəstəmizdən klarnet çalan məndən soruşdu.: Asif müəllim Qəhrəmana da bir pay verəssiniz? Qəhrəman Davudun kiçik qardaşı idi, qoşa nağara çalırdı. Biz Davudla ona ayrılan payın yarısını verər, yarısını ikiyə bölərdik. Min iki yüz manat yığılmışdı. Toybaşının (Sərpayının) pulunu verəndən sonra (qaydaya görə yığılan şabaşın onda biri toybaşıya verilirdi.) hərəmizə nəqliyyat pulunu çıxandan sonra yüz yetmiş manat pul düşməliydi. Qəhrəmana yarım pay verib, yerdə qalanı da Davudla mən götürəcəydim. Zəngilanda heç bir toyda bu qədər pul yığılmamışdı. Klarnet çalanın verdiyi yersiz sual məni hövsələdən çıxardı, Bu an bizdən azacıq aralıda dayanan Sərməs müəllimi yanımıza çağırdım. Heç kimlə məsləhətməmiş ona dedim ki, musiqiçilər sizə hədiyyə olaraq iki yüz manat pul vermək istəyirlər. Xahiş edirəm onların sözünü yerə salma. Sərməsin xalası oğlu rəhmətlik Savalan müəllimi çağırdıq və iki yüz manatı sayaraq ona verdik. Heç kəs cınqırını da çıxarmadı. Pulu elə Sərməsgilin həyətində böldük. Qəhrəmana da bir pay ayırdıq. Klarnet çalanada yüz yetmiş əvəzinə, yüz otuz altı manat düşdü. Onun yersiz sualından qazanan Sərməz müəllim oldu. Toyda bir ağız oxumayan, bir hava çalmayan (o, bunların heç birini bacarmırdı) Sərməz müəllim bizdən altmış dörd manat artıq götürdü.

## Yazdırdığı pulu pozduran kişi

Keçən əsrin 80-ci illəri idi. Qəhrəmanov Məhiyyədinin əmisi Məhişin qızının toyunu çalırdım. Toyun axırına yaxın uzun illərdən bəri tanıdığım, əvvəllər Qafan şəhərində yaşayan Taksi sürücüsü Arifin toyxanaya girdiyini gördüm. Mənimlə görüşüb-öpüşəndən sonra cibindən bir “beşlik» çıxarıb bizim masanın üzərinə qoyaraq məclisdə oturub yeyib içməyə başladı. Əyləş-

məzdən əvvəl siyahıya iyirmi manat yazdırmağı da unutmadı. Arif yeyib-içsədə fikri bizdə idi. Arada toybaşını çağırıb üç manata bir mahnıda sifariş elədi. On beş iyirmi dəqiqədən sonra mənə: Asif müəllim, xahiş edirəm bir segah çal deyib, əlini şalvar cibinə saldı, nə qədər qurdaladısa da bir şey tapa bilmədi. Ayağa duraraq siyahı yazanın qulağına nə isə pıçıldadı. Dəftərdəki iyirmi manatı pozdurub, 10 manat edərək, geri aldığı on manatı mənə verdi. O, Qafandan Ağkəndə köçmüşdü. Bizə verdiyi pullar da mənnən olan dostluğa görə idi. Mən apardığım toylarda həmişə adımı yazdırardım. Bu dəfə Arifin verdiyi onluğu siyahıya yazdırdım.

## Məzahir həkimin toyu

Mürsəl Qocayev övladlarına toy edəndə ya bacısı Tellinin, ya da qardaşı Əlinin həyətində məclis qurdurardı. Məzahir həkimin də toy mərasimini Əligilin həyətinə salmışdı. Məclisə az adam çağırsa da qonaqları çox olurdu. Adətən Qubadlı, Ağbis, Yeməzli tərəfdən olanlar toyda daha fəal iştirak edir, onu dədə-baba toyları səviyyəsinə qaldırardılar. Gilətağ kəndindən olan Surxay müəllim Mürsəl müəllimlə yaşdaş və yaxın dost idilər. Çox ürəklə məclisdə iştirak edirdi, tez-tez oyuna girirdi, rəhmətlik həm şəxsiyyətli, həm də pəhləvan görkəmindəydi. Axşam tərəfi Surxay müəllim bir cəngi çaldıraraq oyuna girdi. Ora-bura var gəl elədi. Elə bil ki, bir pəhləvan məşq edir və rəqibini gözləyirdi. Birdən o, Mürsəl müəllimə yaxınlaşdı, onu meydana dəvət etdi. Mürsəl müəllim dostunun niyyətini başa düşmüşdü. Odur ki, özünü görməməzliyə vurdu. Az keçməmiş Surxay müəllim yenə Mürsəl müəllimə yaxınlaşdı, gözlərini onun gözlərinə zilləyib meydana dəvət etdi, **küşkü** tutmaq istəyirdi. Mürsəl müəllim təcili tədbir görməsəydi, bu dəfə Surxay müəllim onu güclə meydana salacaqdı. Mürsəl müəllim çox ağıllı bir fənd işlətdi, bu güləş fəndi deyildi, gözlərinin və əlinin işarəsi ilə az aralıda dayanmış Bəylər Həsənovu göstərdi. Nəticəni hiss edən Surxay müəllim sanki, yuxudan ayıldı, dərhal Mürsəl müəllimdən aralaşıb, bizə yaxınla-

şaraq cibindən üç manat çıxarıb! Asif müəllim bir «Heyva gülü» çalın deyərək rəqs etməyə başladı.

## Mincivanda bir toy

70-ci illər idi. Cəbrayıllı klarnet çalan Teymurla oğlan evində toy çalırdıq. İki günlük toyun axırıncı günü biz marş çalanda (marş toyun qurtardığını, yekunlaşdığını bildirir) gözlənilmədən bəy bizim masaya yaxınlaşaraq həmin gün üçün əziyyətlə toplayıb diplomata qoyduğumuz pulu “Buda mənim deyərək diplomat qarışıq qaparaq gəlin otağına qaçdı. Belə bir nanəcibliklə birinci dəfə idi ki, rastlaşırdım. Amma qaçırılan pula görə gəlin otağına girmək olmazdı. Bəy də bunu bildiyindən gəlin otağında sığınacaq tapmışdı. Bəyin atasına, özündən böyük qardaşlarına heç nə demədən evə qayıtdıq.

Bu olaydan bir müddət sonra Mincivanda yaxşı kişilərdən birinin oğlu, özüdə çox mərifətli İmanov Cavanşirin toyuna dəvət olunmuşdum. Toyxanaya girəndə bizim pulu çırpışdıran köhnə bəyin qolunda qırmızı dayanıb toybaşı qismində bizi gözlədiyini gördüm. Bəyin atası Kazım kişi mənim böyük qardaşımla əsgərlikdə bir hərbi hissədə qulluq etmişdilər, aralarında xətir-hörmət var idi. Kazım kişi başda olmaqla yaxın qohum-əqraba (buna Zəngilanda “iç adamlar» deyirdilər) toyun açılışında iştirak etmək istəyirdilər. Bu dəfə də mən gözlənilmədən toybaşının qolundan qırmızını açaraq onu bu işdən uzaqlaşdırdım. Arada xeyli sükut oldu. Köhnə bəy öz qələtini etiraf etdi, Kazım kişinin xahişi ilə toybaşının qırmızısını yenidən qoluna bağladım. O, üzr istədi və toybaşı vəzifəsini ləyaqətlə başa çatdırdı.

## Yarımçıq toy yarımçıq qalan ömür.

Ermənistanla münasibətlərin kəskinləşdiyi ilk dövrlər idi. Zəngilan şəhərində xətrini istədiyim bir ailədə: Əliyev Əli ilə Leyli xalanın kiçik oğlu, Təhsil şöbəsində mühasib vəzifəsində

işləyən Əliyev Eyvazın toyunu aparırdım. Toyun ilk günü gecə xəbər gəldi ki, Zəngilanlı cavanlar Pirçivan stansiyasından Yerevana (İrəvana) gedən «Zəngəzur» qatarının vaqonlarını daşa basıblar. Şüşələr qırılıb, bir neçə gənci milis şöbəsinə aparıblar. Evin böyük yeznəsi Zəngilan Rayon Xalq Nəzarəti Komitəsinin sədri İbiş Məmmədovun məsləhəti ilə toyu yarımçıq saxlamalı olduq. Xeyli adam bu qərardan narazı qalsa da “toyun bu işə nə dəxli var» desə də İbiş müəllim haqlı idi. Axı toyda iştirak edənlərə yeməklə bərabər içki də verirdilər. Qanı coşan gənclər isə xəta çıxara bilərdilər. Səhərisi mən Eyvazın toyuna musiqiçi kimi deyil, qonaq kimi getdim. Siyahıya da iç adamlar kimi adımı yazdırdım. Gecə rayonumuzda yaşayan Qərib Mirimli adlı bir pəhlavan yüzlərlə gənci başına toplayaraq milis şöbəsinə aparılmış gəncləri azad etdirmişdi.

Məkrli düşmənlərin baş tutan arzuları həqiqətə çevrilmişdi. Biz artıq rayonu tərk edib Bakıda yaşayırdıq. Eşitdik ki, Beyləqan istiqamətində haylar Qərib Mirimlini də qətlə yetiriblər. Toyu yarımçıq qalan Eyvaz Təhsil şöbəsində baş mühasib işləyirdi. Bir gün eşitdim ki, xəstələnib. Nəsimi rayonundakı onkoloji xəstəxanada əməliyyat olunub. Yaxın dostum Malik Hacıyevlə onu yoluxmağa getdik, ürək-dirək verdik. Təəssüf ki, bir müddət keçəndən sonra onun yarımçıq toyu kimi ömrü də yarımçıq qaldı. Allah rəhmət eləsin!

## Yarımçıq dayandırdığım toy

1976-cı il olardı. Zəngilan şəhərində imkanlı bir adamın toyunu çalırdım. Əsas toy sabah olacaqdı. Şənbə günü toyu günortadan ac qarnına başlasaq da ev yiyəsi bizi yeməklə təmin etməyi heç ağlına belə gətirmirdi. Halbuki, yaxın adamlar oturub yeyib-içirdilər. Bir azdan onlar durub saatlarla oynayacaq, bizi əldən salacaqdılar. Dəstənin ən yaşlı üzvü qoşa nağara çalan dilə gəldi, məndən icazə alıb bəyin atasından bizim üçün də yemək istədi. Bəyin atası coşdu, nə coşdu qoşa nağaraçı Firidunov Mu-

saya nələr demədi? Mən buna dözmədim, ev sahibi məndən iyirmi yaşa qədər böyük olmasına baxmayaraq ona qapında çağırdığın qonağı təhqir etmək sənə yaraşmaz, Musanı təhqir etmək, elə məni təhqir etmək deməkdir. Əgər yemək hazır deyilsə, o süfrədə oturanlara haradan verirlər? Əgər hazır yemək varsa musiqiçilərə niyə vermirsiniz? -dedim.

Biz heç nəyə məhəl qoymadan, şələ-şüləmizi yığışdırıb, oradan uzaqlaşdıq. Beləliklə, toy yarımçıq qaldı, toy sahibi yeddi-səkkiz saatdan sonra ələk-fələk edib başqa bir dəstə tapıb gətirmişdi.

## Həkəri hövzəsində bir toy

1983-cü ilin yayı idi. Ailəliklə 30-a yaxın Zəngilanlı ailəsi ilə əvəllər bizim olmuş sonralar ermənistan ərazisi sayılan «Molla Bulağı» yaylağında dincəlirdik. Həmin bulaq prokuror şoferi işləmiş, «Lavka Əzizin» atasının adı ilə bağlıdı. Yaylağa köç etməmişdən, rayonda bir neçə toya söz vermişdim. Yaylaqdan toy günündən bir gün əvvəl şəhərə qayıtdım. Oğlan evi Zəngilan şəhərində, qız evi isə Həkəri hövzəsindəki kəndlərdən birində idi. Toy sahibi çox varlı olsada xəsisliyi ilə tanınan bir adam idi. Şənbə günü dəstəmizlə qız evinə getdik. Evimizdə heç kim olmadığından mən naharsız idim. Qız evində toya başladıq. Hamısı qadınlar idi. Bəyin atası da öz qardaşı ilə kişilər üçün düzəldilmiş yığcam məclisdə əyləşib təzə qohumları ilə yeyib içməyə başladı. Biz diqqətdən kənarda ac susuz qaldıq. Biz gəlini gətirəndə qızın atası, çox hörmətli və çörək verən adam bunu bildi və məni tanıdığına görə yaxınlaşıb üzrxahlıq elədi. Təzə qudasına da məzəmmətlə:

- Asif müəllimgili niyə bizimlə otuzdurmamısınız, onlara heç nə verilməyib-dedi. Oğlan evinə çatdıq, onu qənimət bildik ki, Dağüstü pavilliondakı kababxanaya getdik. Doyunca yeyib içdik. Qız evində yığdığımız pulu da orada xərclədik. Biz paviliyondan qayıdanda bəy atası məndən soruşdu ki, harada idiniz? Dedim ki, kababxanada o da gileyləndi ki, məni niyə aparmadınız? Mən də

dedim ki, siz qız evində xubuncan yeyib içəndə bizi niyə dəvət etmədiniz? Sualıma cavab verə bilmədi. Sabahkı qonaqlar üçün böyük bir cöngə kəsilmişdi. Onu doğrayır yerbə-yer edirdilər. Adətən həmin heyvanın içalatını bişirib, siftə günü yığışan qonum qonşuya, qohum əqrəbaya süfrə açırdılar. Biz musiqi alətlərimizi və səsgücləndirici aparatı tənzimləyib toya başladıq. Gecə saat birə qalanda toyu kəsdik, süfrəyə araq qoyulmamışdı. Əyləşənlərdən araq istəyən oldu. Toy yiyəsi 30-a yaxın adama iki butulka araq verdi. Belə yöndəmsiz, simic adama birinci dəfə idi ki, rast gəlirdim. İctimai binada yaşayan toy sahibinin qonşularından Məzahir həkim və təcili yardım sürücüsü Əsəd də məclisdə idilər. Sabah toyu davam etməliydik. Toy sahibindən ağlım bir şey kəsmirdi. Ailə-uşaqlarım yaylaqda, qaz peçi və balonunu da ora aparmışdıq. Bəy atasından soruşduq ki,səhər nahar eləyib gələk, yoxsa burada heç olmazsa bir stəkan çay verəssiniz? O da bidirdi ki, naharı bizdə edəcəksiniz yaxşı xaş olacaq. Səhəri gəldik, doğrudanda çox əla bişirilmiş xaş verdilər. Bəy atasının qardaşı və qohum əqrabası da gəlmişdi. Süfrəyə bir butulka araq qoydular. İlk etiraz edən bəyin əmisi oldu. O, da böyük qardaşını amiranə səslə çağıraraq: Bu araqdan bir butulka da gətir, mənə iki butulka bəs edir – dedi. Böyük qardaş dinməz söyləməz onun söylədiklərini yerinə yetirib, ordakı qonaqlara da içi biz qarışıq iki butulka araq verdi. Mən içki içməsəmdə yoldaşlarımdan içəni vardı. Toya iyirmi manat yazdıracaqdım. Ancaq on manat yazdıırdım. Toy qurtaranda bəy atası məndən soruşdu: Asif müəllim yoldaşların niyə siyahıya yazılmadılar. Bu yonulmamış adama: Nə yığılıb ki, nə də yazdırsınlar, hərəyə on beş manat düşür dedim

## Zəngilanda çaldığım ilk və son toy

İyirmi beş ilə yaxın toylara getmişəm. İlk çaldığım toy qonşumuz Həsən əminin qızı Mədinənin toyu olub. Bu, 1965-ci ilin avqust ayında baş verib. Mədinəni bacım kimi çox istəyirdim. İş elə gətirdi ki, sonralar Mədinə xanımla iyirmi ilə yaxın rayon Pi-

oner və məktəblilər evində bir yerdə işlədik. Onun oğlanlarının da toyunu mən apardım. Zəngilanda axırıncı çaldığım toy Əslən Qunqışlaq kəndindən olan Zəngilan şəhərində özünə ev tikdirən Cəbiyev Əvəzin qızının toyu olub. Ümumilikdə təxminən iki minədək toy çalsam da bu gün mənimlə can bir qəlbdə olan Hacı Əli qardaşımgilldə toyda olmamışam. Məcburi köçkünlük vaxtı təxminən 1995 və ya 1996-cı ildə Neft Akademiyasının tələbə şəhərciyində yaşayan Zəngilanlı dostlarımla tramvay xətti (Zoo-parka tərəf) kənarında toplaşıb söhbət edirdim. Eldar Əsgərovun bizə yaxınlaşdığı və məni qızının toyuna musiqiçi kimi dəvət etməsi mənə qəribə gəldi. Ona dedim ki, ay qardaş axı mən 1991-ci ildən bu sənəti tərgitmişəm. Əl çəkmədi ki, mənim oğlanlarımın toyunu çaldığın kimi qızımın da toyunu sən aparmalısan. O, mənimlə söhbət edərkən böyük qardaşım Şamı da ora gəldi, Eldar ona dedi ki, yoldaş Bağırov, axı kiçik Bağırov məni eşitmir. Şamı işdən halı olub:

- Eldar düz deyir, sən mütləq onu qızının toyunu çalmalısan. Gitara çalan Novruz Hacıyevlə indiki H.Əliyev sarayının yaxınlığında, həyət evində toyu çalarkən bir nəfər orta yaşlı adam bizə yaxınlaşıb, axşam tərəfi tramvay parkının yanındakı restoranda nəvəsinə ad günü keçirəcəyini bildirib, ora getməyimizi xahiş etdi. Saat 15-16 radələrində Eldargilin məclisini qurtarıb, ora getdim. Payıma xeyli pul düşdü. Bundan sonra Novruzgillə bir neçə toya getsək də köhnə sənətimi davam etdirmədim.

**Hafiz Baxış. Bizim dost itirən vaxtımız deyil**

Gəlin itirməyək dostları, qardaş!
Onsuz da çox deyil yaxşı dost, sirdaş.
Dostluq qalasından bir kərpic, bir daş
Uçurub aparır hər saat, hər il-
Bizim dost itirən vaxtımız deyil!

Bir könül həmdəmi tapana qədər
Can evi illərlə olur dərbədər.
Var-dövlət dünyada gəlib də gedər,
Hər şeyə göz yumub dosta et meyil-
Bizim dost itirən vaxtımız deyil!

Tutmursa xasiyyət, tutmursa ürək,
Havayı duz dadıb, kəsməyək çörək.
Dostun hər cövrünə qatlaşıb gərək,
Olaq yaxşısına, pisinə qayil-
Bizim dost itirən vaxtımız deyil!

Onsuz da qısadır, dönükdür ömür,
Tale biz deyəni həmişə demir.
Ey dost, biz nə daşıq, nə də ki, dəmir,
Əsl dost yolunda ikiqat əyil-
Bizim dost itirən vaxtımız deyil!

Dünyanı tutub ha qalan deyilik,
Əbədi məskən də salan deyilik.
Ömrü bir də satın alan deyilik,
Dostluqda hər anın qiymətini bil-
Bizim dost itirən vaxtımız deyil!

Canını istəsə, dosta qurban de,
Dərdinə çarə qıl, ona dərman de.
Dost sənə “çor» dese, sən ona “can» de,
Düşməni dost edir xoş söz, şirin dil-
Bizim dost itirən vaxtımız deyil!

Hafiz, dar ayaqda dosta ol dayaq,
Dostluğu müqəddəs bir nemət sayaq.
Fitnə-fəsadlara məhəl qoymayaq,
Çəkək nankorların gözlərinə mil-
Bizim dost itirən vaxtımız deyil!

## Sən bunları anlamazsan

Zəngilan şəhərində birinin toyunu çalırdım. Toyun sonuna yaxın xatirini istədiyim toy sahibi mənə dedi ki, toydan sonra qalın, bizim arvad sizin üçün xüsusu plov dəmləyib, birlikdə yeyək. Onu qırmadım və yaxşı, qalarıq, dedim.

Elə təzəcə oturmuşduq ki, rayondakı məsul işçilərdən biri, başqa yerdən gələn qardaşı ilə toyxanaya gəldi. Onu da deyim ki, o günortaüstü məclisdə iştirak eləmişdi.

Bu «gözlənilməz qonaq» gəlib oturdu. Ev sahibinin oğlu rus dilini bildiyindən və bu dəvətsiz qonağın da xanımı rusdilli olduğundan bunlar başladılar rus dilində danışmağa. Ev sahibi bunlara baxır əsəbiləşirdi. Sonda dözməyib oğluna dedi:

-A, bala filankləs, bizim dildə danışın biz də anlayaq, görək nə deyirsiniz.

Aradan bir az keçdi, bunlar yenə də rusca danışmağa davam etdilər. Bu dəfə ev sahibi qonağa belə dedi:

-Yoldaş Qanmazov mümkünsə bizim dildə danışın, görək axı nə deyirsiniz.

Dəvətsiz qonaq görün ev sahibinə nə dedi:

-Ə, sən bunları başa düşməzsən. Bu söhbət qəlizdi. Sən Kerimovdan (Nəzir Kərimov nəzərdə tutulur) başqa kimi tanıyırsan. Ondan yuxarıda Moskva var, Brejnev var. Orada Avropa yox, Evropa var, Asiya yox, Azii var. Bunlar sənlik deyil.

Biz hamımız pərt olduq. Ev sahibi də baxırdım ki, dil-doğağını gəmirir. O, evə gedib əlində iki soğan və bir neçə də çiy kartof gətirib onların masasına qoydu və dedi:

-Ə, sən mənə qanmaz deyirsən. Ə, utanmaz, səni götürüb buradan elə tullaram ki, gedib bu qonşunun yox e, o birinin həyətinə düşərsən. Ə, dur buradan cəhənnəm ol.

Onu da deyim ki, ev sahibi bu dəvətsiz qonaqdan bəlkə də on il yaşca böyük idi.

# IV FƏSİL
# YARADICILIĞI

Asif müəllimin dövrü mətbuatda yüzlərlə elimi və punlisistik yazıları dərc olunub. Mən burada sadəcə ikisi barədə məlumat, daha doğrusu iki yazını olduğu kimi sizə çatdırmağı özümə borc bildim. Mənim anlayışıma görə yazı yazılanlarla yazı yazan eyni əqidəli insanlar olarsa bu yazı həm yazanı həmdə ki, yazılanı yaxşı mənada tanıdar. Asif müəllimin yazdığı bu iki, yazının qəhrəmanları elə onun kimi eyni əqidəli insanlardı.

## Novruz bayramı

Ağlım kəsən ötən əsrin əllinci illərindən Zəngilanın işğal gününədək qırx ildən artıq bir dövr qədimliyi, zənginliyi və milliliyi ilə həmişə yaşar Novruz yaddaşımda belə həkk olub.

Beş-altı yaşlarımda kəndimiz Pirçivanda bu bayram keçiriləndə müharibənin ağrı-acıları hələ qaysaq bağlamamışdı. Atasının, ərinin, oğlunun, qardaşının, nişanlısının geri qayıdacağını gözləyən yüzlərlə insanların gözləri yollara dikilmişdi. SSRİ-nin rəhbəri «millət atası» Stalin də sağ idi, təmizliyi, kişiliyi həmdə qəzəbi və qəddarlığı ilə seçilən Mir Cəfər Bağırov da. Bu başdan deyim ki, Novruza məqsədli şəkildə dini don geydirildiyindən onun qeyd edilməsinə müəyyən qadağalar qoyulmuşdu.

Bu bayramı yanlış olaraq «Cənab Əmir» bayramı adlandıranlar da az deyildi. İl axır çərşənbə və Novruz bayramlarında kommunist partiyasının sağ əli, belə demək mümkündürsə gənclər arasında onun agenti sayılan Komsomol Komitələrinin xüsusi patrul dəstələri gizli şəkildə evləri, qapıları gəzir, gecələr çillə çıxaranları şənlik keçirənləri səhərisi günü ifşa edirdilər. Hətta onlara təhsil aldıqları məktəblərdə, işlədiyi müəssisələrdə töhmət də elan olunardı. Bütün bu təqiblərə baxmayaraq, ucqar dağ rayo-

nu Zəngilanda böyükdən kiçiyə hamı həsrətlə Novruzun gəlişini gözləyirdi. Bayrama bir-iki ay qalmış hər bir ailə özünə məxsus şəkildə Novruza hazırlaşar, evlər ağardılar, qapı-pəncərə rənglənər, paltar-palaz, yatacaq təmizlənər, işlədiləcək ərzaq və şirniyyat tədarük edilərdi.

İlaxır çərşənbədən əvvəlki həftədə qəbir üstü (qara bayram) mərasimi keçirilərdi. Qəbir üstü günü, ilaxır çərşənbə və Novruz bayramı günlərində bişirilən plovda ancaq nehrə yağından istifadə edilərdi. Heç bir ailə mağazadan yağ almazdı. Bu onunla izah olunurdu ki, həmin yağın təmizliyinə etibar yoxdu. Çünki Rusiyadan gətirilirdi. Qapısında mal-heyvanı olmayanlar qonşu Qubadlı rayonunun Xocahan kəndindəki həftəbazara getməyi üstün tuturdılar.

Qəbir üstü günündə səhər-səhər əsasən qadınlar dəstə -dəstə qəbristanlığa baş çəkər, qəbirlərin üstündə ağlayar, ürəklərini boşaldar, Quran oxutdurardlılar. İli çıxmayanların qəbirləri üstünə ziyarətə qohumlarla bərabər yaxın qonşular, tanışlar da təşrif buyurardılar. Həmin gün kişilər orada azlıq təşkil edərdilər. Onlar əsasən qəbirlərin uçulan, çatlayan yerlərini düzəldər, ətrafdakı gül-çiçəklərin, ağacların diblərini belləyər, Quran oxuyanların haqqını ödəyərdilər. Əksər evlərdən buraya gecədən bişirilmiş plov (aş) gətirərdilər.

Qəbir üstü günündəki plovu ətlə hazırlamazdılar. Bu plovun aş qarası-ərik, albuxara qurusundan, kişmiş, xurma, şabalıd, soğan, sarıkök və s. ibarət olardı. Plovdan ən aşağısı yaxınlıqdakı yeddi evə pay çəkilərdi. Hamı istəyərdi ki, kimsəsiz və ya imkansız ailələrə birinci baş çəksin. Əslində qəbir üstü günü (qara bayram) dirilərin ölüləri yad etməsi, onları unutmadıqlarını bildirməsi, ağrı-acının, qəm-kədərin, el-oba ilə birlikdə daha asan aradan qaldırmasını bariz şəkildə təcəssüm eyləyirdi.

Qəbir üstü günü mərasimindən sonra qarşılanılacaq il axır çərşənbədə insanlardakı narahatçılıq, bədbinlik, qəm-qüssə nikbinliklə, xoş əhval-ruhiyyə ilə əvəz olunardı. Yalnız yaxın adamlarının ili çıxmayanlar bayram günü qovurqa (buğda) qovurmaz

şəkərbura, paxlava, əyirdək, şorqoğalı, boyanmış yumurta hazırlamaz, səməni becərməzdi. Bunları yaxın qonum-qonşulaqr gətirərdilər. Matəm içərisində olanlar isə həmin sovqatı təmkinlə qəbul edər, bayram günlərində özlərini nisbətən toxtax tutar, heç kimin bayram ovqatını korlamaq istəməzdilər. Kosa, keçəl, yüzlərlə uşaq çiyinlərində torba hədiyyə üçün qapını döyürdüsə onları gülər üzlə qarşılamaq və yola salmaq lazım idi.

Bayrama bir neçə gün qalmış hər bir valideyn uşaqları üçün təzə pal-paltar alardı. Anaları uşaqlarına yun və xiyəti (baramadan toxunan –Ə.S) corablar toxuyardı. İl axır çərşənbə və Novruzda bütün həyətlərdə və çillə çıxarılacaq yerlərdə tonqal qalanmasından ötrü əvvəlcədən ot-ələf, çır-çırpı, odun, hətta avtomobil şinləri (sıradan çıxmış məxsus olduğu idarə, müəssisə və ya kolxozun qarajınnda saxlanılan) toplanırdı. Daha doğrusu şinləri həmin yerlərdən oğurlayırdılar. Tutulanlar da olurdu.

Qəbir üstü günü sovulandan sonra bayramın ilk atributlarından biri yumurta döyüşmələri başlardı. Qaydaya görə sınan yumurta sındıran yumurtanın sahibinə verilirdi. Yumurtanın bərk və ya boşluğunu dişə toxundurmaqla bilənlər də az deyildi. Onlar yeri düşəndə xam rəqibə asanlıqla qalib gələr, yumurtanı Aldəyiş edirdilər. Elələri vardı ki, hind toyuğunun yumurtasından (o çox bərk olur), ya da üç-dörd ay duzda saxlanmış yumurtadan istifadə edirdi. Yumurta ilə başqa bir oyun «qatara düzmə» də vardı. Bu zaman maili yerdən diyirlənən yumurta təxminən bir metr aşağıda yumurtalardan hər hansı birinə toxunurdusa onu diyirlədən oyunçu həmin yumurtanın hamısına sahib çıxırdı. Udulan yumurtalar salamat qaldığından onları uzun müddət saxlamaq mümkün idi.

Günin ikinci yarısından gecə yarıyadək qapı-qapı gəzib bayram payı toplayanların demək olar ki, hamısı üçün ən yaxşı pay yumurta sayılırdı. Pirçivandakı «Məscid düzü», onun yanındakı, «Ala qapı» dispetçer mənətəqəsi rolunu oynayırdı. Köhnə Pirçivandan da bura yumurta döyüşdürməyə gələrdilər. Məhəlləmizin tanınmışları: çayçı Allahverdi Namazov, aşbaz Xəlil İbrahimov, Cəmil, Suqurət, Qurban, Mansur Mustafayevlər, İsa Əkbərov,

yenicə müəllimlik fəaliyyətinə başlayan Əsgər Əsgərov, Abbas Hüseynov, milis starşinası Ədil Kərimovun da öz hay-küyləri ilə buradakı iştirakı bayrama xüsusi ləzzət verərdi.

Məscid düzündə həmçinin kimin harada və ya kimin evində çillə çıxaracağı, uşaqlara hansı evdə daha yaxşı pay verildiyi məlum olurdu. Gecədən səhərədək cavanlar (bu oğlanlara aid idi) burada bir neçə dəfə görüşər, sanki, bir-birinə hesabat verərdilər. Maraqlıdır ki, adi günlərdə toran vurmamış uşaqlarını evlərinə səsləyən valideynlər bayram vaxtı onları tamam sərbəst buraxardılar.

Çillə çıxardan evlərdə əsasən qızlar olardı. Onların anaları qızlarının dönə-dönə ev yiyəsinə tapşırardıdılar. Qızlar biş-düş edər, səhərədək deyib gülərdilər. Çox vaxt məclislərində musiqiçilər də olardı.

Məhəlləmizdə çillə adətən Sayad xala, Nənəxanım xala və Məhluqa xalagildə çıxarılardı. Qızlar plovu həyətdə bişirərdilər. Nəzarət zəif olanda bəzən plov qazanı oğlanlar tərəfindən yoxa çıxardı. Qazanın yerini tapan oğlanlar çillədə iştirak etmək hüququnu qazanardılar. Bayramın yazılmayan bir qanunu vardı. Uşaqdan-böyüyə hamı bayram süfrəsinə əyləşməzdən öncə yanan tonqalın üzərindən o baş, bu başa tullanar: -«Ağırlığım-uğurluğum burada qalsın»! deyərdi.

Qışın, saxtnın ağrı-acısını yaşamış, torpağın oyanıışı, ruzi-bərəkət üçün münbit şəraitin yarandığı günü gözləyənlər üçün bundan əziz bayram ola bilməzdi.

Bu bayramda il boyu küsülü olanlar barışardı. Müxtəlif arzulu insanlar gecələr qulaq falına çıxardılar. Onlar xəlvətcə qapıya yaxınlaşar, xoş xəbər eşitdikdə özləri ilə gətirdikləri suyu içəri səpərdilər. Bəziləri tanınmamaq üçün qiyafətlərini dəyişər, nadir hallarda qızlar oğlan, oğlanlar isə qız paltarı geyinərdilər. Beləələri ancaq öz yaxın qohum və qonşuların qapısına gedər, öz baməzəlikləri ilə onları o ki, var güldürərdilər.

Qeyd etdiyimiuz kimi oğlanlar neçə aylardan bəri topladıqları ot-ələf, odun, maşın şinlərini Pirçivan kəndinin ən hündür

dağlarına daşıyardılar. Bu məqsədlə Pirçivan piri, sonralar dağ üstü park salınan yer, kəndin aşağı hissəsindəki Təbrizli qışlağının üstündəki dağ seçilərdi. Bu yerlər hər bir tərəfdən aydın görünərdi. Özləri ilə bayram sövqatı götürən gənclər səhərə qədər həmin tonqalların ətrafında rəqs edər, çalıb oxuyardılar. Onların səsi bütün aləmə yayılardı.

Çillə çıxardanlar səhərə yaxın axar suya baş çəkər, əllərini orada yuyar, ürəklərindəki arzularını suya danışardılar. Bir neçə gün davam edən bayram təkcə evlərdə və həyətlərdəki şənliklərlə tükənmirdi. Bu bayram gündüzlər də bağ-bağatda öz əksini tapardı. Bayram ərəfəsində baharın ilk müjdəsini qaranquşların yenidən gözə dəymələri, çəmənliklərdə, ağacların, kolların dibində xoş ətiri aləmi bürüyən boynu bükük qan bənövşələrin utancaqlıqla torpağın tərkinədən boylanaraq «gəl dər məni» demələri hamını ona çəkərdi.

Məktəblərdəki yaz tətili günləri qız və oğlanlar üçün tam sərbəstlik yaradardı. Qızlar uca ağaclardan asdıqları kəndirdə «küfeyli», oğlanlar isə «çilədi», «çiling –ağac», «ənzəli», «süd-lü sümük», «cızıqdan çıxma» oynayardılar. Günorta vaxtı süfrə salınar, hamı bir yerdə nahar edərdi. Nahara verilən plovu qızlar elə orada bişirərdilər.

SSRİ-nin tərkibinədəki Azərbaycan o zamanlar qeyri iş günü kimi qeyd edilən 1-2 may Zəhmətkeşlərin Beynəlxalq Həmrəyliyi günü və 7-8 noyabr Böyük Oktyabr Sosialist İnqilabı bayramları siyasi xarakter daşıdığından xalqımız üçün məcburi və həzmediləmz sayılırdı. Novruzda isə təbiətlə yanaşı bütün yatmış arzular oyanırdı.

Respublikamızda televiziya 1956-cı ildə ildən fəaliyyətə başlasa da Zəngilanda ötürücü stansiya 70-ci illərin ortasında tikildi. Evlərdə yalnız radiolar məllumat və əyləncə vasitəsi idi. Tək-tək vəzifəli adamların evlərinə telefon çəkilərdi. El-oba, qohum-qardaş bu səbəbdən heç olmasa günaşırı bir- birinə baş çəkər, hal-əhval tutar, bir stəkan çay içərdi. Get- gəl canlı ünsiyyət isə onları daha mehriban edərdi. Milli bayramımız Novruzda isə bu doğma-

lıq birə-beş artar, daha da şirinləşərdi. Mən, Novruz bayramının Pirçivan kəndində keçirilən müəyyən məqamlarından söhbər açdım. Əslində bu Zəngilan rayonunun bütün yaşayış məntəqələri üçün xarakterik idi. Bir neçə məqamı da qeyd etməyi vacib bilirəm. İl axır çərşənbə və Novruz günlərində heç bir ailənin süfrəsində spirtli işki olmazdı. Belə fikir heç ağıla da gəlməzdi. Həmişə, xüsusən bayram günlərində qonşu (Kafan rayonunun Sav Şeşkert, Kilsə, Hənd, kəndərindən) haylar süfrəmizə qonaq olardılar.

Heç bir ailə onlara pis sifət göstərməzdi. Bir neçə gün qaldıqdan sonra onlar evlərinə qayıdardılar. Haylar gedəndən dərhal sonra qapı-pəncərə bir neçə gün açıq saxlanılardı. Bu ona görə edilirdi ki, oradakı xoşagəlməz iy-qoxu çəkilsin. Onların istifadə etdikləri qab-qacaq, stəkan-nəlbəki, hətta yatacaq axar suda dəfələrlə yuyular, salavata çəkilərdi. Böyüklərimiz hayların murdar olduqlarını müəyyən qədər nümayiş etdirsələr də onların əsl xislətini mövcud rejimdən ehtiyatlanaraq bizə tam şəkildə açıqlaya bilmirdilər.

Ötən əsrin altmışıncı illərinin axırlaırnda Azərbaycan KP MK-nın katibi, yazıçı-dramaturq Şıxəli Qurbanovun səyi nəticəsində respublikada yazın gəlişi «Bahar bayramı» adı altında təntənəli şəkildə keçirilməyə başladı. Bundan sonra Zəngilanda da Novruzun layiq olduğu səviyyədə qeyd edilməsi üçün yollar açıldı. Milli liderimiz Heydər Əliyevin respublikamıza rəhbərliyi illərində isə Novruz bayramı daha yüksək səviyyədə, yeni çalarlarla pik zirvəsinə çatdı.

Novruz bayramlarıda bəzən çox gülməli və ömür boyu yaddan çıxmaz hadisələr də olurdu.

Onlardan bir neçəsini sizlərə çatdırım.

Məhəlləmizdəki sinif yoldaşlarım Kamil Əsədov, Arif Şıxəliyev, Hüseyn Məmmədov, Xürrəm Həsənov və başqaları bayramda daha çox qazanmaq üçün ona on beş, iyirmi gün qalmış xüsusu hazırlıq görərdik. Bu tonqallarda yandırılacaq şinləri toplamaqla yanaşı, üzümüzə taxmaqdan ötrü qoyun və keçi dərisindən maska

düzəltmək, boynumuza taxmaq üçün ilbiz çanaqlarını bağlardan yığmaq, torba çiynində qapılara gedərkən ev yiyəsinə uyğun təriflər demək, özümüzlə götürdüyümüz qarmon, tütək və nağarada ifa olunacaq havaları dəqiqləşdirmək kimi vəzifələr daxil idi.

Burasını da deyim ki, hazırladığımız maska olduqca dəhşətli idi, nabələd adamlar, xüsusən də uşaqlar bizi bu qiyafətdə gördükdə vahiməyə düşürdülər. Biz isə bunu dərk etmir, daha çox bayram hədiyyəsi barədə düşünürdük.

Meşə idarəsi məhəlləmizdə yerləşirdi. İdarənin müdiri Qasımov soyadlı orta yaşlı dolu bədənli kişi isə deyildiyinə görə güləş üzrə idman ustasıydı. Yoldaşlarımıdan biri dirəşdi ki, icazə verin onun evinə mən gedim, yumurta, şəkərbura ilə bərabər Qasımovdan pul da qoparacağam,siz mənim havamı çalın. O, maska sifətində oynaya-oynaya içəri daxil oldu. Onun içəri girməsi ilə evdə tükürpədici qışqırıqlar eşidilməyə başladı. Onlar bu «əcaib varlığın», nə olduğunu hələ də dərk etməmişdilər. Müdir isə bunu ona sataşmaq kimi qiymətləndirərək, bir göz qırpımında dostumuzu başına alaraq, hələdə evdəki sökülməmiş odun peçinin üstünə çırpdı. Zərbədən peçin içəridəki və pəncərədən bayıra çıxan boruları yerə töküldü. Dostumuz qışqırırdı.

-Yoldaş Qasımov! Öldürmə məni, bu bizim adətimizdir ! Qasımov da bu adətə o ki, var söydü, onu döyərək əldən saldıqdan sonra başına alaraq açıq qalmış qapıdan dörd-beş mert aralı tulladı. Əraziyə milis çağırsalar da biz oradan uzaqlaşa bildik. Maska ilə «boyunbağı» nı xəlvəti bir yerdə gizlədik. Bu bizə bir dərs oldu, başa düşdük ki, düzəltdiyimiz maska və «boyunbağı» nın zərəri xeyrindən qat-qat artıq imiş.

Başqa bir əhvalat.

Sinif yoldaşlarımdan Arif Şıxəliyev, Kamil Əsədov, Hüseyn Məmmədov, Əsgər Hüseynov və başqaları qərara gəldik ki, il axır çərşənbəni Zəngilan qəsəbəsinin Qıraq Müşlan kəndi ilə sərhəddəki «Mağal daşı» deyilən düzənlikdə keçirək. Bu daş ön tərəfdən əlli-altmış metr hündürlükdə olmaqla üç yüz kvadrat metrlik ərazini əhatə edirdi. Daşa ön tərəfdən çıxmaq mümkün deyildi.

Arxa tərəf Təbrizlı qışlağının ətəyi olduğundan bura hərəkət üçün prboblemsiz idi. «Mağal daşı» nın ön tərəfində təxminən otuz metr hündürlükdə onun içərisinə giriş üçün diametri iki metrə yaxın kufül var idi. Ora girmək çətin deyildi, ancaq heç kim bu arzuda olmazdı.

Deyirdilər ki, mağalda gecədən səhərə dək cinlər yaşayır, hərdən onlar zurna-balabanla ətrafa hay-küy də salırlar. Mən uşaq vaxtı qonşumuz olmuş, hal-hazırda altmış ilə yaxın bir dövrü Sumqayıt şəhərində məskinlaşan, yaşı səksəni haqlamış Əhməd Allahverdi oğlundan da bu barədə eşitmişdim. Ancaq yoldaşlarıma bu barədə bir kəlimə də deməmişdim. Bu maraqla biz bayramı burada qeyd edirdik. Tonqalı qalayanadək hamımız müəyyən qorxular keçirdik. Bura həm də olduqca zülmət qaranlıq idi. Tonqalın gur alovları hər yeri işıqlandırmağa başladı. Şirniyyatlardan yeyə-yeyə musiqi çalmağa ,rəqs etməyə, şənlənməyə, məzəli söhbətlərə başladıq. Bu minvalla səhəri açdıq.

Obaşdan «İsti-su» deyilən bulaqda əl-üzümüzün his-pasını yuyaraq evlərimizə qayıtdıq. İki-üç gün keçmişdi. Məhələmizin yaşlı adamları boş vaxtlarında Məscidin böyründəki Abbas müəllimlə Mələyin evinin arxasında barının üstündə oturaraq ordan –burdan söhbətləşərdilər. Demək olar kİ, hamısı kolxozçulardı. Moskvadan, Bakıdan, raykom katibindən, kolxoz sədrindən, əmək günündən onun azlığından gileyləndikdən sonra keçirdilər cin-şeytan mövzusuna. Bu haqda arabaçı Müslüm dayı danışırdı. Oturanlar: Əziz dayı, Rüstəm dayı, Tumas dayı, atam, şofer Qasım, nisbətən cavan Qabil (törə) ona diqqətlə qulaq asırdılar. Arada şofer Qasım onun sözünü kəsir, atmacalar atırdı. Yoldan ötənlər də ayaqlarını saxlayıb bunun nə ilə qurtaracağını gözləyirdilər. Günorta dərsdən evə qayıdan Arif Şıxəliyevlə mən piyada yolun ortasındakı iri akasiya ağacının arxasında gizlənərək Müslüm dayının «Mağal daşı»nda iki gün əvvəl cinlərin gecə səhərədək çalıb-oynadıqlarından, böyük bir tonqal qalamalarından danışdıqlarına fikir verirdik. Müslüm dayıgilin evləri o əraziyə yaxın olduğundan, bizim hay-küyümüzdən səhərə kimi

yata bilməmişdi. Çox sadə həm də xeyirxah Müslüm dayı heyrətlə bildirirdi ki, qabaqlar da cinlər həmin mağalda zurna-balaban çalırdılar. Malatkeşinli Seyidalı kimi havaları döndərirdilər. İndi tamam radiodakı kimi çalırlar. Bu vaxt yenə şofer Qasım Müslüm dayının sözünü kəsdi:

-Müslüm bəlkə deyəsən ki, indi də Yeməzli kəndindəki zurnaçı İbrahim kimi çalırlar.

Müslüm dayı onun canın boğazına yığan Qasıma söz arası gülə-gülə:

-Ə, bu sən başa düşən şey deyil, get maşınını xodla».-deyərək davam etdi. Onlar tay keçiblər tara, qarmona, tütəyə, qavala,. Köpək uşağı qarmonu elə gözəl çalırdılar ki, elə bil Teyyub Dəmirov idi.

Atam bizim iki gün əvvəl orada olduğumuzu bilirdi, mən ondan icazə almışdım. O, Müslüm dayının xətrini çox istəyirdi, onun sözünü təsdiqləyərək əlavə etdi:

-Müslüm düz deyir, Asif evə gec gəlmişdi, onu tapmaq üçün aşağı məhəlləyə getmişdim. Mənim də qulağıma qarmon səsi gəldi, köpək uşağı Teyyub Dəmirov kimi çalırdılar..

Ariflə mən xəlvətcə oradan uzaqlaşdıq.

## Zəngilan rayonu barədə

Uşaqlıq çağlarıma təsadüf edilən ötən əsrin 50-ci illərinin əvvəllərindən 1993- cü ilin oktyabr ayınının axırına-işğal gününədək Zəngilanda qeyd olunan bayramlarda, toy düyünlərində, dəfn mərasimlərində gördüklərimi, mifik rəvayətlər barədə yaşlı nəsildən eşitdiklərimi oxucularla bölüşmək istəyirəm.

Təbii çinar meşələrinə görə dünyada birinci (Son illərə kimi deyirdilər ki, bu meşə dünyada ikincidir. Ən böyük çinar meşəsi isə Kanadadır. Onu bildirim ki Kanadanın dövlət bayrağında ağcaqayın yarpağı var. Kanadada olan meşə isə çinar meşəsi yox, ağcaqayın meşəsidir. Neçə illərdi ki, birinciliyi əlimizdən almışdılar –Ə.S.). Sinəsində dörd çayın: Araz, Bəsit, Həkəri, Oxçunun

şırhaşırla axdığı Zəngilan həm də qədim və zəngin tarixə malikdir. Ötən əsrin 70-ci illərinin sonları, 80-ci illərinin əvvəllərində tarix elmləri doktoru Rəşid Göyüşov və Aləm Nuriyev tərəfindən aparılan arxeoloji qazıntılar zamanı burada (Həkəri çayının sağ sahilində Şərifan kəndi yaxınlığında) qədim şəhər, «Şəhri Şərifan»ın xarabalıqları aşkara çıxarılmışdır. Yazıçı C.Bərgüşadın «Siyrılmış qılınc» adlı tarixi romanında xalq qəhrəmanı Babəkin buralarla əlaqəsi barədə sanballı faktlar qələmə alınmışdır. Digər xalq qəhrəmanı Koroğlunun adı ilə bağlı Zəəngilanda «Ağ oyuq»da «Koroğlu daşı» adlı qədim abidə var. İşğaldan 8-9 il əvvəl həmin yerdə «Daş heykəllər» muzeyi yaradılmışdı. Muzeydə rayonun müxtəlif ərazilərindən toplanmış, yaranış tarixi dəqiq bilinməyən onlarla «Qoç heykəllər» mühafizə olunurdu.

Zəngilana bitişik, tarix boyu xeyir-şərləri, adət-ənənələri, bir olan qonşu Qubadlı torpağının Azərbaycana bəxş etdiyi xalq qəhrəmanları Qaçaq Nəbi və Həcər xanımla bağlı yaşlı nəslin söylədikləri maraqlı xatirələr gənclərin vətənpərvərlik ruhunda böyüməsində müsbət rol oynamışdır. Zəngilandakı adət-ənənəllər, mərasimlər qədimliyi ilə yanaşı zənginliyi ilə də diqqəti cəlb edir.

## Pirçivan piri

İnanc yeri Pirçivan piri haqqında ulularımızın söylədiklərindən:

1930-cu ildə Zəngilan rayonu təşkil edildikdən sonra onun mərkəzi Pirçivan kəndi oldu. Pirçivan kəndi təzə və köhnə olmaqla iki hissədən ibarət idi. Təzə hissədə Məscidlə yanaşı əzəmətli bəy evləri ona xüsusi yaraşıq verirdi. Ağa bəy, Nəzər bəy, Gəray bəy, Humay bəyin evləri iki mətrtəbəli olmaqla Sovet hakimiyyəti illərində burada rayon partitya və İcraiyə komitələri, milis və prokurorluq, DTK-nın rayon şöbəsi, Hərbi komissarlıq fəaliyyət göstərib. 1957- ci ildə kəndə qəsbə statusu verildikdən sonra onun adı Zəngilan qəsəbəsi, (halbuki Pirçivandan 3 kilometr aşağı hissədə Zəngilan kəndi mövcud idi və sonradan da həmin

ərazi öz adı ilə saxlanıldı) 1967- ci ildə isə şəhər adı verildikdən sonra Zəngilan şəhəri adlandırıldı. Beləlliklə, Pirçivan əsrlər boyu daşıdığı tarixi adını itirdi. Pirçivanın mərkəzindən təxminən bir kilometr aralıda yerləşən, hər bir evdən aydın görünən Oxçu çayının sol sahilində ona bitişik 150-200 metr hündürlükdəki dağın sinəsində düzən yerdə iki qəbir var. Bu pir adlanırdı orada bir neçə saqqız və çırtdaquş (bəziləri bu ağaca çattaquşda deyirlər, kiçik sümüklü və yağlı meyvələri var, rayonda əsasən Bartaz kəndi ərazisində bitir), ağacları bitmişdi. Həmin ağaclar neçə əsrlərin yadigarı olsalar da həmişə cavan görünərdilər. Buranın havası çox təmiz, qışda isti, yayda sərin olardı. Pirçivan kəndinin adının bu ocaqdan götürülməsi ehtimal olunurdu. Pirin «Pirçivan» və ya «Piricahan» adlandırılması versiyası da var idi. Belə olan halda «Pirçivan» sözünü «Piricavan» və ya «Piricahan» adının deformasiya uğramış forması kimi də qəbul etmək mümkündür. Nəticə etibarı ilə pirin kənddən əvvəl mövcudluğuğnu nəzərə almalıyıq. Pirdəki qəbirləri bir- birindən əllə üst-üstə düzülmüş heç bir vasitə ilə bərkidilməmiş, yarım metr hündürlükdə qaya daşlarından ibarət hasar ayırırdı. Pirçivan, Malatkeşin, Genlik kəndlərindən başqa ətraf yerlərdən də buraya ziyarətə gələr, heyvan kəsər, ehsan verər, qəbirlərin başdaşı tərəfdə qoyulmuş mis camlara nəzir-niyaz qoyardılar. Qəbirlərin başdaşlarında güclə seziləcək işarələr vardı. Zəngilanda ərəb və fars dillərində oxuyub yazmağı bacaran köhnə kişilərin olmasına baxmayaraq, heç kim sovet xofundan ehtiyatlanaraq «ağrımaz başına dəsmal çalmaq» istəmir, bu yazılara aydınlıq gətirməkdən çəkinirdi. Pirə ziyarətə gələnləri təqib gözləyirdisə, köhnə kişiləri də qınamaq olmazdı. İki adamdan biri geri qayıtmayan Böyük Vətən Müharibəsi illərində və sonrakı dövrdə də bura pənah gətirənlərin sayı daha çox olmuşdu. Rayondakı digər pirlər və seyid ocaqları ilə yanaşı Pirçivan piri də xalqın əsl inanc yeri idi. Zəngilanda xüsusən də onun mərkəzi Pirçivanda buranın sakinləri həmişə təmizliyi, qanuna hörmətlə yanaşmağı, ona əməl etməyi ilə seçiliblər. Sovet dönəmi illərində belə bir deyim vardı:

«Moskvada qanunlar sanki, zəngilanlılar üçün yazılıb.» Hər gün səhər-səhər işə gedəndə, axşam evə qayıdanda gözü Məscidə və Pirçivan pirinə dikilən insanlar başqa cür ola bilməzdi.

Pirin sağ tərəf ətəyindəki geniş düzənliyə «Dəvə geneyi» deyirdilər. Pirçivanın Qıraq Müşlan kəndinə yaxın sərhəddindəki «Təbrizli qışlağı» adlı böyük bir düzənlik vardı. Eynu ilə «dəvə güneyi»ni xatırladan bu ərazi üç tərəfdən hündür dağlarla əhatə olunmuşdu. 60-cı illərin ortalarında burada rayon İpək idarəsi tikildi. Hər iki ərazi soyuq vaxtlarda küləkdən çovğundan qorunmaq baxımından çox əlverişli idi. Vaxtılə İrandan (Cənubi Azərbaycan), Ərəbsitandan dəvə ilə gəlib-gedən tacirlər, ziyərətgaha gedən zəvvarlar günlərlə burada düşərgə salarmışlar. «Dəvə güneyi» və «Təbtizli qışlağı» adları da o zamanlardan yaranıb.

Yerli əhali özlərinə ev-eşik tikmək üçün hər iki ərazidəki yatımlı təbii dağ daşlarından istifadə edərdilər. «Dəvə güneyində» və «Təbrizli qışlağı»nda tez-tez ilan sürülərinə rastt gəlinərdi. Yaşlı adamlar bunu həmin yerlərdə qədim zamanlarda gizlədilmiş qızıllarla, ilanların isə qızıla hərisliyi ilə əlaqələndirirdilər. 50-ci illərin ortalarından Pirçivandakı M.C.Bağırov adına koxozda sədr işləyən Qıraq Müşlanlı Cəfərov Məmiş Alı oğlu axşam tərəfi atla həmin ərazidən evlərinə qayıdarkən at qəflətən hürkür, ayaqların yerə döyür. Məmiş kişi aşağı baxanda onun gözünə yolun ortasında üç-dörd metr uzunluğunda yoğun bir tir sataşır. Tirin hərəkət edərək yavaş-yavaş yolun aşağı hissəsindəki mağala tərəf süründüyünü görəndə vahiməyə düşür, özünü bir təhər ələ alaraq evlərinə çatsa da bu nəhəng ilanın zəhmindən bir ay yorğan-döşəkdə yatmalı olur. Bununla yanaşı daş qazıb çıxararkən içi qızılla dolu küpə tapanlar da vardı. Bunu dövlətdən və el-obadan gizlətsələr də, onların dəbdəbəli, əvvəlki kasıblığından əsər-əlamət qalmayan sonrakı həyat tərzləri deyilənləri təsdiq edirdi.

Belə bir xəzinənin Pirçivan pirində də olduğu nu güman edən mənfur qonşularımız (Kafan erməniləri-hay-Ə.S) 80-ci illərin əvvələrində qaranlıq bir gecədə buradakı qəbirlərin altını-üstünə çevirmişdilər. Təəssüf ki, «xalqlar dostluğnu», «beynəlmiləlçiliyi»

rəhbər tutanlar inanc, iman yerimizə sataşan, onu uçurdub bərbad hala salanlar barədə heç bir ölçü götürmədilər.

Pirçivan piri ilə bağlı şahidi olduğum iki hadisə barədə söhbət açmaq istəyirəm.

1959-60- cı illər olardı. Orta məktəbdən, dərsdən evə qayıdırdım. Evimizə əlli metr qalmış «Məscid düzü»ndə yüzə yaxın adamıın maraqla Pirə tərəf baxdığını gördüm. Adi gözlə aydın görünsədə bəziləri pirə toplanmış xeyli dağ keçisi və ceyranları binokulla sey edirdi. Onların haradan və necə gəldikləri hamıya qaranlıq idi. Bir neçə saat heç kəs evinə getmədi sakitcə bu möcüzəyə tamaşadan ayrılmaq istəmədi. Cammatın arasından iki nəfər yaxınlıqdakı evlərdən qoşalülə tüfəngi götürüb, ov məqsədilə pirə tərəf getmək istədilər. Təxminən bir kilometrlik məsafədən bunu hiss edən heyvanlar hamının gözü qarşısında qeybə çəkildilər. Bu elə bir surətlə baş verdi ki, heç kəs onların hara getdiyini görmədi.

Ikinci hadisə 1963- cü ildə baş vermişdi. Məlikli kəndində yaşayan böyük bacım, qonşuluğumuzdakı ortancıl bacım və böyük qardaşımın yoldaşı uşaqları ilə pirə gedirdilər. Pirə maşın yolu olmadığından 150-200 metr hündürlkdə dağ yolunu piyada çıxmaq lazım gəlirdi. Orada su olmadığından, suyu, ərzağı, qab-qacağı, süfrə, palaz və s. yerinə çatdırmaq üçün mənim də köməyinə ehtiyac vardı. İki saat olardı ki, pirdə idik. Artıq yemək hazır idi. Bayaqdan palazların üstündə oynayan, atılıb-düşən bacım uşaqlarından biri qışqırdı:

-Dayı palazın altında nə isə tərpənir! Hamımız heyrətə gəldik. Doğrudanda palazın altından bir neşə qara ilan sürünərək daşların arasında gözdən itdilər. Şübhəsiz ki, uşaqlar onları ayaqlamışdılar. Adətən bu vaxtlarda ilanlar acıqlı olduqlaırndan sancmalı idilər. Lakin, pirin kəramətindən ilanlar heç kimə zərər yetirmədən sakitcə şütüyərək, öz yuvalarına çəkildilər.

## Xanazır piri

Bu inac yeri Bartaz kəndi ərazisində olsa da, kənddən xeyli aralıda uca dağlar arasında yaşıllıqlara qərq olmuş şəfalı yaylaqda yerləşirdi. Deyilənlərə görə Xanazır piri Ordubad rayonundakı Buğukər piri ilə çox əlaqəlidir. Xanazır pirinin nisbətən hündür, sel-su tutmayan yerində bir türbə inşa edilmişdi. Türbənin içərisindəki qəbirdə orada uyuyanın kimliyi ilə bağlı məlumat baş daşında həkk olunmuşdu. Türbədən 20-25 mert aşağı hissədə buz kimi sərin bulaq, onun ətrafında isə bir neçə iri xar tut ağacları vardı. Mövsüm vaxtı onun iri, həm də çox dadlı meyvələri olurdu. Bulağın sağ tərəfində ziyarətə gəlib gecələyən qadın və kişilər üçün ayrı-ayrılıqda geniş otaqlar tikilmişdi. Otaqlarda kifayət qədər yorğan-döşək, samovar, çaynik, stəkan-nəlbəki və s. vardı.

Bu pirə Azərbaycanla yanaşı Ermənistandan, hətta vaxtılə İrandan xeyli zəvvarlar gəlirmişlər. Əvvəllər pirdə səliqə-səhman, qayda-qanun yaradan mücəvir də olmuşdu, onun başına oyun açanlar da.

1980-1990-cı illər ərzində ailəm və yaxın qohumlarımla üç dəfə bu piri ziyarət etmişəm. Burada xüsusi bəslənmiş üç qoç nəzir deyib, kəsdirmişəm.

Pirlə bağlı gördüklərimi və eşitdiklərimi sizlərə çatdırıram.

Sovet hakimiyəti illərində yaxınlıqdakı sərhəd zastavasından rus millətindən olan iki zabit pirə gəlirlər. Onların məqsədi buradakı sərin bulağın üstündə yeyib-içmək, istirahət etmək olur. Spirtli içkidən o ki, var qəbul edən zabitlər buradakı xar tutun da dadına baxmağı unutmurlar. Axşamüstü zastavaya qayıdarkən tutun bir neçə iri, meyvə ilə dolu qanadını da kəsib özləri ilə aparırlar. Lakin, onlar xidmət hissəsinə yetə bilmirlər, hər ikisi dəmiryolunu keçərkən qatarın altına düşüb həlak olurlar.

Yuxarıda qeyd etmişdim ki, bu ocağın mücəviri də olub. Mən orta məktəbdə oxuyanda dərsə gedib gələndə həmin nurlu, imanlı kişini bir neçə dəfə görmüşdüm. Onu həbs etmişdilər. Milis şöbəsinin həyəti küçə tərəfindən hasarlanmadığından orada hamı

sanki çöldə idi. Həmin kişi həmişə həyətdəki iydə ağacının altında oturardı. Böyüklərimiz deyirdilər ki, mücəvir pirə yığılan nəzir- niyazın müəyyən hisəsini ora sərf etsə də, qalanların gətirib dövlətə verib. Elə bundan sonra da onun təqibli və qara günləri başlayıb. Kişini yaxından tanıyan onun namuslu və təmiz adam olduğunu bilənlər isə onu qınayıblar. Axı, sənə kim deyirdi ki, bu pulları əmanət kasasasına köçürt, özün öz başına əngəl aç. Bir müddət sonra kişini azad etdilər. Pirdəki geniş otaqları isə «26 Bakı komissar» adına kolxozun mal tövləsinə çevirdilər.

Yaşlı nəslin (onlardan sağ qalanları çoxdu) şahidi olduğu ibratəmiz bir hadisə baş verdi. Mücəviri nahaqdan tutduranların özünü uzun muddətli həbsə məhkum etdilər. Bir neçə il sonra rayon prokuroru və daxili işlər şöbəsi rəisinin günahsız oğlanları maşın qəzası nəticəsində həlak oldular. Allah heç kəsə göstərməsin.

## Cinli bağı

Bu bağ Pirçivan kəndində rayon mərkəzinə elektrik enerjisi vermək üçün tikilən elektrik stansiyasının və onun yanındakı su dəyirmanının ətrafından başlayaraq üzü aşağı iki kilometr üzunluğunda yüz əlli, iki yüz metr enində zolaq şəklində böyük bir ərazini təçkil edirdi.

Elekrtik generatorunu və su dəyirmanını işə salmaq üçün Oxçuçayın köhnə Pirçivan ərazisindən ayrılan kanal (hamı onu «qobu» adlandırırdı) həmin bağların ərazisindən keçirdi. Kanalın suyundan fərdi evlərdə bağ-bostan, həm də çəltik becərilməsi, sonralar isə kolxoza məxsus pambıqçılıq təsərrüfatının suvarılmasında geniş istifadə olunurdu.

Cinli bağ əslində üç hissəyə ayrılırdı. Generatorun yanından başlayan, rayon mərkəzinə çıxan yolda tamamlanan ən böyük hissə Xanağa bağı adlanırdı. Ulu babam Xanağa burada gözəl, mer-meyvəli bağ salmaqla yanaşı, öz adını daşıyan uzun müddət rayon mərkəzinin yeganı içməli suyu olan «Xanağa bulağı»nı da inşa etmişdi. Xanağa bulağına onun nəticəsi, mənim atam «Kəri-

min bağı» deyənlər daha çox idi. Bağda hər cür meyvə bitmişdi. Lakin bağı məhşur edən onun suyu ilə yanaşı uca boylu, dadlı meyvəli armud ağacı idi. Bu armud dərildikdən sonra beş-altı ay qalırdı. «Xanağa buluağı»na yaxın olan qıraq hissədə, çox da böyük olmayan ərazidə atamın qohumu Səmədin sahəsi olub. Onun kiçik oğlu Qəbil və nəvəsi Aslanov Şəmil 60-–cı illərdən sonra burada özlərinə yaxşı ev tikmişdilər.

Cinli bağın ikinci, rayona girişin sol tərəf hissəsi «Yaqub oğlu Həsənin bağı» adlanırdı. Bağda xeyli meyvə ağacları olsa da onu məhşur edən çox böyük qoz ağacı idi. Pirçivanlılar bu ərazini «Həsənin bağı», «Həsənin cəvizi» adlandırırdılar. Bağın aşağı sol hissəsində köhnə dəyirmanın kalafaları altmışıncı illərin ortalarınadək qalırdı. «Cinli bağın» qurtaracağı isə «Simanverdinin bağı» adlanırdı. Simanverdinin bağına sonrakı nəsil onun oğlunun adı ilə «Simanverdioğlu Məhəmmədin bağı da» deyirdilər. Simanverdinin nəvəsi Cabbar İmamverdiyev hazırda Sumqayıt şəhərində yaşayır. Bu bağın da əsas «emblemi» gilas ağacları sayılırdı. Hər üç bağ sonralar vətəndaşlara verildi. Şəxsi həyətyanı sahəsi olmaqla ərazidə yüzlərlə fərdi evlər tikildi. Lakin çoxları buraların vaxtı ilə kimlərə məxsus olduğunu da bilmədilər. Bağlardakı meyvələrin bəzisinin daha da məhşurluğunu xüsusi vurğulamağım isə o vaxtkı cavanların bu bağlarda ancaq həmin ağacların meyvələrini oğurlamaqları ilə bağlıdı.

Bu ərazidə cinlərin, hal arvadlarının gözə görünmələri ilə bağlı bir neçə maraqlı hadisələri (bəlkə də qarabasmaları) sizlərə çatdırıam.

Əllinci illərin əvvəllərində özümdən yaşca böyüklərin arxasınca düşüb, bu bağları ələk-fələk eləmişik. Cavanlar mövsüm vaxtı bağlardan çırpışdırdıqları gilas, armud, qoz, alma, üzüm və s. meyvələrdən mənə də böyük məmuniyyətlə pay ayırardılar. Əslində oğurluq bizim bağ və bostandan olardı. Hiss edirdim ki, onlar bağın bəzi yerlərinə getməkdən çəkinirdilər. Bu əsasən Səməd kişiyə məxsus, tut ağaclarından ibarət kol-kos basmış əraziyə aid idi. Qobuya tərəf isə heç böyüklər də yaxınlaşmaq istəmirdiəlr.

Burada tut, böyürtkən, qara üzüm və cır armud bolluq təşkil etsə də, heç kim bu müftə meyvələrdən dadmağı özünə rəva bilmirdi. Bağın günün günorta çağı da müəyən yerlərinin qaranlıq olması bir sıra söz-söhbətlər yaratmışdı.

Müharibə illərində axşamlar toran düşəndən sonra naməlum bir varlığın burada peyda olması, insan səsinə bənzər iniltilər çıxarması, «Xanağa bulağı»ndan gecələri çməli su götürmək istəyənləri vahiməyə salırmış. Artıq bu qorxunc varlığın səsi çeşmənin üst hissəsindəki qalın, keçilməz kol-kosun arasından gəlməyə başlayıb. Rayon rəhbərliyinə də bu barədə məlumat verilib. Məsləhət-məşvərətdən sonra Böyük Vətən Müharibəsindən yenicə qayıtmış, Milis şöbəsində təzəcə əmək fəaliyyətinə başlayan uca boylu, pəhləvan cüssəli, heç nədən qorxmayan gənc milis nəfəri (sonralar starşina oldu) Ədil Kərimov gecələrin birində silahla əraziyə gedir, naməlum varlığın üzünü görməsə də həmin anda onun gizləndiyi və inilti çıxardığı yeri atəşə tutur. Həmin canlı varlıq qışqıraraq kol-kosu yarır və çəltik əkilən sahəyə qaçır (bu ərazidə sonralar rayonun əsas idman qurğusu olan, S.Vurğun adına stadion tikildi). Bu hadisədən Ədil Kərimov xeyli həyəcanlanır, bir neçə gün işə çıxa bilmir. Lakin həmin qorxunc varlıq bir daha orada görünmür. «Xanağa bulağı»ndan dörd-beş yüz mert aşağı hissədə, köhnə dəyirmanın kalafaları olan ərazidəki tut bağlarının qalın, kol-kos basmış, keçilməz hissəsində cin və hal arvadının yaşaması barədə çoxlu əfsanələr danışılırdı.

Qapı bir qonşumuz Məmmədcəfər dayının və Sayad xalanın oğlu Ramazanı güclə xatırlayıram. (Ramazan uzun müddət taksi sürücüsü işləyən, hazırda Bakı şəhərində müvəqəti məskunlaşan Ağayev Humay Abasqulu oğlunun dayısıdır.) Çünki o, dünyasını dəyişəndə mənim beş və ya altı yaşım olardı. O, əlil idi deyirdilər ki, özünü qatarın altına atıb. Hansı səbəbdən? Bunu sonralar eşitdim. Məhəlləmizdə hamı barama becərirdi. Barama qurdunun da əsas yemi tut yarpağıdır. Ramazangilnin köhnə dəyirmanın kalafaları olan ərazidə geniş tut bağları var idi. Barama qurdları xiriyə gedəndə (bu zaman onlar xeyli böyümüş olurlar və baramanı hör-

məyə hazırlaşırlar) adətən onu yemləyərkən tut şaxlarını bir metr uzunluğunda kəsərək onların üzərinə qoyurlar. Qurdları ya səhər-səhər, ya da axşam tərəfləri yemləyirlər. Yarpaq büzüşməsin deyə onu yemləmə vaxtına az qalmış qırırlar. Valideynlərinə kömək edən Ramazan ala-torandan tut yarpağı qırmaq üçün təkcə bağa gedir (atası müharibə əlili idi) Ağaca çıxır, dəhrə ilə tut şaxların qırarkən ağacın dibində kimi isə görür. Diqqətlə baxır ki, anası Sayad arvaddır. Oradan dillənir ki, nənə sən niyə gəldin? Burda nə çətinlik var, özüm tez qırıb gətirəcəm. Nənəsi (bizdə anaya nənə deyirdilər) də deyir ki, bala gəldim ki, kömək eləyim və həmin anda yoxa çıxır. Ağacdan aşağı düşən Ramazan nə qədər anasını çağırsa da, axtarsa da onu tapa bilmir. Yarpaqları şəllənərək evə qayıdanda anasını və atasını yatmış görür. Onları sorğu-suala tutanda anası and içir ki, bala mən axşamdan yatdığımdır, orada olmamışam. Ramazan bundan sonra ruhi sarsıntı keçirir. Onu Bakıya müalicəyə aparanda qatar gedə -gedə özünü onun altına atır. Sağ qalsa da əlil olur

Bir müddət keçməmiş vəfat edir. Hazırda Zəngilan rayon Uşaq Yaradıcılq Mərkəzinin direktoru işləyən Hikmət Allahverdi oğlu Hüseynov da bu bağla əlaqədar başına gələn bir hadisəni belə danışır.

-Nə atam, nə də anam kolxozda işləmirdi. Buna baxmayaraq dövrün tələbinə uyğun olaraq bizim evə də zorla bir qutu barama qurdu vermişdilər. Əlli ildən artıq bir vaxt keçsə də həmin hadisəni unuda bilmirəm. Barama qurdunu yemləmək üçün bizə «Cinli bağ» adlanan ərazidən tut bağı ayırmışdılar. Bağdakı tutlardan yemək üçün səhərin gözü aşılmadan valideynlərimin arxasınca düşüb ora getmişdim. Onlar tut yarpağı qırır, mən isə bir az aralıdakı qonur tutdan yetişərək dibinə tökülmüş bal kimi şirin meyvəsindən yeyirdim. Birdən anamın məni çağırdığını eşitdim. Səs əks istiqamətdən gəlirdi. Üzü başqa səmtə, kürəyi mənə tərəf ayaq üstə dayanmış anam sifətini çevirəndə onun tanımadığım adam olduğunu gördüm. Səs eyni ilə anamın səsinə bənzəsə də, görkəmi tamam başqa cür və yarı çılpaq, süd vəziləri həddən zi-

yadə böyük, çiyninə atılmış vəziyyətdə idi. Qorxudan qışqıraraq anamgilin yanına qaçdım. Anam Fatma tədbirli, həm də ayıq adam olduğundan məni ovundurmağa başladı:

-Görürsən ki, mən də buradayam, atan da. Qəqin səni qara basıb.

O zaman altı-yeddi yaşım olsa da, sonralar yəqin etdim ki, məni qara basmayıb. Məhəlləmizdəki Fərrux dayı ilə İldırxan dayı bu ərazidə böyürtkən yeyərkən köhnə dəyirmanın yanındakı qobuda kolluqların arasında bir qadının çimdiyini görürlər. Onun qonşuluqdakı Suqra xala olduğunu zənn edirlər. Qadın səmtini Fərrux dayıya tərəf çevirəndə onlar çimənin başqa bir varlıq olduğunu bilib, sürətlə oradan uzaqlaşırlar. Mənim və onların qarşılaşdığı hadisələri bir –birindən on beş-iyirmi illik bir dövr ayırırdı.

## Zalxa nənə

Adı Züleyxa olsa da hamı ona Zalxa nənə deyərmiş. Vənətli kəndində dünyaya göz açan Zalxa nənə yüz ildən artıq ömür sürüb. Oğlu Hüseyn, nəvələri Rəşid, Novruz, Rasim, Aydın məhkəmə, prokurorluq, və daxili işlər orqanlarnda rəhbər vəxzifələrdə çalışıblar. Təəssüf ki, ömür yolları çox uzun olmayıb.

Zalxa nənə bölgədə türkəçarə təbib, bacarıqlı mamaça kimi şöhrət qazanıb. O, Qaçaq Nəbinin anası ilə rəfiqə olub. Bir dəfə Gorus qazamatından qaçan Nəbi Ağalı yaylağında istirahət edən Zalxa nənəgilin alaçılığında gizlənib. Zalxa nənə həmişə üzərində (daha doğrusu tumanının altında) mauzer markalı tapança gəzdirərmiş.

Pirçivan kənd sakini, 1984- cü ilin oktyabr ayında 98 yaşında dünyasını tərk edən Gülüş dayı ( Məmmədov Gülüş Dərgah oğlu) Zalxa nənə haqqında aşağıdakıları danışırdı. Gözümü açanda Zalxa nənəni zabitəli bir xanım kimi tanımışdım. Onun yanına şəfa tapmaq üçün gələnlərin sayı çox olardı. Hərəkəti çətin olan xəstələri müalicə etmək üçün isə özü xəstələrə baş çəkərdi.

Bir dəfə cinlər gecə Zalxa nənənin yaşadığı evin bacasından onu səsləyirlər ki, geyin-kecin bizimlə gedək, ağırayaqlımız var,

azad ola bilmir. Əgər oğlan olsa səni dünya malından qane edəcəyik, qız olsa özün öz çarəni qıl! Zalxa nənə bir söz demədən şey-şüyünü yığışdıranda ora bir az da arı mumu əlavə edir. Doğuş zamanı körpənin qız uşağı olduğunu görən Zalxa nənə özü ilə götürdüyü mumu müəyyən formaya salaraq, gizlincə körpənin lazım olan yerinə yapışdırır. Cinlər onu hörmətlə yola salaraq, belinə bağladığı qurşağının altına xeyli soğan qabığı yığırlar. Zalxa nənə evlərinin yanına çatanda qurşağını açaraq soğan qabığını oradakı küllüyə çırpır. Gecə yuxusuz olduğundan səhər gec durur. Gözü qurşağının yanındakı üç-dörd qızıla sataşır. Başa düşür ki, soğan qabığı zənn edib küllüyə boşaltdığı qızıl imiş. Ayağa qalxaraq küllüyə baş çəksə də orada heçnə tapa bilmir.

Gecə vaxtı Zalxa nənəni yenə bacadan səsləyirlər. «Fırıldaqçı! Tez ol qızılları qaytar.» Zalxa nənə onların əl çəkməyəcəyini bilib, bacaya tərəf bir atəş açır, cinlər pərən-pərən olur, bir daha onu narahat etmirlər.

Gülüş dayının Zalxa nənə haqqında söylədiyi digər bir hadisə də maraqlıdır.

Zalxa nənə vaxtı ilə hal arvadını qulluqçu kimi saxlayırmış. Hala paltar geydirib, üstünə də iynə sancıbmış. Hal arvadı iynədən qorxduğundan Zalxa nənənin bütün tapşırıqlarını sözsüz yerinə yetirərmiş. Lakin hal arvadını görəcəyi işələri tərsinə demək lazım imiş. «Qapını ört» deyəndə açar, «aç» deyəndə örtərmiş. «Həyəti süpür» deyəndə zibilləyər, «Zibillə» deyəndə tər-təmiz süpürərmiş Zalxa nənə çörək bişirmək üçün hal arvadın əllərini təmiz yumağa vadar edərmiş. Hal arvadının yoğurduğu xəmir, başqalarının yoğrurduğundan beş-altı dəfə bərəkətli olarmış. Zalxa nənə bundan şübhələnir, gizlincə göz qoyur. Baxır ki, hal arvadı xəmiri yoğurarkın onun içərisinə su əvəzinə natəmiz şey qatır. Bundan sonra o halın üstündəki iynəni çıxarmadan ona and içdirir ki, gələcəkdə Zalxa nənənin yeddi arxa dönənləri ilə heç bir işi olmayacaq və onu azad edir.

Zəngilanın Hacallı sovetliyində su dəyirmanının ətrafında tut bağları ilə bitişik cəzirəlikdə də cinlərin, hal arvadlarının yaşa-

dıqları barədə rəvayətlər (bəlkədə reallıqlar) mövcuddur. Burada da tut bağlarının, cəzirəliyin günün-günorta çağında qaranlıq və vahiməli olduğu təsdiqlənir. Qorxudan cəzirəliyə heç kəs ayaq basa bilməzmiş. Hətta bir dəfə qətlə yetirilmiş şəxsin cənazəsini izi itirmək üçün həmin ərazidə gizlədiblər. Bir cəhət diqqəti daha çox cəlb edir. Bəzilərinin inandıqları, çoxunun uydurma hesab etdikləri bu müəmalı varlıqlar (onların nə cür adlandırılmasından asılı olmayaraq) bütün ərazilərdəki yaşadıqları və ya gizləndikləri əsas yerlər su dəyirmanlarının ətrafı, keçiilməz, nisbətən qaranlıq kol-kos, tut bağları və s.cəzirəliklərdir. Gözə görünən varlıqlar adətən iki cür təsvir olunurlar, ya kiminsə cildinə girmiş formada, ya da çılpaq, süd vəziləri həddindən artıq böyük, çiyinlərinə atılmış (qadın) vəziyyətində. Birinci vəziyyət adətən özləri insanlarla söhbət etmək istəyərkən onların yaxın adamlarının görkəmini alırlar. Özlərinin xəbəri olmadan onları görəndə ikinci halda yadda qalırlar.

Ötən əsrin altmışı-–həşdadıncı illərindən etibarən Zəngilanda abadlıq işləri geniş vüsət almağa başladı. Yeni-yeni mədəni-maarif müəssisələri, məktəblər, səhiyyə ocaqları tikildi, yollar salındı, müasir binalar, fərdi evlər inşa edilərkən ərazilər kol-kosdan, bataqlıqlardan, cəzirəliklərdən təmizlənərdi. Bütün bunlardan sonra rayon ərazisində bu varlıqlar heç kimin gözünə görünmədi. Onlar haqqında söz-öhbətlər ancaq keçmiş zamana aid edildi.

# V FƏSİL
# TƏBRİKLƏR

2022-ci ilin ilk günündə 01 yanvarında Asif müəllimin 75 yaşı tamam oldu. Bu münasibətlə sosial şəbəkədə onun haqqında təbriklər yazıldı ürək sözləri söyləndi, xoş günlər arzulandı. Bunlar çox səmimi, ürəkdən gələn ifadələrdi. Bunu da kitabımızın sonunda sizlərə çatdırmağı özümə borc bildim.

## Qışın soyuğunda doğulan isti ürək

Hər bir millətin mövcudluğu və mənəvi inkişafı onun ziyalılarının nisbətindən asılıdır. Ziyalı mənsub olduğu millətin simasını müəyyənləşdirən şəxsiyyətdir. Tarix göstərir ki, millətin çətin anlarında onun mükəmməl milli təəssübkeşlik duyğularına malik ziyalısı millətə düzgün yol göstərib onun bu çətinlikdən xilas olmasında böyük rol oynayır.

Xalqın içərisindən çıxıb ona xidmət göstərmək istəyən ziyalı üçün fəaliyyət dairəsi məhdud olmur.

Bu cür dəyərli ziyalılarımızdan biri də Asif Bağırovdur.

Bağırov Asif Kərim oğlu 1947-ci il yanvar ayının 1-də soyuq bir qış günündə o vaxtkı Pirçivan kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra o vaxtkı V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun tarix fakültəsini, eyni zamanda Zaqafqaziya ikiillik Komsomol məktəbini bitirmişdir. Bir neçə il Mədəniyyət şöbəsində çalışmışdır. Ondan sonra 20 ilə yaxın Rayon Pionerlər evinə rəhbərlik etmişdir. Həmin dövrdə bir çox yetirmələri olmuşdur. Mədəniyyət şöbəsində işləyənlərin bir çoxu demək olar ki, Asif müəllimin yetirmələri olmuşdur.

1983-cü ildə Asif müəllimin rəhbərliyi ilə rayonumuzdan 20-ə yaxın uşaq o vaxtkı Lenin, indiki Tofiq Bəhrəmov adına stadionda keçirilən Respublika Mahni və Rəqs bayramında çıxış

etmək üçün Bakı şəhərinə gətirilmişdir. Buna görə o vaxtkı maarif naziri Elmira Qafarova tərəfindən Respublika Maarif nazirinin Fəxri Fərmanı ilə təltif olunmuşdur. Ondan əvvəl Asif Bağırov Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin Fəxri Fərmanı ilə də təltif olunmuşdur. Bundan əlavə rayon müəllimlərinin ağsaqqallar şurasının sədri olmuşdur.

1992-ci ildə müharibənin qızğın dövründə yaranan təhlükələrə, çətinliklərə baxmayaraq Asif müəllim bir neçə hərbi hissələrə şəxsi vəsaiti ilə əsgərlərə yardımlar etmişdir. Əsgərlərimiz onu özlərinə əmi-dayı bilmişdir. O məşəqqətli günlərdə rayonumuzun Qazançı, Ağkənd, Dərəli və başqa kəndlərində, camaatımızın yaxşı və pis günlərində yanlarında olmuşdur.

Rayonumuz işğal olunduqdan sonra o da hər bir həmyerlimiz kimi Bakı şəhərinə pənah gətirmişdir.

Asif Bağırov uzun illər müxtəlif rəhbər vəzifələrdə (Kino idarəsində direktor, Rayon İcra Hakimiyyətində məsləhətçi, Rayon Təhsil şöbəsində inspektor) çalışıb.

Yüzlərlə publisistik məqalənin və «Doğma yurda qayıtmaq istəyinə boy verən Zəngilan lətifələri» kitabının müəllifidir. Asif Bağırov onlarla kitaba ön söz yazmış, redaktorluq etmişdir. O Zəngilanın canlı ensiklopediyalarından biridir.

2015-ci ilin yanvar ayından dövlət qulluğu təqaüdündə olan Asif müəllim Ağsaqqallar şürasının sədr müavini kimi mühüm tədbirlərdə iştirak edir və yaradıcılığını davam etdirir.

Ailəlidir: 2 qızı, 1 oğlu, 6 nəvəsi vardır.

Asif müəllimi doğum günü münasibəti ilə təbrik edir, yeni-yeni yaradıcılıq uğurları və Zəngilanlı günlər arzu edirik.

**Xəyyam Əliyev**

## Təbriklər

Mən elimin dəyərli ağsaqqalı haqda çox şey deyə bilərəm. Belə ki, lap gəng yaşlarından Asif müəllimi tanıyıram. Rayon camaatı dağlara köç gedəndə Asif müəllim, Salam Cavadlı həmişə

bizimlə bir yurda düşürdülər. Çox bəmazə, uşaqla uşaq kimi, böyüklərlə böyük kimi davranardı. Asif müəllim, Allah can sağlığı versin, qalan ömrünü vətənində, Zəngilanda yaşasın.

**Yavər Həsənov.**

Asif müəllim Rəbbim xeyirli ömür versin. AAAMİİİN.

**Elşən Abdullayev**

Təbrik edirəm qardaşımı, ona sağlıqlı ömür arzulayıram.

**Dilşad Həsənova**

Asif müəllim, əziz kirvəcan, Mahir müəllim məninm yazmaq istədiklərimi, başqa sözlə ürəyimdən keçənləri haradansa öyrənib yazıb. Onun yazdıqların mənim sözlərim kimi qəbul edin. Allah sizi qorusun, sağlam və gümrah olun. Zəngilanın girişində dostumuz Dağbəyinin kababxanası bizi gözləyir.

**Salam Cavadlı**.

Asif müəllim sizə sağlıqlı yaşayış arzu edirəm. Siz çox gözəl insan və gözəl pedaqoqsunuz. Allah sizi qorusun.

**Nəsibə Həsənova**

Gözəl insan, gözəl müəllim, gözəl musiqiçi olan Asif müəllimə can sağlığı, uzun ömür arzulayıram. Yaşa, yüz yaşa.

**Şirin Həsənov.**

Gözəl insan, dəyərli qohum Allahdan sizə can sağlığı, gözəl günlər arzu edirəm.

**Zeynal Hacıyev**.

Təbrik edirəm uzun sağlıqlı xöşbəxt bir ömür arzulayıram. Allah qorusun.

**Ələddin Muradxanoğlu.**

Asif müəllim, Zəngilanın ən dəyərli ziyalılarından biridir. O öz həyatı və fəaliyyəti ilə özünə böyük hörmət qazanmışdır. Allah ona uzun illər Zəngilanlı günlər qismət eləsin.

**Hüseyn Novruzov.**

Təbrik edirəm böyük ürəyə sahib insan. Zəngilan elimizin xoş şənliklərinin aparıcı insanı kimi daima ürəklərdə yaşayırsan. Allah sizi qorusun.

**Yaşar Səfiyev**

Asif müəllimin şəxsiyyərtinə mənim də xüsusi hörmətim var. Mən də ad günü münasibəti ilə Asif müəllimi təbrik edirəm, ona sağlamcanlı ömür arzu edirəm. Allah qismət eləsin Zəngilanda görüşək.

**Firudin Hüseynov.**

Asif müəllim səmimi qəlbdən təbrik edirəm. Uzun sağlam həyat arzulayıram.

**Cümşüd Məmmədov.**

Təbrik edirəm sizə uzun sağlam ömür arzulayıram. Yeni yaşın yeni iliniz mübarək.

**Zöhrə Rəhimova.**

Asif müəllim gerçəkdən saf, təmiz insandır. Hər kəsin,, hər şeyin yerini bilən, real qiymətini verən insandır. Dostluqda da səmimidir. İllərlə bir təşkilatda yanaşı işlədik. Hər zaman xeyirxah məsləhətləri ilə seçilən biri oldu. Haqqı nahaqqa vermədi. Təbrik edirəm əzizim. Allah səni qorusun,. Bizlər səni çox istədik, bu gün də elədir.

**Cəbrayıl Şıxəliyev.**

Hörmətli xətrini qardaşım qədər istədiyim Asif müəllimş doğum günün mubarək. Sağlıqlı ömür, Zəngilanlı günlər arzu edirəm.

**Elmira Əhmədova**.

Təbrik edirəm. Möhkəm cansağlığı, uzun ömür arzulayıram Bayramınız mübarək. Xöşbəxt olun.

**Alı Əliyev.**

Möhkəm cansağlığı arzu edirəm. Nəslimizin ağsaqqalına.

**Anar Həsənov**.

Elimizin-obamızın ağsaqqalı, xeyir işlərimizin yaraşığı, nəğməli, şirin sözlü-söhbətli, Zəngilanımızın canlı ensiklopediyası, dağdan ağır kişi və sözsüz ki, əzizimiz Asif Bağırovu ürəkdən təbrik edirəm! Hər yeni ildə məhz ilk təbrikimi bu xeyirxah insana ünvanlamaqdan qürur duyuram.

**Mahir Cavadlı.**

Çox hörmət bəslədiyim dəyərli Zəngilan ağsaqqallarından olan Asif müəllimə sağlam ömür diləyərək ən xoş arazularımı bildirirəm.

**Əlağa Mirişoğlu.**

Təbrik edirəm, cansağlığı arzu edirəm, gözəl insan, Allah ömür versin.

**Abbas Səmədov.**

Hörmətli və dəyərli Asif müəllim!! Doğum gününüz mübarək!!! Allah sağlam, bərəkətli, hüzurlu ömür nəsib eləsin!!

**Gülşən Qocayeva**

Asif müəllim həm ad gününü, həm də yeni ilini ürəkdən təbrik edib xoş arzularımı bildirirəm! 2022-ci il Sizin üçün düşərli olsun.

**Bəhribar Bəşirzadə**

Hörmətli Asif müəllimi ürəkdən təbrik edirəm, ona can sağlığı, zəngilanlı günlər arzulayıram. Dəyərli, cox alicənab, qayğıkeş insan, vicdanlı, ciddi rəhbər işçi kimi hər zaman xatırladığımız

çox hörmətli Asif müəlim, sizi salamlayır, xoş arzularımı göndərirəm. 100 yaşayın.

**Tərlan Əliyeva.**

Allah ömür versin, Zəngilanda Qarabağ mahnısını ifa etsin.

**Mədinə Hüseynova**

Asif müəllimi təbrik edirik! Allah möhkəm can sağlığı, xeyirli, bərəkətli ömür nəsib etsin.

**Samirə Abasəliyeva.**

Asif müəllimi ürəkdən təbrik edib, həyatda əsas olan sağlam cansağlığı, uzun ömür arzulayıram. 100 yaşasın. Gözəl insan. Layiqli ağsaqqal sizə Zəngilanlı günəlr arzulayıram.

**İman Məmmədov**

Hörmətli Asif müəllim! Yeni iliniz və ad gününüz mübarək. Həmişə gülərüzlü, xoş övqatlı, sağlam ömürlü olmaqla ailənizlə, övladlarınızla, nəvələrinizlə istəklilərinizlə bir yerdə ömür sürəsiniz. Siz bizim istəkli əmimiz, başımızın tacısınız. Həmişə sizinlə fəxr etmiş və edirik. Allah sizi bizə çox görməsin. Amin inşəallah.

**Ehtiramla Telbikə, Ağamir, Qızqayıt və Aslan İbrahimovlar. 01.01.2022.**

Təbrik edirəm, var olsun. Tanrı qorusun.

**Arif Sevdimalıyev.**

Hörmətli Asif müəllim, ad günü və yeni il bayramı münasibətiilə sizi ürkdən təbrik edir, ən xoş səmimi arzularımı bildirirəm. Tanrı sizi və sevənlərinizi qorusun. Öpürəm sizi.

**Eldar Eyvazov.**

Asif müəllimi təbrik edirik. Çox dəyərli, çox gözəl insandı. Sizə sakit həyat, gözəl günlər arzu edirik. Allahdan sağlamlıq diləyirik sizə. Gözəl günlər nəsibiniz olsun. Hər zaman övladları-

nızla, nəvələrinizlə gözəl günlər yaşayasınız.

**Mirsadıq Mircəfərli.**

Təbrik edirəm gözəl insanı. Dayım Asif. Can sağlığı və Zəngilana qayıtmağı arzu edirəm.

**Əli Həsənov.**

Təbriklər. 100 yaşasın, sağlam yaşasın. Asif müəllim dəyərli bir insandı.

**Ceyhun Əliyev.**

Asif müəllim doğum gününüz mübarək.

**Mübariz Binnətoğlu.**

Asif müəllim sizi mən də ürəkdən təbrik edirəm.

**Elxan Məmmədyarov.**

Asif qardaşım sənə möhkəm cansağlığı arzulayıram. Möhkəm olun, Zəngilanımıza sizlər çox lazımsınız, çünki sizsiz qalan torpaq, viran olan evlər, kəsilib dağılan meşələr, sizsiz açmıyan, ağlar qalan güllər, itən, şəhid olan oğullar sizi gözləyir....Yazıb-yaratmaq vaxtıdır... Doğrular gözləyir sizi. Odur ki, deyirəm sağlam yaşa, 100 yaşa qardaşım. Aminnn İnşşəallah.

**Çiçək Rüstəmova.**

Asif müəllim, gözə linsan, gözəl dost ad günün mübarək. Allah sizə uzun ömür, can sağlığı versin.

**Malik Hacıyev.**

Allah can sağlığı versin, Asif müəllim, gözəl insan.

**Əbil Bəşirov.**

Təbrik edirəm, Allah sağlam ömür versin.

**İdris Rəhimov.**

Mən də Asif müəllimi ürəkdən təbrik edirəm. Allah can sağlığı versin. 2002-ci ildə bir ildə olsa maarifdə Asif müəllimə bir yerdə işləmişəm. Deyəsən deyirdi, anamla oxuyub, təqribi yadımdadır o söz. Asif müəllim sakit, öz işi ilə məşğul olan, rahat bir insan kimi yadımda qalıb. Ailəsinin üstündən əskik olmasın.

**Sevil Qarayeva.**

100 yaşayın əziz Asif müəllim, əzizlərinizlə birlikdə. Ad gününüz, yeni yaşınız mübarək.

**Ələddin Məmmədov.**

Zəngilanlı günlər arzulayıram. Ad günün mübarək Asif müəllim.

**Rəfiqə Hacıyeva.**

Doğum gününüz mübarək Asif müəllim. Allahdan sizə sağlıqlı uzun ömür və Zəngilanlı günlər arzu edirəm.

**Xəyyam Əliyev.**

Elimizn dəyərli oğlu sözün həqiqi mənasında gözəl şəxsiyyət, bütün insani keyfiyyətləri ilə seçilən, hər birimizin hörmətlə yanaşdığımız insan Asif müəllim.

Təbrik edirəm sizi ailəmiz adından. Allah sizə yetərli can sağlığı nəsib etləsin. Amin İnşəallah Amin. Tanrı sizi öz pənahında saxlasın. Amin. Xəyyam çox sağ olun, var olun belə dəyərli insanlara hörmətiniz, dəyəriniz üçün var olun.

Asif m haqqında nə qədər dəyərli sözlər yazsaq yenə də azdır. Çox hörməli Asif m var olun.

**Orucova Nigar**.

Asif müəllim, ailəmizlə birgə səmimi qəlbdən təbrik edirik.

**Səbirə Ələkbərova.**

Sizi bir daha ad günü münasibətiilə təbrik edirəm, sağlam, uzun ömür və tezliklə hamılıqla Zəngilanda görüşməyi arzulayıram.

**Sahib Zəngilan Pirçivan Bəla**

Atamı ad günü münasibərti ilə təbrik edən çox saylı insanların qarşısında baş əyirəm. Allah sizləri qorusun!

**Ehtiramla Vüqar Bağırov.**

Asif müəllimi Yeni li və ad günü münasiubəti ilə təbrik edir, sağlam həyat, xöş günlər diləyirik. Allah qorusun.

**Gülnarə Kərimova.**

Əziz ağsaqqal Asif müəllim ad günün mübarək. Sizə uzun ömür, can sağlığı arzulayıram. 100 yaşa, sağlam yaşa.

**Zöhrab Ağayev.**

Ad günün münasibəti ilə sizi ürəkdən təbrik edirəm.

**Fəxrəddin Cahangirov.**

Təbrik edirəm sağlam və bərəkətli ömür arzulayıram.

**Muradxan Quliyev.**

Mənim gözəl qardaşım, səmimi dostum, sözü bütöv insan ad günün mübarək. Öpürəm səni. Növbəti ad gününü Kinavda keçirək İnşəallah.

**Nüsrət Zəngilanlı.**

Asif müəllim Zəngilanlıların sevdiyi insanlardan biridir, təbrik edirəm. İnşəalalh qarşıdan gələn növbəti doğumgünlərinizi doğma Zəngilanımızda qeyd edək.

**Hüseyn Hüseynov.**

Tərifə ehtiyacı olmayan el ağsaqqalı, hörmətli Asif müəllimi təbrik edir, ona can sağlığı arzulayıram. Yeni iliniz mübarək olsun.

**Mütəllim Həsənov.**

**Qısaca təbrik edənlər**

1. Abdulla Abdullazadə
2. Aşur Adıgözəlov
3. Ayaz Qocayev
4. Aydın Mönsümov
5. Baqadar İsmayılov
6. Barat Barat
7. Barat Məşioğlu Camalov
8. Bəkir Adıgözəlov
9. Bərxudar Hüseynov
10. Bəşir Hüsüyev
11. Cavanşir Quliyev
12. Cəfərquliyeva Dilarə
13. Cənnət İbrahimov
14. Daşqın Abasov
15. Diyanət Qurbanzadə
16. Əli Sobulu
17. Əliş Əliyev
18. Əliyev Ağa
19. Elmira Cəbrayılova
20. Elnur Quliyev
21. Ənvər Əsədullayev
22. Gül Çiçək
23. Gülnarə Kərimova
24. Gülüstan Orucova
25. Hüseyn Quliyev
26. İlham Mehtiyev
27. İsfəndiyar Allahverdiyev
28. İsmayıl Abbasov
29. Kamal Cümşüdlü
30. Kamran Kamran
31. Kərim Mehtiyev
32. Kəyan Cəfərli
33. Maya Mətin
34. Mirzə Quliyev
35. Muradxan Quliyev
36. Müşfiq Orucov
37. Nuray Babazadə
38. Nüsrət Zəngilanlı
39. Orucova Nigar
40. Pərviz Məhərrəmov
41. Qövsi Ağakişiyev
42. Ramil Cabbarov
43. Rasim Rzayev
44. Rəhilə Mehtiyeva
45. Rəhilə Quliyeva
46. Reyhan Dağlı
47. Ruzman Quliyev
48. Rövşən Həziyev
49. Seyfulla Cümşüdlü
50. Sevin Cümşüdlü
51. Şahin Cəfərov
52. Şahin Nəzərov
53. Şakir kərimov
54. Sevil Əlifova
55. Səyad Məmmədov
56. Şirvan Kərimov
57. Sona Camalova
58. Tahir Zəngilan
59. Tariyel Salmanov
60. Tural Salmanov
61. Validə Ağayeva
62. Yaqut Balaqadaşova
63. Yaşar Babayev
64. Yelmar Quliyev
65. Zakir Məmmədov.
66. Zöhrab Ağayev
67. Zöhrab Quliyev
68. Zoya Rzayeva

# VI FƏSİL

# LƏTİFƏLƏR

XX əsrin axırıncı onilliyi bizim bəlamıza çevrildi. Yurd itkisi, onu qoruyanların itkisi, bu faciələrə dözməyənlərin itkisi. Bu ağrı-acılar hər birimizin həyatında baş verib. Bütün dünyasını dəyişənlərə ulu Tanrıdan rəhmət diləyir, onların ruhu qarşısında baş əyirəm.

Artıq torpaqlarımız qəhrəman oğullarımızın şücaəti sayəsində işğaldan azad olunub. Yaşamağa dəyər,özü də ata-baba torpaqlarımızda!

Məni yaxından tanıyan dəyərli insanların xahişlərini nəzərə alaraq çoxunu heç yerdə çap etdirmədiyim, ötən əsrdən zəngilanlı günlərimizdən qalma bir neçə lətifəni çatdırıram. **Asif Bağırov.**

### Sənnən üz-üzə oturub dayna

Zəngilanın tanınan kişilərindən birinin oğlu orta məktəbi zəif qiymətlərlə bitirir. Kişi çox götür-qoydan sonra oğlunu əslən Məmmədbəyli kəndindən olan Gəncədə (o vaxt Kirovabad adlanırdı) ali məktəbdə işləyən Nəsib Piriyevin evinə aparır. Salam-kəlamdan sonra birbaşa mətləbə keçir:

-Qardaş eşitmişəm çox adamın karına gəlmişən. Kömək elə, uşağı ali məktəbə qoyaq. Evdəki qoyunu diri, qapıdakı camışı satıb pulunu gətirmişəm.

Nəsib müəllim onu təmkinlə dinləyib deyir:

-Ay qardaş evimə xoş gəlmisən, pulun lazım deyil, uşağın bilik vəziyyətini yoxlayaq, imkan daxilinində köməklik edərik. Bəs diri qoyunu harada bağlamısan?

Kişi gülə-gülə oğlunu göstərir

-Qadan ürəyimə, qoyun sənnən üz-üzə oturub dayna

## Kor mənmişəm

Zəngilan SES-in həkimi Məzahir Qocayev nahar vaxtı iş yerinin yaxınlığındakı yeməkxanaya girərkən həmkarı Qaçay Hüseynovun nabələd bir adamla oturub yemək yediyini görür. Süfrəfdə kənd çolbası, nehrə yağı, şor, çəkmə araq, mey-meyvə nə bilim nə. Onlara salam verib, nuş olsun, deyir. Qaçay həkim cibindən qələm və bloknot çıxararaq Məzahirə uzadır:

-Yaz ki, üç gündən sonra sən də mənə bax burada, belə bir qonaqlıq verəcəksən, imza da qoy, ayın tarixini də qoy və bizimlə otur.

Məzahir təcili bloknota qeydlər edib Qaçaya qaytarır.

Üş gündən sonra günorta vaxtı Qaçaq Məzahirin başının üstünü kəsir:

-Hərif, dur düş qabağıma gedək.

Məzahir özünü bilməməzliyə vurur

-Hara?

Qaçay cibindənn bloknotu çıxarıb Məzahirə uzadaraq.

-Üç gün bundan əvvəl öz xəttinlə yazdıqlarını oxu.

Məzahir qısaca:

-Yazmağı məndən, oxumağı sizdən

Qaçay həkim oxumağa başlayır:

-Mən Qocayev Məzahir Mürsəl oğlu Hüseynov Qaçay Səməd oğluna söz verirəm ki, üç gündən sonra ona qonaqlıq verməyəcəm!

Qaçaq həkim bir təhər özünü ələ alaraq

-Ə, lotu, gözündəki eynəyi ver, mən vurum, kor sən deyilmişsən, mənimişəm.

## Bəs bu nədir?

Əslən Pirçivanlı olan Suqurət Mustafayevlə İsa Əkbərov yeniyetmə yaşlarında Cabbar İmamverdiyevin babası Simamverdi babanın bağına gilas oğurluğuna gedirlər. Səhərin gözü açılma-

dan onlar ağacda ikən Simamverdi babanınn ağacın dibindən üzü yuxarı onlara:

-Ə,,,,,kimsiniz? Sizləri əkib-doğanın …söyüşlərini eşidirlər.

Süqrət dillənməmiş İsa:

-Baba mənəm e, Əmiraslanam, - deyir

Simamverdi baba Əmiraslanın qarasına söyüşlərini tamamlamamış, Suqrətin təklifi ilə onlar ağacdan tullanaraq hərəsi bir tərəfə qaçır.

Qoyun-qoltuğu gilas şaxları ilə dolu olan İsa yolunu şirin yuxuda, çöldəki çarpayıda yatan Əmiraslangilə tərəf salır, dolu bir şaxı Əmiraslanın yorğanının üstünə ataraq surətlə oradan qaçır.

On-on beş dəqiqə keçməmiş Simamverdi baba təngənəfəs Əmiraslangilin həyətinə girir. Yorğanın üstündə gilas şaxını görüb söyə-söyə Əmiraslanı kötəkləməyə başlayır. Əmiraslan nə baş verdiyini anlamamış, səsə anası Firuzə xala çölə çıxıb.

-Ay dayı, bu günahsız yetimi niyə döyürsən? sualına Simamverdi baba hirsli-hirsli üstü gilasla dolu şaxı göstərərək:

-Oğlun günahsızdırsa bəs, bu nədir? -deyə soruşur.

## Yol böyüyündür.

Zəngilan qəbristanlığının bağbanı Müseyib kişi raykomun I katibi Nəzir Kərimovla rayon İcraiyyə Komitəsinin sədri Qurban Qliyevin qəbristanlığı gəzdiyini görüb onlara yaxınlaşır. Salam verəndən sonra hər ikisinə:

-Yoldaş Kərimov, yoldaş Quliyev niyə dayanmısınız, kimi gözləyirsiniz? Yaxşı yerlərin hamısı əldən gedir axı!

Müseyib kişinin xoşagəlməz dəvətindən Qurban Quliyev pərt olsa da, Nəzir Kərimov:

-Müseyib kişi, yol böyüyündür. Haranı bəyənirsən özünə götür, bizim hələ görüləsi çox işlərimiz var, -deyir.

## 21 yox, 22 yıxdı

Qıraq Müşlanlı Ağaqulunun arvadı gecə ərinin evə bikef gəldiyini görüb, onu məzəmmət edir:

- Kişi yaşlaşmısan, otur evində-eşiyində. Yığışdır bu 21-i, o səni var-yoxdan çıxartdı.

Qumarda uduzub qanı qaralan Ağaqulunu bir tərəfdən də arvadının tənəsi lap hövsələdən çıxarır, hirsli-hirsli arvadına:

- Yalançının atasına lənət! Mənim evimi 21 yox e, 22 yıxdı.

## Yoxsa, özüm...

Sarallı-Xəştablı Baba qatarla Bakıya gəlirmiş. Babanın tanışlarından bir nəfər həyat yoldaşını yə südəmər uşağını ona tapşırır, mən işlə əlaqədar gedə bilmirəm, onsuz da bir kupedəsiniz, gözün uşaqların üstündə olsun.

Xeyli yol gedəndən sonra körpə ağlamağa başlayır. Anası üzünü yana çevirərək, başındakı yaylığı ilə sinəsini, örtüb uşağı əmizdirmək istəyir. Uşaq da çığımağına, möhkəmdən ağlamağına ara vermir.

Sözünün əvvəlini-axırını heç vaxt ölçüb-biçməyən Baba əsəbi halda ona «öyüd-nəsihət» verir:

- Ə, nə qışqır-bağır salmısan? Tez elə əm! Sən öləsən, əmməsən, özüm...

## Vaxtını niyə alaq?

Yadulla Hacıyev Bakıda Ali Partiya Məktəbində oxuyarkən hər dəfə rayona gələndə qonum-qonşu, dost-tanış onlara yığışar, deyib-gülər, yeyib-içərmişlər. Bir gün məclisin şirin yerində qohumlardan biri ona sual verir ki, orada sizə şpionajdan da dərs keçirlər? Yadulla müəllim özünü eşitməməzliyə vurur. Az keçməmiş yenə həmin adam sualını təkrar edir.

Yadulla müəllim yarı ciddi, yarı zarafat «Bəli, o dərsi bizə keçirdilər. Amma mənə «beş» yazaraq, heç nə soruşmadılar. De-

dilər ki, sənin rayondakı qohumunu yaxşı tanıyırıq. O, şpionaj işini bizdən qat-qat yaxşı bilir, nahaqdan vaxtını niyə alaq?», deyə cavab verir.

## Əsgərliyə çağırdılar

Raci Rüstəmovu əsgərliyə yola salanda atası Müzəffəri ağlamaq tutur. Qonaqların içərisindən Şamı Bağırov onun könlünü almaq məqsədilə zarafatla:

- Mizi, niyə uşağın arxasıncan gözünün müzüyünü tökürsən, iki gündən bir Raciynən əl-ələ qalxan sən deyildin?

Müzəffər bir təhər özünü elə alaraq Şamıya:

- Bağırov, şənin dediklərin tamamilə doğrudur, yeganə adamsan ki, bizim evin cikin də bilirsən, bikin də. Məni qəhərləndirən başqa şeydir. Bu zalım oğluynan təzə- təzə dil tapmağa başlamışdıq ki, onu da qəfildən əsgərliyə çağırdılar.

## Yırtıqdan baxma

Pircivanlı Ağa bəyin Ələkbər adında olduqca qoçaq, həm də hazırcavab bir nökəri varmış. Bu səbəbdən bəy onu «bic Ələkbər» adlandırırmış.

Bir gün bəyin tapşırığını dərhal yerinə yetirib, yüyürə-yüyürə qapını döyməmiş içəri daxil olan Ələkbərə Ağa bəy irad tutur:

-Ələkbər, əvvəl qapını döyüb, sonra otağa girərlər, bəlkə evin xanımı çılpaqdır?

Ələkbər fikirləşmədən ağasına:

-Ağa, mən heç vaxt elə biqeyrət işlərə yol vermərəm. Qapının yırtığından baxıram, xanım paltarını geyinəndən sonra içəri girirəm.

Ələkbərin cavabı Ağa bəyin xoşuna gəlir, ona bir qızıl onluq verərək deyir.

-Ə bic köpək oğlu bu onluq sənə halaldır, amma bir də yırtıqdan baxma.

## Ətçi-ətçi

Rayon avtobazasında, demək olar ki, əksər kəndlərdən sürücülər işləyirdi. Hər səhər putyovka yazılmamışdan əvvəl, sürücülər avto bazanın geniş həyətində şirin-şirin söhbətləşər, hərə öz kəndini tərifləyərdi. Bir gün mövzu yeyib- içməkdən düşür. Yenə hərə rayonda ən çox öz kəndinin adamlarının yaxşı yeyib-içən olduğunu sübuta yetirmək istəyir. Bayaqdan heç nə danışmayan Davuddan soruşurlar ki, bəs, sən niyə kəndinizdən bir kəlmə də söz demirsən? Davud da yavaşca:

Mən sizin boş-boş sözlərinizin qabağında nə deyim? Bütün millətlərdə uşaq anadan olanda «inqə», «inqə» deyir, bizim Vənətlidə isə yenicə doğulan körpələr ilk olaraq «ətçi-ətçi» kəlmələri ilə dil açır. Yerdə qalanını özünüz fikirləşin, deyərək cavab verir;

## Kolxoz qulu deyiləm

Lenin adına kolxozun pambıqçılıq briqadiri Cəmşid kişi yolun qırağında bir neçə qadınla sel aparmış su dəhnəsini düzəldirmiş, yoldan keçən Ağaqulunu görüb:

- Ağaqulu, gəl kömək elə bu dəhnəni düzəldək, qadınlar bacarmırlar , bu kişi işidir-deyir.

Biyar işlə arası olmayan Ağaqulu:

-Cəmşid, birini düz dedin, əlbəttə, bu kişi işidir. İkincidə səhv elədin. Mən ağa quluyamı, kolxoz qulu, Cəmşud qulu deyiləm.

**«İstedadlara yaşıl işıq» qəzeti. N-13. Mart-Aprel 2019-cu il.**

## Bundan sonra heç hara

Keçən əsrdə Ağkənddə yaşamış uca boylu, qədd-qamətli, həm də hazır cavab olan Şah Abbas dayı (Bank müdiri Mustafa Mustafayevin böyük qardaşı) bir az da əsəbi imiş. Onun gözəl-göyçək, Şəkil adında, elə şəkilə bənzər bir bibisi varmış. Hər gözəlin bir

eyibi olan kimi, Şəkilin də eybi qarşısına çıxan adamın işinin düz gətirməməsi imiş.

Bir gün Şah Abbas dayı səhər-səhər atla Qafana getmək istərkən kənddən çıxa-çıxda bibisi əlində bir dəstə gül onun qarşısına çıxır.

- Qardaş oğlu, qadan alım, səhərin gözü açılmadan, xeyir ola,-hara? - deyə Şah Abbasdan soruşur.

Şah Abbas əsəbi halda atın cilovunu kəndə tərəf çevirir:

- Bibi, mənim ki, qarşıma sən çıxdın, bundan sonra heç hara!

## «Mafura xalanızın kişi cildinə girmiş formasıyam»

Pircivanlı «Çala məhəllə» sakini Mafura yeganə oğlu Tapdığın kiçik toyunu eləmək istəyir.

Qonşusu Asif müəllimdən Qafanda yaşayan, məşhur klarnet çalan Yelmarı da toya gətirməyi xahiş edir. Toy günü axşam tərəfi «Qafan-Bakı» qatarı ilə Pirçivana gələn Yelmarı Mafuranın özü qarşılayır. Yelmar onu tanımasa da, o, Yelmarı tanıyır. Yelmar ondan:

- Qardaş, burda Mafura xalagilin evi harda yerləşir? - soruşanda Mafura gülə-gülə:

- Gedək mən göstərim - deyir.

Onlar Mafuragilə çatanda Yelmar ona dil-ağız edir:

- Çox sağ ol, qardaş, əziyyət çəkdiniz. Siz Mafura xalanın nəyisiniz?

Mafura gülərək deyir:

- Usta, mən sizin sevimli Mafura xalanızın kişi cildinə girmiş formasıyam.

## Rayonun baş baytar həkimi odur

Əsli Keçikli kəndindən olub Pircivanda yaşayan, həmişə Alı həkimlə zarafat edən bir nəfər onun kabinetinə girib, lal-dinməz xeyli oturur. Axırda Alı təngə gəlib ondan soruşur ki, bəlkə bir şikayətin var, haran ağrıyır?

O, da Alı həkimə:

- Ə... sənə həkim deyənin... Bunu sən bilməlisən, məndən niyə soruşursan?

Alı həkim bir vərəqə nə isə yazıb, ona verərək, deyir;

- Bunu aparıb Qubad Bağırova verərsən, çünki rayonun baş baytar həkimi odur.

**-Onları təmiz havaya çıxarasınız**

Qapı bir qonşu olub, beş-altı yaşlarından bir məhəllədə böyümüş, uzun illər dostluq etmiş Xürrəm Həsənovla Asif Bağırovun həm də duzlu zarafatları varmış.

Soyuq bir qış axşamı Xürrəm Asifgilə gəlir, yeyib-içdikdən sönra bir siqaret yandırıb damağına qoyur. Az keçməmiş ikinci siqareti yandırır. Asif ona:

- Qardaş, papirosunu çöldə çək, huşun kəsmir ki, evdə xırda uşaqlar var?

Xürrəm tövrünü pozmadan:

- Ə... Qardaş, mənim huşuma nə gəlib? Sizin ağlınız kəsmir ki, tüstü uşaqlara ziyandır. Heç olmazsa yarım saatlığa onları təmiz havaya çıxardasınız?

**-Borcumu artıqlaması ilə ödədim**

Zəngilan səhər hamamında növbə uzun çəkdiyindən ağır çəkili Alı həkimlə, yüngül çəkili Qaçay həkim bir nömrəyə girirlər. Alı həkim təklif edir ki, gəl biri- birimizin kürəyini sürtək. Qaçay həkim deyir ki, siftə sən mənim kürəyimi sürt. Alı onun kürəyini sürtüb qurtarandan sonra Qaçay Alının kürəyini sürtməyə başlayır, az keçmiş əlini saxlayıb, geri çəkilir. Alı ondan:

- Niyə yarımçıq-dayandın? soruşur.

Qaçay bic-bic:

- Alı, mənim; bədənim və çəkim səninkindən iki-üç dəfə azdır. O halım da yoxdur ki, müftə hamballıq edəm. Öz borcumu artıqlaması ilə ödədim - deyir.

**«Zəngilanın səsi»** qəzeti. Noyabr -10 dekabr 2019-cu il. N-(5973)

**Qurbanın bacısı oğlu qiymətini alıb gedib.**

Ali məktəbdə oxuyanda Sov.İKP tarixi fənninə bir o qədər də fikir verməyən Xürrəm Həsənovun kəsiri qalır. Tətil vaxtı olduğundan Bakıda oxuyan digər tələbələr də Zəngilanın ən mənzərəli bağı sayılan Lenin parkındakı çayxanada çay içirmişlər. Söhbət əsnasında digər tələbə Humay Hümbətov da Sov.İKP tarixi fənnindən kəsiri olduğunu (hər ikisinin müəllimi eyni adamdır) bildirərək əlavə edir ki, Qurban dayıma (Qurban Quliyev Xalq Nəzarət Komitəsinin sədri imiş)? dedim, mənə açığı tutdu ki, onunla mən partiya məktəbində bir oxumuşuq. Bakıya qayıdan kimi mənim adımı verərsən, hər şey düzələr. Bakıya qayıdandan sonra Xürrəm birbaşa həmin kafedraya ğirib ədəb-ərkanla müəllimlə görüşür və, Qurban Quliyevin salamlarını çatdırır. Müəllim Xürrəmdən soruşur:

-Qurban Qüliyev nəyindir? Xürrəm cavab verir: - Dayımdır. Müəllim özü gedib dekandan arayış alır və Xürrəmin zaçot kitabına «yaxşı» qismət yazır.

İki gün sonra Humay gəlib Qurban Qulyevin onun dayısı olduğunu bildirəndə müəllim üz-gözünü turşudub Humaya:

-Cavan oğlansan, niyə yalan danışırsan? Qurbanın bacısı oğlu qiymətini alıb, gedib, deyir.

**Şotu (hesabı) ermənicə (hayca) ödəyəcəyik, yoxsa azərbaycanca?**

Gənclik illərində Ermənistanın Qafan şəhərinə yeyib-içməyə gedən Asif Bağırov, Xürrəm Həsənov və Həsən Həşimov (Rəzdərəli) «Zəngəzur» restoranında əyləşib sifarişlərini verirlər. Süfrədə araq qurtaranda Xürrəm ofisianta:

-Hərəmizə hərrü qram (hayca yüz) süz, - deyir. Az keçmiş ofisiantı bir də səsləyirlər - Eşo raz povtorite. Üçüncü dəfə ofisianta:

- Hərrü qram deyir. Xürrəm baxır ki, ofisiant hər dəfə yüz qram əvəzinə əlli qram süzür.

-Axırda haqq-hesab vaxtı ofişiantdan soruşur.

- Şotu azərbaycanca kəsəcəyik, yoxsa ermənicə (hayca)?

Ofisiant: -Ara, şotun da Azərbaycan ermənisi olurmu? Xürrəm:

- Ə, məzhəbsiz oğlu məzhəbsiz. Mən hər dəfə araq istəyəndə; sizin dildə, hərrü, yəni yüz qram deyirdim. Sən də üç dəfə araq gətirəndə hərrü əvəzinə bizim dildə əlli qram gətirdin. Ona görə soruşuram kı, şotu sizin dildə ödəyəcəyik, yoxsa bizim,dildə.

## Onda dilini faraqat saxla!

Zəngilanın işğalından az əvvəl Pirçivanın ən yaxşı kişilərindən biri olan Rüstəm əmini teplovoz vurur. Universamın çayxanasında çay içərkən Xürrəmlə zarafatı olan Yavər Qarayev:

- Həsənov deyirlər əmin teplovozu yaman əzib, düzdür? - deyə soruşur.' Xürrəm Yavərə:

-Qarayev, əmimin elə işləri var ki, bu, onun yanında muştuluqdur - cavabını verir.

Yavər təkidlə, Xürrəm səh Allah, o hansıdır, denən biz də bilək.

Xürrəm sözə başlayır

- Yoldaş Qarayev, deməli, əmim atla meşəyə oduna gedir. Kişidə insäf adlı heç nə yox imiş. Odunu ata yükləyəndən, sonra özü də oturur yükün üstündə. Bir it arısı gəlib qonur əmimin burnunun ucuna əmim də yavaşcadan deyir ki, ay, Allahın heyvanı, əcəl şəni gi rələməsin, rədd ol burdan. Arı getmir ki, getmir. Əlacı kəsilən əmim yükün arasındakı baltanı çəkib, arını vurur, burnunu da ortadan bölüb yaman günə qoyur.

Xürrəm sözünü qurtarmamış Yavər gülə-gülə:

Həsənov, o mənim əmim olub e- deyir.

Xürrəm də ona gülə-gülə:

- Sənin əmin olubsa, onda dilini farağat saxla, - cavabını verir.

## Gərək belə eləməyəydi

Ötən əsrin 60-cı illərin ortalarında isti yay günündə Zəngilan qəsəbəsi Məscid düzü məhəlləsinin cavanları Asif Bağlrovla Telman Həsənov (hazırda T.Həsənov Bakı şəhərində tanınmış travmatoloqlardan biridir) mal nobatına gedirlər. Havanın istisindən sürüdəki danalardan 4-5-i mözələkləyib, ora bura qaçmağa başlayır. Onlardan biri Qıraq Müşlan tərəfə götürülür.

Qəsəbənin qurtaracağı İpək idarəsinin yanında Asif qayadan götürdüyü çarpanaq daşı danaya tullayır. Dananın sol qılçası,qırılıb sallanmağa başlayır.

Yarım saatdan sonra mal heyvanı hadisə yerinə çatdıran Telman danaya baxan kimi hönkürtü ilə ağlayaraq Asifə.

Şahsuvar əmimgilin danasıdır, ona nə cavab verəcəyik? deyir. Telmandan 3 yaş böyük, həm də davakar Asif də Telmanı hədələyərək:

Əgər dananın vəziyyətinə düşmək istəmirsənsə, dilini farağat saxla, məsləhətini verir.

Evləri yaxında olan Şəmil müəllimin yoldaşı Zərif xanımdan bint alanTelman yaralıya ilk yardım göstərir.

Axşam üstü mal heyvanı örüşdən qaytararkən Telmanın xahişi ilə Asif də zərərçəkənin evlərinə gedirlər. Darvazada dayanan Şahsuvar əmi üç qılça danasının Asiflə Telmanın söykəyində gəldiyini görüb, qəzəblə:

Hansınız bunu bu kökə salmısınız? sualını verəndə Telman doluxsunmuş vəziyyətdə gözlərini Asifə dikir.Vəziyyətin xarablaşdığı bir vaxtda Asif deyir ki, əmi raşokün üst tərəfindəki qayalıqda sizin dana Həsənqulu Bayramovun camışının qabağına keçdi, camış da onu buynuzuna götürüb tullayaraq bu vəziyyətə saldı.Telmanın Asifə tərəf şübhəli baxışını görən Şahsuvar əmi:

Həsənqulu özü fəsilləri dəyişik salaraq, qışda gilas yeyib, yayın cırhacırında buz bağlamış Arazın üstündən atla keçsə də həm ağsaqqal, həm də çox xeyirxah adamdır.

Dananı bu günə salan həm əldən, həm də ayaqdan solaxay adamdı, gərək belə eləməyəydi deyib Asifə baxır.

## Morqunov, Nikulin bir də Vitsin

Əvəzağa Məmmədov Zəngilanda SƏDM üzrə baş müfəttiş işləyərkən gözündəki eynəyə və zahiri görünüşünə görə, I əməliyyatı və Qafqaz əsiri kino komediyasının baş qəhrəmanı Şurikə bənzədiyindən bəziləri daldada onu Şurik adlandırmışlar.

Bir gün Şəfibəylidən yaşlı bir qadın milis şöbəsinə gəlir, hirsli-hirsli həmin gün növbətçi olan Arif Şıxəliyevdən o haradadır? deyə soruşur.

Arif, xala sən kimi soruşursan? Adını denən. Ay bala, mən səni tanıyıram, Şuriki soruşuram e.

Əvəzağa ikinci mərtəbədəki kabinetində olsa da, Arif dava dalaşın qarşısını almaq məqsədilə qadına:

Xala Şurikin işi fırıqdır. Moskvadan komissiya gəlib onu yoxlayırlar.

Arvadın hirsi təbəssümlə əvəz olunur, Arifə:

Dilinə qurban olum, Moskvadan gələn kimlərdir?

Arif Şıxəliyev: Morqunov, Nikulun bir də ki Vitsin

## O sənin salamat yerindən öpüb.

Bir neçə il Rusiyada yaşayan, sonra rayona, qayıdan bir Zəngilanlı məhəllə qonşuları və orta məktəb yoldaşları Xürrəm Həsənov və Asif Bağırovla görüşür. Dostlar bu hadisəni Dağüstü pavilyonda qeyd edirlər. Söhbət əsnasında qonaq hər dəfə Rassiya deyəndə Xürrəm onun sözünə düzəliş verir. Rassiya yox, Rusiya. Xürrəmin bir neçə dəfə düzəlişlərinin heç bir nəticəsi olmur. O, Rusiyadan gələnə: Qardaş neçə il orada yaşadın, heç olmazsa bir rus qızı ilə tanış ola bildinmi? sualını verir.

Ə, qardaş nə danışırsan? Elə şey ola bilər? Elə ora gedəndən birisi ilə otur dur edirdim, zalım qızı dünya gözəli idi. Amma nədənsə o, həmişə mənim qulağımın dibibdən öpərdi,səbəbini indi də anlamıram.

Xürrəm fürsəti əldən vermir:

Zalım qızını qınama, o, sənin salamat yerindən öpüb

## Sən də mənim kimi süddən yanıqsan

Keçən əsrin 50 ci illərində Azərbaycanın xalq artisti Lütvəli Abdullayev Zəngilana qastrola gəlir. Bir qayda olaraq Bakıdan gələn sənət adamları konsertləri əvvəlcə kəndlərdə, yekunda isə rayon mərkəzində verərdilər. Pirçivandakı M.C.Bağıtov adına kolxozda axşam tamaşa göstərəcək L.Abdullayev gündüzdən klubu olmayan kolxoza gəlir, həm yer seçmək, həm də kolxozdan köçürməni almaq üçün. Kolxozun həyətində o eni ilə, boyu seçilməyən özünə oxşar ağır çəkili Şəfibəyli alverçi Əsgərlə qarşılaşır. Əsgərin başında panamanı görüb onun ya raykom işçisi, ya da kolxozun sədri olduğunu güman edir, salam verəndən sonra baxır ki,bir iki adam Əsgərə yaxınlaşır, ona pul verirlər, o da həmin adamlara əlindəki zənbildən ya limon, ya da siqaret satır. Hər sözü, hər hərəkəti adama bal kimi yapışan Lütvəli Əsgərə yaxınlaşır, onu qucaqlayıb marçamarçla öpərək:

Can ay yetim! Mənim kimi bir dərisən, bir sümük, süddən də yanıq.

## Bu günkündən də çox yeyərik

Məcburi köçkünlüyün ilk aylarında Neft Akademiyasının Tələbə şəhərciyində məskunlaşan şəhər sakinləri Nəcəf Mehrəliyevlə Asif Bağırov soyuq qış günlərinin birində eşidirlər ki, vaxtı ilə onlarla bir kollektivdə işləmiş, on ildən artıq Bakı şəhərinə köçmüş çox imkanlı dostlarından birinin atası rəhmətə gedib.

Həmin gün cüməlik verildiyindən mütləq ora getməyi, pulları olmadığından isə siyahıya qırxda yazılmağı planlaşdırırlar. Həm də fikirləşirlər ki, qarın dolusu ehsan da yeyərlər.

Hər ikisinin ayaq qabılarının altı deşilmiş olduğundan acınacaqlı vəziyyətdə mərasim çadırına girirlər. Hüzr sahibi onlara yer göstərib, yarım saata yaxın hər ikisi ilə çox şirin söhbət edir. Asif müəllimlə Nəcəf müəllimə yağlı vədlər verir.

Bir saatdan sonra Nəcəf müəllim Asif müəllimin qulağına pıçıldayır.

Qardaş şad xəbər, siyahı yoxdu.

Onlar gündüz saat 3 ə qədər ayaqları dona dona çadırda otururlar. Yenə də Nəcəf müəllim Asif müəllimin qulağına pıçıldayır.

Bu dəfə bəd xəbər. Ehsan verilmir.

Onlar hüzr sahibinə başağlığı verib, çadırı tərk etmək istərkən, hüzr sahibi.

Əziyyət çəkib ehsan hazırlamışıq, gözləyin qəbristanlığa baş çəkib qayıdaq, rahat oturub bir tikə çörək yeyin deyir.

Nəcəf müəllim rişxəndlə:

Salamat qalsaq, qırxda axşam tərəfi gəlib bu günkündən də çox yeyərik, cavabın verir.

## Onda bılarsan ki, sana nə olacaq.

Böyük Vətən müharibəsi iştirakçısı çox təmkinli, abır həya sahibi Qurbanov Ağamalı cəbhədən qayıdarkən Marusya adlı dilli dilavər bir qadını özünə ömür gün yoldaşı gətiirir. İllər keçsə də onlar oğul qız sahibi olsada Marusya Azərbaycan dilini bir az çətinliklə mənimsəyir. Evləri Pirçivanın mərkəzində yerləşdiyindən hər gün səhər səhər camaat mal-qarasını ordan örüşə ötürər, axşam tərəfi də ordan qarşılayardılar. Bu səbəbdən həmin vaxtlar oradan mal-heyvan səsi ,hay- küy .bəzən də söyüş -qarğış əskik olmazdı. Bir dəfə Marusiyanın qapı bir qonşusu. Zəngilanın tanınmış zlyalılarından biri Tofiq Hacıyevin anası Əcəb xala ilə sözü çəp gəlir. Dodağından həmişə xoş, məzəli sözlər, simasından təbəssüm əskik olmayan Əcəbə nənəni (onu hamı belə adlandırardı) dilə gətirilməsi mümkün olmayan söyüşləri ilə hədələyərək:

-Acab, san olasan (öləsən) çaparı keçib sanı... deyir. Əcəbə nənəni gülmək tutur, nə tutur. Handan-hana özünü ələ alıb. -a.a.a-z bizim Rüstəmin söyüşlərini hardan əzbəriəmlsən? (Rüstəm Hacıyev Pirçivanın ən uca boylu, mərd, təmənnasız, heç kimə baş əyməyən, həm də qəliz söyüşləri ilə məşhur olan adamlarından biri idi). Sən də mənim kimi arvad xaylağısan, çəpəri basıb, mənə nə eliyərsən, nə xoruzdanırsan?

Marusyanı od götürür

- Acab, mən çaparı basacam, oradan Aqamalı keçəcaq, onda bilalsan ki, sana na olacaq.

**Yoxsa mən.**

Cavan vaxtlarında Pirçivan damır yolu vağzalındakı yeməkxanada Asif müəllim dostlarından bir neçəsinə qonaqlıq verir. Yeyib-içmək qurtardıqdan sonra qonaqladan biri ayaq üstə durmaq imkanında olmur. Çox götür-qoydan sonra onu bağların arası ilə S.Vurğun adına stadiona aparırlar ki, orada özünə gəlsin. Axşam düşür, o yenə ayılmır. Əlacı kəsilən Asif müəllim dostunu kürəyinə şəlləyib üzüyuxarı çıxarır. Dikin başında Həsənov Xansuvarın evinin yanından keçəndə sərxoş zəif səslə:

-Mən belə olmalı oğlan deyildim, deyə - mızıldanır.

Asif müəllim də 70 kiloluq yükün ağırlığından qeyzlənir:

-A bəxtəvər, səni yedirib, içirdən, sənə çörək verən adamın çiyninə çıxdığın bəs deyil, hələ bir naşükürlük də edirsən? Gör sən belə oğlan olmalı deyildin, yoxsa men?

**Məndən də başqa Talehiniz var?**

Sarıllı Taleh kefi kök, taraz vəziyyətdə qaynanasıgilə gedir. Duzlaşma ilə əlaqədar bir az problemi olduğundan canı ağrıyan qaynanası şikayətlənərək:

-Mənim taleyim yansın, bu nə işdi başıma gəldi? -deyərək ufuldayır.

Qaynanasının, «mənim taleyim yansın» sözünü özünə çıxan Taleh doluxsunmuş halda:

-Məhliqa xala, sizə nə pislik etmişəm ki, qulağım eşidə-eşidə məni lənətləyirsən?

Həmişə abır-həya saxlayan, söyüş, qarğış nə olduğunu bilməyən qaynanası:

-Ay bala! Mənim səninlə nə işim var? Mən öz taleyimi deyirəm cavabını verir.

Taleh bu dəfə qısqanclıqla soruşur

-Məhliqə xala, sizin məndən də başqa Talehiniz var?

## Orada kimlərdənsən?

Əvvəllər Zəngilan rayonunun ucqar kəndlərində əsasən səkkiz illik məktəblər olduğundan sentyabr ayında Zəngilan qəsəbə orta məktəbinin 1X siiniflərinə iyirmiyə yaxın kəndlərdən xeyli şagird gəlirdi. 1X sinifdə fizika-riyaziyyat fənlərini tədris edən Nəriman Ağayevin diqqətini görkəmi Herakla bənzər, uca boylu, enli kürək, çəkisil yüz kiloqramdan da artıq, pəhləvan cüssəli bir şagird cəlb edir. Onun adını, haralı olduğunu soruşanda şagird ayağa qalxaraq şirin ləhcə ilə uzada-uzada:

M-a-a-all-lim, m-a-n-l d-e-y-r-s- ə-n? Adım S-a-m-a-d-d-l-r. ö-z-ü- m d-a...

Həmişə ciddi və tələbkar olan Nəriman müəllimi gülmək tutur, şagirdin sözünü yarımçıq kəsərək, yumorla:

-Səməd, o qədər aydın cavab verdin ki, adını da bildik, kəndini də. Bartazda kimlərdənsən?

## İndi isə qalanlar

Qıraq Müşlanlı Ağaqulunun ömrünün axır vaxtları imiş. Həmkəndlisi, Zəngilan rayonunda yaşayan Alı həkim ona tez-tez baş çəkər, hər bir görüş də Ağaqulunun məzəli sözləri ilə yadda qalarmış. Növbəti dəfə Ağaquluya yoluxmağa gələn Alı həkim ondan məzəli bir söz ‘qopartmaq’ məqsədi ilə:

-Ə lotu, xoşun gəlməyən adamlar öləndə onlar barədə təhqirli sözlər deyərdin. Artıq özün də ölürsən, indi nə deyirsən?

Həmişə yanaqlarından qan daman, indi isə bənizi solmuş Ağaqulu yorğan-döşəyin arasında zəif səslə:

Alı, cavansan, sənə qıymıram, -deyir.

-Alı həkim: -Qıyıb neynıyəssən, ə?..

Ağaqulu titrək səslə:

-Alı, onda ölənləri deyirdim, indi isə içi sən qarşıq, qalanları bax, mənim...

## Avtandil müəllimə çatdırarsan

Avtandil müəllim oğlunun toyu ərəfəsində təsadüfən küçədə iş yoldaşı Nəcəf Mehrəliyevlə rastlaşır. Xoş-beşdən sonra ona bildirir, ki, oğlumun toyudur, sənə dəvətnamə yazmışam, qalıb evdə. Toy filan vaxt, filan saatda Ayna Sultanovanın heykəlinin arxa tərəfindəki şadlıq sarayında olacaq.

Toyun təyin edilən günü vaxta bir saat qalmış Nəcəf müəllim Ayna Sultanovanın heykəlinin yanı-na gəlir. Ora-bura göz gəzdirir. Gözünə Zəngilandan heç kəs dəymir. Nabələd adamların bir neçəsindən şadlıq evini soruşur, bilən olmur. Səbri tükənən, əhval-ruhiyyəsi xarablaşan Nəcəf müəllim dilxor halda heykəlin ön tərəfində dayanıb, qeyzlənir:

-Ayna xanım! Bir saatdır burdayam. Arxa tərəfindən qabağından, sağından, solundan hər tərəfə boylandım, şadlıq sarayı görmədim. Kimdən soruşdum, bilən olmadı. Artıq əldən də düşmüşəm. Evə qayıdıram. Heykəl olanda nə olar? Bir şahid kimi mənim əzab- əziyyətimi Aftandil müəllimə çatdırarsan.

## Adı Yüküdür

Böyük Vətən müharibəsi iştirakçıları, evləri Plrçlvan Məscldinın yanında yerləşən Əziz Qasımövla. Rüstəm Hacıyev xeyir şərə yarayan, ağayana adamlar idi.

Di gəl ki, həm hövsələsiz, həm də söyüşcül idilər. Bir dəfə Əziz əmi Rüstəm əmiyə deyir ki, Hənd kəndində (Zəngilanın Rəzdərə kəndinə yaxın erməni kəndidir) bir dostum var, bir-iki tay buğda aparaq əvəzində xeyli kartof alaq. Hər ikisi səhər-səhər atlanıb yola düşürlər. Kəndə çatanda Rüstəm əmi Əziz əmidən dostunun adını soruşur (o zamanlar tanış erməniləri ya dost, ya da kirvə adlandırardılar). Ermənininin adı Əziz əminin yadına düşmür

ki, düşmür. Rüstəm əmi bir-bir erməni adlarını sadalamağa başlayır. Əziz əmi də hər dəfə əli ilə «yox» işarəsi verir. Rüstəm əmi gül ağzını açır:

-Ay Əziz! Hənd bir yana, mən Sav, Şeşkert, Kilsə kəndlərindəki ermənilərin də adlarını saydım. Bu donuz oğlunun, it oğlunun, tülkü oğlu tülkünün adı bəs nədir?

Əziz əmi sevincək:

Rüstəm, söyüşün arasını kəs! Tülkü dedin, yadıma düşdü. Adı Yüküdür.

## Mən isə solistəm, başa düşdün?

Zəngilanın çal-çağırlı, qayğısız günlərində uzun illərin sınanmış dostları həmişə bir oturub, bir durar, asudə vaxtlarını bir yerdə keçirər. Asif Bağırov, Cabbar İmamverdiyev, Zülfüqar Məmmədov, Rasif Fərəcov, Qəzənfər Rüstəmov, İzzət Məmmədov, Ləzgi Əhməd axşamüstü şəhər mədəniyyət evində stolüstü oyunlar: -şahmat, nərd və domino oynayır, şən zarafatlar edirmişlər. Qəflətən işıqlar sönür. Dostları Arifdən başqa hamısı işıq idarəsinin rəisi İzzət Məmmədovun anası Zəri xalanın ünvanına bir neçə kəlmə «xoş sözlər» deyirlər. İzzət növbətçiyə zəng vurur. Yarım saatdan sonra işıqlar yanır.

Bu dəfə Arif üzünü İzzətə tutaraq:

-Vay sənin işıq yandıran...

İzzət Arifin sözünü yarımçıq kəsərək:

-Bəşirov, bayaq işıq söndü, hamınız bir ağızdan Zəriyə hücum etdiniz. İndi işıq yandı. Yenə də nənəmin adını hallandırırsınız. Bunu necə başa düşək?

Arif şəstlə:

Bayaq mən heç ağzımı da açmadım. Bunlar xor oxuyanlardır. Mən isə solistəm. Öz partiyamı ifa edirəm. Başa düşdün?

## Ancaq kinoda görmüşəm

Zəngilandan İkinci Dünya Müharibəsində minlərlə adam İştirak etmiş. Onlardan yarıdan çoxu döyüş meydanlanda qəhrəmancasına həlak olmuş, salamat qalanların sinəsini isə müxtəllt orden və medallar bəzəyirdi Hər il 9 may Qələbə Günü onların ən sevimli bayramları sayılırdı. Adətən Dağüstü pavilyonda dövlət səviyyəsində bayramlarını qeyd edən, oradan Lenin bağına enib çay içə-içə fərəhlə cəbhə xatirələrini yada salar, şirin-şirin zarafatlar da edərdilər. Onların zarafatlarına ətrafdakı gənclər də qulaq asardılar. Bir dəfə SES-in sürücüsü Salman Qələndərov Müzəffər Ataxanovun sinəsindəki ordenlərdən birini göstərərək soruşur.

-Dayı, bunu nəyə görə almısan?

Müzəffər kişi Salmanın «Qələbə gününü layiqincə qiymətləndirdiyini» duyub, ciddi görkəm alaraq:

-Bunu mənə yoldaş Kalinin verib. Məni apardı orden medal anbarına dedi ki, hansından nə qədər istəyirsən, götür. Mən də bircə bunu götürdüm.

Salman qımışaraq:

-Dayı, məni hərifləmirsən?

Qonşusunun ilişdiyini görən Şaxsuvar İmanov Salmana.

-Yoldaş Stalin vacib bir məsələ üçün məni Kremlə çağırmışdı. Orada Ataxanovu öz gözlərimlə gördüm. Əl-ayağı yerdən-göydən üzülən Salman üzünü digər veteran Firldun Bayramova çevirəndə, o Salmanın sualını gözləmədən.

-Salman, bilirəm ki, məndən nə soruşacaqsan. O zaman biz almanlarla ölüm-dirim uğrunda vuruşurduq, başımız bərk qarışıq idi, ona görə Stalini də, Kalinini də mən ancaq kinoda görmüşəm,- deyir.

## Deməzsən ki aldatdım?..

Məcburi köçkünlüklə əlaqədar «Xalqlar dostluğu» metrosunun yaxınlığındakı peşə məktəbində ailəsi, yaxın qohum-əqrəbası

ilə yaşayan mədəniyyət işçisi Yadulla Mahmudov bir axşam qaynanası Nübar arvadın fikir-xəyala daldığını görüb, onun ovqatını yaxşılaşdırmaq məqsədi ilə zarafatla:

Səhər səni aparacam metronun girişində otur, əlini aç, gəlib-gedənin on nəfərindən biri sənə pul versə, dədəmizin də bəsidir, - deyir.

Nübar arvad Yadullanın zarafat etdiyini başa düşüb.

-Bala, mən bu təzə pulu tanımıram. Beş-on gün sən orda otur, mən qıraqdan baxım, öyrənim, sonrası mənim boynuma, - deyir.

Bayaqdan zarafat edən Yadulla qaynanasının dedikərini ciddi bilib fikrə dalır, tamah ona güc gəlir. Qiyabi olaraq oradakı “gəliri» hesablayıb üzünü bozardaraq hirslə:

-Nübar xala, bax, gör, mən heç dəliyə oxşayıram? O qədər ağlımı itirmişəm ki, öz halal-hümbət ış yerimi havayıdan başqasına verəm? Deməzsən ki, aldatdım?

**Qoç sahibinin qapısındadır.**

Zəngilan rayon prokuroru yaxın dostu, dükançı Qəşəm Quliyevə bildirir ki, sabah qızımın ad günüdür, evdə keçirəcəm, bizə bir quzu tap. Qəşəm də cavab verir ki, axşam tərəfi şoferin Cümşüdü göndər, bəsləmə bir qoçum var, aparsın. Qəşəmgilə gələn Cürnşüd baxır ki, bu quzu yox, çəkisi 30-35 kiloluq bir qoçdur. Eləmir tənbəllik, qoçu evlərinə apanb əvəzində qapılarındakı kiçik bir quzunu kəsib prokurorun evinə gətirir.

Heç nədən xəbəri olmayan’ Qəşəm iki gündən sonra axşam mal-heyvanın örüşdən qayıdan vaxtı qoçun həyətə girdiyini görüb qanı bərk qaralır. Fikirləşir ki, kim isə prokurora altda-üstdə nə isə deyib. O da mənim payımı qaytarıb, başıma vurub. Əsəbi halda prokurorun evinə zəng edir. Dəstəyi prokuror özü götürür, Qəşəmə minnətdarlıq edərək quzunun çox ləzzətli əti olduğunu, Cümşüdün onu kəsib doğradığını, hətta, Qə şəmin sağlığına badə qaldırdığını bildirir. Telefon danışığı bitən kimi kefi yüz biri vuran Qəşəm dərhal Cümşüdə zəng edir. Dəstəyi Cümşüdün uşaqla-

rından biri qaldırır, deyir ki,qoçumuz itib, gedib onu axtarmağa. Kimdir soruşan, gələndə nə deyək?

Qəşəm qalibanə səslə:

-Bala, Qəşəm dayındır, atan əliboş gələcək. Ona deynən ki, zəhmət çəkib, qoçu axtarmasın, qoç sahibinin qapısındadır.

# VII FƏSİL

# XATİRƏLƏR

## 1. Nigar Orucovadan

Nə yaxşı ki bu dünyaya gələn insanların içində varlığı ilə, gözəl dəst xətti ilə, zəngin xarakteri ilə seçilib sayılan Asif müəllim kimi şəxsiyyət yetişib. Asif müəllim haqqında danışmaq, fikir paylaşmaq həm çətin, həm də çox şərəflidir. Asif müəllim, sözün əsl mənasında, el-obamızın hörmətlə yanaşdığı, dəyərli, bütün insani keyfiyyətləri ilə seçilib sayılan ağsaqqalarımızdandır.

Doğrudan da,boş yerə deyilməmişdir:

«Soyuq qış axşamında doğulan isti ürək» Və bu ifadənin içində artıq bütün fikirlər cəmləşib.

Asif müəllimin keçdiyi bütün ömür yolu,böyük bir zəngin yaradıcılığının başlanması və davam etməsidir. Hər bir zəngilanlı-bu gözəl şəxsiyyət haqqında ən ülvi hisslərini bölüşməyi bacaran insanlardır.

Asif müəllimin yaradıcılığı,öz sadəliyi, xeyirxahlığı, vətənpərvərliyi hər bir kəsə nümunədir.



Bu gün yetişməkdə olan gənclik üçün, Asif müəllimin keçdiyi ömür yolu gözəl nümunədir. Tanrıdan bu gözəl şəxsiyyətə uzun ömür,can sağlığı və böyüklükdən əskik olmamağı arzu edirəm.

Mən Orucova Nigar Ədil qızı 1960-cı ildə Zəngilan rayonunda qulluqçu ailəsinsə dünyaya gəlmişəm. Atam Quliyev Ədil Oruc oğlu, anam Quliyeva Sehrəna Ağabala qızıdır. Ailədə 5 övlad

olmuşuq. 1966-cı ildə Zəngilan şəhər orta məktəbin 1-ci sinfinə daxil olub, 1976-cı ildə əla qiymətlərlə bitirmişəm .

1977-ci il Həsən bəy Zərdabi adına Gəncə Pedoqoji İnstitutunun Riyaziyyat fakültəsinə daxil olub, 1980-ci idə bitirmişəm.

Ailəliyəm. İki övladım var. Ali təhsilli və ailəlidirlər.

Bakı şəhəri Xətai rayon 64 saylı orta məktəbdə 1987-ci ildən ibtidai sinif müəllimi işlıyirəm.

Qısa tərcümeyi halım bundan ibarətdir.

Zəngilanı və Zəngilanlıları çox sevirəm.

Asif müəllim başımızın tacı, gözəl şəxsiyyətdir.

Allah ömür versin, ilahi Amin hamınıza. Var olun

**Hörmətlə Nigar müəllimə.**

## 2. İşıqlı və mənalı ömür...

Böyük Çin filosofu Konfutsi yazırdı ki, hər bir insanın həyat yolunu onun mənəvi dünyası, xarakteri müəyyən edir.Bəşər övladının mahiyyəti, mənəvi keyfiyyətləri həqiqətən də onun əməllərində, fəaliyyətində real təcəssümünü tapır.Dərk edilmiş məsuliyyətdən irəli gələn bu fəaliyyət həm də şəxsiyyət ucalığına qovuşmuş bu insanların cəmiyyətdəki layiqli mövqeyini, ictimai statusunu müəyyənləşdirir.Yəqin elə buna görədir ki, xeyirxah və alicənab insan kimi tanınaraq ömrün kamillik zirvəsinə yetişmək, bu dünyada iz qoymaq xoşbəxtliyi heç də hamıya nəsib olmur. İnsan gərək həyatda elə yaşasın ki, illər ötsə də hər zaman xoş xatirələrdə, qəlblərdə yaşasın.Elə bir iz qoysun ki, həyatda o iz əbədi qalsın....

Mənim söhbət açacağım insan da həyatda öz mənalı ömür yolu ilə yaddaşlarda əbədi iz qoyan bir şəxsiyyətdir.0, böyük hörmət-izzət sahibi olan və mənim ilk əmək fəaliyyətimə başladığım dövrdə, tanıdığım gündən üzərindən 44 il keçməsinə baxmayaraq qəlbimdə xoş xatirələrlə xatırladığım dəyərli, hörmətli Asif müəllim Bağırovdur ki, 45 il müxtəlif vəzifələrdə çalışsa da o öz insanlığını, şəxsiyyətini, alicənablığını hər zaman qoruyub sax-

lamışdır. Mən «Pionerlər Evi»ndə ədəbiyyat dərnəyinin rəhbəri kimi işləməklə əslində ədəbi sahəyə olan ilk cığır yollarımı həmin məkandan başladım və mən buna görə həmin ocağa minnətdaram.Mən orada cəmi bir il işlədim, ancaq bu bir il ərzində Asif müəllimin kollektivimizə rəhbərliyindən o qədər yüksək fikirdə oldum ki, bu qədər illər keçsə də dəyərli Asif müəllimin yüksək pedaqoji rəhbərliyini və mehriban kollektivimizin xoş aurasını hələ də unuda bilmirəm. Asif müəllim vicdanlı, ciddi rəhbər işçi olmaqla bərabər çox alicənab, qayğıkeş, ürəyiyumşaq bir şəxsiyyət idi.O, eyni zamanda hər an xalqın içərisində olan bir insan idi. Elimizin xoş günlərinin, şənliklərinin ən aparıcı qüvvəsi idi. Asif müəllim saf, təmiz, eyni zamanda hər kəsin yerini bilən, xeyirxah məsləhətləri ilə seçilən, haqqı-nahaqqa verməyən biri idi. Şirin sözləri, söhbətləri ilə Zəngilanımızın canlı ensiklopediyasıdır, çünki çox məlumatlı və güclü yaddaşı vardır.Üzündə nur, ürəyində mərhəmət, mehriban, istiqanlı, vətəninə, elinə- obasına, ailəsinə, övladlarına böyük sevgi və məhəbbəti olan gözəl bir şəxsiyyətdir. Hörmətli Asif müəllimə sağlıqlı uzun ömür diləyilə, doğma Zəngilanımızda nəvə-nəticə toy-büsatları görməsini arzulayıram. Doğma Zəngilanınmız qucaq açıb ilk olaraq bu cür saf insanlarımızın yolunu gözləyir. Asif müəllim yolunuz açıq olsun.

**Tərlam Nəriman qızı Əliyeva**



Tərlan Əliyeva 1961-ci ildə Zəngilan şəhərində ziyalı ailəsində dünyaya göz açıb. 1978- ci ildə Zəngilan şəhər 1 saylı tam orta məktəbini əla qiymətlərlə bitirib.Həmin il Zəngilan rayon «Pionerlər evi» ndə ədəbiyyat dərnəyinin rəhbəri vəzifəsində çalışmışdır. 1979-cu ildə Xarici Dillər Universitetinin İngilis dili fakültəsinə qəbul olunaraq ali təhsilə yiyələnib...Bir müddət təyinat-

la Qubadlı rayonunun Hal kənd orta məktəbində müəllim kimi əmək fəaliyyətinə başlayıb.Sonra təhsil aldığı məktəbdə ixtisası üzrə pedaqoji fəaliyyətini davam etdirib... Məcburi köçkünlük dövründə isə Zəngilan rayonunun 11 saylı tam orta məktəbində öz doğma peşəsini sevə-sevə gənc nəslə aşılamağın öhdəsindən bacarıqla gəlib.

Filosof- alim Nəriman Əliyev ailəsinin işgüzar və istedadlı davamçılarındandır. Pedaqoji fəaliyyəti dövründə ədəbi yaradıcılıqla müntəzəm olaraq ciddi məşğul olmuş, bir sıra maraqlı hekayələri, xatirə-povesti, miniatürləri, romantik duyğulu bədii parçaları, ədəbi etüdləri, əsrarəngiz təbiət lövhələrini özündə ehtiva edən özünəməxsus bədii təxəyyülünün məhsulları olan yazıları müxtəlif ədəbi-bədii jurnallarda, digər mətbu orqanlarında işıq üzü görmüşdür.

## 3. Mahir Cavadlı

Gözümün əməliyyat öncəsi özümü mütaliədən, yazı-pozudan, telefon və kompüterdən qoruduğum bir vaxtda insanları və insanlığı ayırd etməyi bacardığım gündən bəri əzizimiz, doğmamız kimi tanıyıb, böyük sevgi və dərin hörmət bəslədiyim Asif Bağırov haqqında kitaba mənim də fikrimi bölüşmək təklifi qarşısında, zənnimcə, ən doğru yolu seçib vaxtı gözləmədən klaviatura arxasına keçdim.

Kompüterin verdiyi imkanlar daxilində ən böyük şriftlərlə yazacaqlarım, güman ki, doğma Zəngilanımızın tarixində iz salmış bir nəslin layiqli nümayəndəsinə yaddaşımın dərin qatlarında bəslədiyim gözəl duyğuların hamısı olmayacaq, bu, mümkün də deyil. Bu kiçik yazı isə bir Zəngilan ziyalısı və söz adamı olaraq vicdan borcum, həm də şərəf işimdir. Çünki Kərim kişinin (sözün bütöv mənasında kişi) oğlu əsil vətənpərvər ziyalı Asf Bağırov, həm də elimizin dəyərli ağsaqqallarından olmuş, imkansızların himayəçisi Şamı Bağırovun (yaşıma görə yaddaşımda ən çox qalan) qardaşıdır. Bu mənada, yaza bilmək imkanı verən qələm dostlarıma da minnətdaram.

...Son 30 il (yurda həsrət qaldığımız və hətta zəfərdən sonrakı illər) əsil Zəngilan ziyalılarının, Zəngilan yazarlarının ən çətin, ən ağrılı dövrüdür. Bir statusumda paylaşdığım kimi bu gün elimizin, obamızın qələm sahibləri sözü başa düşməyənlərə söz anlatmaqda zorlanırlar. Gözəl musiqi zövqlü Asif müəllim həm də rayonumuzun ensiklopedik yaddaşa, dərin zəkaya, iti qələmə sahib bir ziyalısı kimi mənəvi sıxıntılar yaşayan həmyerlilərimizdən biridir desəm, səhv etmərəm.

Ötən əsrin ikinci yarısından başlayaraq qızıl barmaqları ilə qarmonun dillərində könül ruhumuzu oxşayan, bir çox musiqiçilərimizin müəllimi Asif Bağırov doğma yurdsuz qalanda əlini ecazkar musiqi alətinə uzatmağa ürəyi gəlmədi, Ağ-qara pərdələrə toxunmaqdan incələşərək bir az da uzanmış kimi görünən barmaqları dillərdə şaqqıldağ qoparmadı! İstəsə də bacarmadı və başa düşdü, duydu ki, ona el şənliklərində, toy-bayramlarda ürək titrədən havaları səsləndirməkdə ruh verən də məhz Zəngilan abi-havası imiş. Sözsüz ki, qəlbində bəslədiyi tükənməz yurd sevgisi daxil! Otuz ildə yavaş-yavaş qarmon pərdələrindən küsən barmaqlar qələmə doğru uzandı. Mərbu orqanda uzun illər çalışmış jurnalist, xüsusən torpağa, milli-mənəvi irsimizə böyük maraq göstərən oxucu kimi Asif Bağırovun hazırda eşidilmək həsrətində qalan»

«Zəngilanın səsi» qəzetində bir-birindən maraqlı yazılarını bir az təəccüblə də olsa böyük maraqla izləməyə başladım və bu maraqlı həmsöhbətimlə ünsiyyətimiz yaxın qohumluqdan dostluğa, məsləkdaşlığa çevrildi. İlk kitabı da oxucular tərəfindən maraqla qarşılandı. Yurd həsrətli ilə qələmə alınmış Zəngilan lətifələri ədəbi mühitdə hadisəyə çevrilə biləcək peşəkarlıqla yazılsa da, təqdimatı belə keçirilmədi. Ancaq süfrəarxası müzakirələri təkcə zəngilanlıar arasında deyil, digər bölgə adamlarının, folklor tədqiqatçılarının da maraq dairəsinə düşdü. Sonralar Zəngilanın dəyərli adamları, önəmli tarixi hadisələr barədə müxtəlif mətbu orqanlarda onlarla məqaləsi işıq üzü gördü. Beləcə, Asif Bağırov bir qələm sahibi kimi də sevildi.

...Elimizin, obamızın ecazkar musiqi ifaçısı, ailəmizin doğması, qələm dostumuz, ən nəhayət rayonumuzun başı üstünü qara buludlar alanda cəbhədaşım olan Asif Bağırov haqqında çox adamın deyəcəyi, yazacağı çox həqiqətlər olacaq və bu həqiqətlər oxunduqca Zəngilanlı xoş günlərimiz yenidən xatırlanacaq, ürəklərdə gözəl duyğulara qanad verəcək, dodaqlara məsum təbəssüm qonacaq. Çünki Asif müəllimin amalına, məsləkinə, həyat yaşantılarına yüksək bəşəri hisslər hakimdir.

Qələm dostumuz, tədqiqatçı yazıçı Əli Sobulunun bu kitabı ərsəyə gətirmək təşəbbüsünü alqışlayıram. Zəngilan haqqında kitabını oxuduqdan sonra söhbətimizdə dediklərimə bir daha qayıdıram: Zəngilanın son 70 illik tarixi barədə həqiqətlər yaşının 75-dən ötüb 80-na addımlayan Asif Bağırovun ensiklopedik yaddaşındadır. Bəhrələnən qazanacaq!

**Mahir Cavadlı, Azərbaycan Yazıçılar Birliyi Zəngilan şöbəsinin rəhbəri, Azərbaycan Jutnalistlər Birliyinin üzvü,**



Mahir Cavadlı (Cavadlı Mahir Allahverdi oğlu) 27 fevral 1959-cu ildə Zəngilanda adadan olub.. Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsini bitirib. Orta məktəb illərindən şerləri və məqalələri rayon qəzetində çap olubub. O, «Azad Azərbaycan», «Abşeron», «Yeni fikir», «Fəryad», «Sərhəd» (məsul katib) qəzetlərində çalışıib. O, ilk hərbi jurnalistlərimizdən biri sayılır. Çox sayda kitablara redaktorluq etmişdir. Ehtiyatda olan Milli Təhlükəsizlik Nazirliyinin polkovnikidir. Bir neçə kitabın müəllifidir.

## 4. Bağırov Asif Kərim oğlu

Bu adı Zəngilan rayonunda az adam tapılar ki, tanımasın. Xüsusən əvvəllər-təzə ailə quranlar. Hamı istəyirdi ki, onun toy məclisini Asif müəllim aparsın.

Bu da təsadüfi deyildi. Çünki o mahir qarmon ifaçısı, ustasi idi.

Mən onunla 1963-cü ildə Qubadlı rayonundan Zəngilana köçəndən sonra tanış olmuşam. Mən ondan iki sinif aşağı oxuyurdum. Məktəbi qurtardıqdan sonra o, Pedaqoji İnstituta qiyabi qəbul olundu. İki il sonra da mən Tibb İnstitutuna qəbul olundum.

Yay və qış tətillərində rayona gələndə həmişə onunla görüşər və digər yoldaşlarımızla günümüzü bir yerdə keçirərdik.

O, çox qayğıkeş, həssas və incə yumora malik olan bir yoldaşdı. Onunla bir yerdə olmaq olduqca maraqlı olardı. Onu da deyim ki, çox güclü yaddaşı var. Hətta üstündən neçə illər keçməsinə baxmayaraq müəyyən görüşlərimizin ayını, ilini və hətta gününü də deyə bilər.

O, öz üzərində çalışan, ictimai işlərdə fəal iştirak edən savadlı bir gənc kimi yetişmişdir. Bütün bunlar rayon rəhbərliyinin gözündən yayınmadı. Onu rəhbər vəzifələrə irəli çəkdilər. Rayon pionerlər evinin direktoru, icra hakimiyyətində məsul vəzifə, Kino birliyinin direktoru kimi mühüm vəzifələrdə müvəffəqiyyyətlə çalışmışdır.

Ən nəhayət o uzun müddət təqaüdə çıxana kimi rayon Təhsil şöbəsində inspektor vəzifəsində layiqincə çalışdı. Məcburi köçkünlük dövrü bizi daha da yaxınlaşdırdı. Bir də ki, ikimizin eyni şəraitdə yaşamağımıza baxmayaraq gələcəyə ümidlə baxırdıq. Bir birimizə həyan durmağa çalışırdıq. Asif Bağırov heç kimdən bacardığı, gücünün yetdiyi köməyi əsirgəmirdi.

Köçkün düşdüyümüz bir dövrdə mən ondan mənim bibim oğlunun Sumqayıt şəhərində keçiriləcək toyunu çalmağını xahiş etdim. O tərəddüd etmədən mənim və onların maddi durumunu bildiyi halda belə heç bir təmənna güdmədən, baş üstə dedi. Halbulu o Bakıya gələndən sonra toya getməyəcəyini bəyan etmişdi. Bax

Bağırov belə adamdı. Dostdan, yoldaşdan heç nəyi əsirgəməz, əlindən gələni eləyərdi.

Məcbiri köçkünlük dövründə onun yazıçı publisist kimi də istedadı daha qabarıq şəkildə üzə çıxdı. Onun dövri mətbuatda üzdə olan adamlar barədə tez tez maraqlı məqalələri çap olunmağa başladı. Təkcə onun Zəngilan lətifələri kitabının ərsəyə gəlməsində nə qədər zəhmət çəkdiyi məlumdur. Ən maraqlısı odur ki, bu kitabda qələmə alınan lətifələrin qəhrəmanlarını Zəngilanda hamı tanıyır.

Lakin onlar və qohumları bundan incimir, narazılıq eləmirlər. Ona görə ki, bu əhvalatlar yaxım keçmişimizdə baş vermiş gerçək hadisələrdir.

Hal hazırda Asif müəllim qanuni istirahətdədir. Lakin o bekar qalmağı sevmir. Yazıb yaratmaq onun gündəlik işinə çevrilmişdir.

Bu faydalı və lazımı işdə ona uğurlar, möhkəm cansağlığı və xöşbəxtlik diləyirəm. **Məzahir Qocayev. Təqaüddə olan həkim.**



Qocayev Məzahir Mürsəl oğlu 01 avqust 1950-ci ildə Qubadlı qəsəbəsində anadan olub. 1957-ci ildə Qubadlı qəsəbəsindəki orta məktəbin I sinfinə getmişdir. 1963-cü ildə atasının işi ilə əlaqədar onlar Zəngilan qəsəbəsinə köçürlər. Burada o 1967- ci ildə orta məktəbi bitirib elə həmin ildə də Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuş və 1973- cü ildə oranı bitirmişdir.

Onu təyinatla Qubadlı qəsəbəsinə göndərirlər. 1976-cı ildə isə onu Zəngilan rayonuna dəyişdirilər. O burada 1976-1985-ci illərə rayon SES-də bakteriolq həkim, 1985-2015-ci illərdə isə rayon MX-da baş həkimin müvimi işləmişdir. M.Qocayev hal-hazırda təqaüddədir.

## 5. Həsən Orucoğlu Asif Bağırov haqqında.

Vüqar Asif oğluna mənim sübh məktubum.

Salam qardaş oğlu.

Bilirəm ki, hamımızda olduğu kimi sənin üçün də Ata məvhumu müqəddəs bir varlıqdır. Xöşbəxt o kəsdir ki, valideyn borcunu qismən də olsa, qaytarmağı bacarır. Bu mənada sənin çiyninə götürdüyün bu yükün öhdəsindən gəlməyinə həddindən çox inanıram. İnanıram ki, fikirlərimin səmimi və istəkli olduğunu dərk edib, onun icrası üçün əlindən gələni edirsən.

Hər halda bu da mənim istəyimdir və bunu sənə üz tutub deməliyəm. Hər kəsə öz atası şirindi və hər kəsin öz atası hamıdan güclüdür!

Asif Ata isə əvəzedilməz bir atadır.

Çox şükür ki, fiziki cəhətdən hələ sağlam və gümrahdır. Ürəyi safdır. Onun eşitmə orqanının zəif olması məni çox üzür. Ömrü boyu hamını eşidən, hamının fikrinə hakim kəsilən Asif Atanın bu gün bir kəlməni dinləmək bacarığından müvəqqəti məhrum olması məni narahat etməyə bilməz. Bu, mənim hələ heç kimə yazmadığım sübh məktubudur ki. Sənə güvənib və sənə ünvanlayıram.

Asif Atanın varlığının sənin üçün bir dünya olduğunu bilirəm....

Ən zəif pıçıltıları eşidə bilən Asif Ata bugün nə üçün mənim gur səsimi eşitməsin?! Bu məni çox ağrıdır və kövrəltməyə bilmir. Ona görə də səndən bir əmi kimi xahiş edirəm ki, Asif Atanın tezliklə eşitmə orqanının bərpa olunmasına var qüvvə ilə çalışacaq və onun həyat eşqini bir oğul gücüylə geri qaytarmağa nail olacaqsan.! Çünki mənim Asif Ataya sözüm var istəyirəm ki, məni eşidə bilsin ki, ona ürəyimin dərinliyində uyuyan və heç kimə demədiyim sözlərimi deyə bilim!..

Vüqar səni bağrıma basıb öpürəm. Uca tanrı səni əmanətində saxlasın.

Mənim bu sübh çağı Vüqara ünvanladığım məktubumu ona oxumağı rica edirəm. Hörmətlə Həsən Orucoğlu.

Hər bir insanın taleyində yadda qalan və silinməz izlər buraxan anları heç bir rəngə əsla bənzəməz.

Amma ögey baxışlaırn spektrində rəngi bilinməyən və adi gözlə belə görünməyən nəzərlər heyranlıqdan daha çox, həsədə bənzəsə də çılpaplığı ilə görünmür. Bu bəlkədə göz götürməzlik və paxıllıq əlamətidir.

Bir də həyatı dərketmənin və düşüncənin dayazlıq göstəricisidir.! Uzaq başı, bunu ya sezə bilərsən, ya da ki, şahmat gedişində «seytnota» düşəndə duya bilərsən!

Amma bir şey dəqiq biliurəm ki, sevgigözlərdə olub....Gözlərdən də oxumaq olur, sənə olan antipatiyanı və simpatiyanı.

Həyatımda olan bu bənzərlikləri ona görə qələmə aldım ki, duyğulu adam, hissiyyatı güclü olan şəxs qorxu və təhlükəni bir göz qırpımında baxışlardan oxuya bilir!

Yaddaşımda əks olunan bir neçə nüansı civələrdə göyərtmək qərarına gəldim.

Bu əlbətdə vaxtı ilə mənə yönəlmiş haqsızlığa qarşı prentiv bir addım da deyil sadəcə xatırlamaqdır ki, hələ ki, mən heç nəyi hələ də unutmamışam.

Etik normalara hörmətlə yanaşaraq və nəzakət qaydalarını gözləyərək ad soyad çəkmirəm ki, həmin yaramazlar bir daha biabır olmasınlar.

Onsuz da tutduqları əməllələrə əyalətdə öz nüfuzlarını vəzifədə ikən özgələr hesabına olan limitlərini xərcləyib qurtarıblar. Sıradan və mənim nəzərimdə heç nə olan xüdpəsəndlər və eqo hikkəsi ilə yaşayanlar heç günü bu gündə utandıqlarından publikadan qaçırlar, «şal altında» güzlənməyə daha çox üstünlük verirlər.

O vaxt «Kirpi» jurnalında mənim «Sən vəzifə hərisisən» ...adlı bir satirik şerim dərc olunmuşdu. Bir beyti yadımda qalmışdı:

«Axtarma sən vəzifəni,
Qoy vəzifə tapsın səni»...

Yadımdadır ki, hansı vəzifədə işləyirsə işləsin Asif Kərim oğlu Bağırov özünün cəsarətli çıxışları ilə yadımda belə qalıbdır... Haqqı nahaqqa verməyib ömrü boyu.....ədalətli olub, mərd

olub, mərdanə olub, xalqın arasında, içində olub. Təssübkeşdir, vicdanın səsinə hakim kəsilib həmişə haqlının tərəfini tutub, yetim-yesirə himayədarlıq edib, hər vəchlə onun müdafiəsinə qalxıbdır. Hətta mən deyərdim ki, haqq-ədalət üstündə öz müdiriilə «tarana» da, qalxıbdır. Dostu həmişə özündən üstün tutub, Asif müəllim! Nə qədər çox bilsədə şagird rütbəsində olduğunu gizlətməyib.

Elə bu sadəlikdə onun bəzəyi olubdur! Yəni Asif müəllim sözün əsil mənasında hamının ürəyindən xəbər verən qeyrətli. Qorxmaz, dürüst çıxışları ilə ürəklərdə dərini bir iz buraxmışdır.

Zalımın, zülmün yanında durmağı öz mənliklərinə sığışdırmayan belə məfkurə sahibləri bu gün də yaddaşlardadır, sözləri-söhbərləri eldən elə dolaşır! Qəlbən elinə -obasına bağlı adamdır, Asif Bağırov. **Hörmətlə Həsən Orucoğlu.**



Həsən Orucoğlu (Quliyev Həsən Oruc oğlu) 1954-cü ildə rayonun Məmmədbəyli kəndində anadan olub. Gəncə Pedaqoji İnstitutunun Fizika fakültəsini bitirib. Uzun illər rayonda müəllimlik etmiş, məktəb direktoru işləmişdir. İlk yazıları rayon qəzetində çap olunub. Həsən müəllim rayon qəzetində nəzdində təşkil olunan «Pöhrə» ədəbi birliyinə rəhbərlik edib. Bir neçə kitabın müəllifidir. Həsən müəllim ixtisasca fizik olsada ədəbiyyatı, şeri çoxlarından yaxşı bilir. Hazırda təqaüddədir.

## 6. Mərdlik, etibarlılıq nümunəsi

Kitab haqqında fikirlərimi yazmamışdan öncə onun müəllifi haqqında bir neçə söz demək istəyirəm.

Xatirəsi mənim üçün əziz olan Asif Bağırov tanıdığım və münasibətdə olduğum insanlar arasında özünə məxsus birincilərdən-

dir. Asif Bağırovu mənə, o cümlədən onu tanıyanlara tanıtdıran xarakterik cəhət ilk öncə sadəlik,əsil insana xas olan ilk əlamət -adam var aylarla, illərlə görüşürsən, təmasda olursan, amma yaddaşda çox az qalır. Adam var ki, onu bir gün görmək kifayət edir. Hesab edirəm ki, insanlar arasında əsil münasibət özündə olan xarakterik cəhətlərin tam və müəyyən hissəsinə qarşı fərqdə gördükdə alınır.

Yaşadığımız dövr elə bir vaxta təsadüf etmişdir ki, beynimiz və ürəyimizi sıxan bir çox fikirləri tam açıqlığı ilə deyə bilməmişik.

Mövlananın çox sevdiyi bir sözü var. Ya olduğun kimi görün, ya da göründüyün kimi ol.

Asif Bağırovun həyat yoluna nəzər salanda onun yazıçı olmağı məntiqi nəticədir.

Burada bir haşiyəyə çıxım, əsl vətəndaş kimi yaşayıb xalqına, millətinə, dövlətinə xidmət göstərən ziyalılar hər zaman nüfuz sahibi olmaqla yanaşı, insanların yaddaşına həkk olunub, daim ehtiramla yad olunurlar.

Asif müəllim haqqında Zəngilan ziyalılarından, ictimaiyyətdən eşitdiklərim xoş məramlı fikirləri zaman mənə 1995-2000-ci illərdə verdi. Qaçqınlıq, köçkünlük dövrü bizi bir birimizə, işlədiyimiz Elm İstehsalat Birliyində daha da doğmalaşdırdı.

Bu gün qarşımda belə bir sual durur. O necə insandır? Asif Bağırov müdrik insan, istedadlı qələm sahibi, uşaqla uşaq, böyüklə böyük olub, ürəyində vətən həsrəti daşıyıb, gözlərində Zəngilan nisgili yaşadan bir insandır.

Asif Bağırov cəmiyyət üçün düzgünlük, mərdlik və etibarlılıq nümunəsidir. O, belədir onu tanıyanların qəlbində belə də qalacaq. Asif Bağırov olduqca təmkinli və təmkinli olduğu qədər də müdrikdir. Yerinə yetirə bilməyəcəyi işi heç vaxt vəd verməz, olduqca tələbkar və özünü saxlayan bir insan olduğu qədər yüksək ideyalara malik əsl vətənpərvər övladdır Asif Bağırov.

Asif müəllim yeniyetməlikdən indiki dövrünə qədər həm əzablı, həm zəhmətkeş, həm də eyni zamanda mənalı bir ömür yaşayıb. Hər övlada nəsib olan iş deyil ki, şəcərənin yükünü çiy-

nində daşısın. Asif Bağırov gözəl qarmon ifaçısı olub. Zəngilan torpağının toy şənliklərində iştirak edib. Kasıbın, imkansızın dadına yetişib, apardığı şənliklərdən qazanc ummayıb, əksinə mənəvi aləminə sağlam ruh gətirib, halal zəhməti ilə şəcərəsinə maddi yardımını əsirgəməyib. Rayon əhalisinin onu tanıyan imkansızların maddiyyatına kömək əli uzadıb. Onun xeyirxah işi heç bir insanın qəlbindən silinən deyil.

Qarşımda isə müəllifin «Doğma yurda qayıtmaq istəyinə boy verən Zəngilan lətifələri» adlı kitabı durur. Real həyat həüiqətlərini əks etdirən bu kitab müəllif əməyininin ilk bəhrəsidir.

O «Zəngilanın səsi» qəzetində uzun illər şahidi olduğu hadisələri yumorlaşdırıb oxuculara, onu tanıyanlara ərməğan etməyi özünə humanist borc bilib.

Bəlkə də çoxsaylı oxucuların xahişini nəzərə alıb bu missiyanı yerinə yetirib desəm, səhv etmərəm. Müəllif kitabın giris hissəsini mənim tanıdığım şəxsiyyətlərdən böyük hörmətim olan Məlikli Hüsü müəllimin ailəsində olmuş yumorla başlayır. Bu mənada kitabda olan yumoru bura əlavə etməyi zəruri sayıram.

Şiri tülküyə boğdurmasın

Məlikli kəndində kolxoz sədri Hüsü müəllimin böyük oğlu Yusifin əsgərlikdən gəlməyi münasibəti ilə məclis qurulur. Məclisin şirin yetində Qıraq Müşlanlı Ağaqulu icazəsiz ayağa qalxaraq deyir:

-Xahiş edirəm kirvəmin gül kimi çörəyini zay etməyin. Məclisə hörmət edə bilməyən köpəkoğlu təcili məclisi tərk etsin, şiri tülkiyə boğdurmasın. Masabəyi narahat halda soruşur.

-Ağaqulu dayı nə olub?

Ağaqulu öz oğlunu göstərərək deyir.

-Yoldaş tamada, bundan artıq nə olacaq? Görmürsünüz, arağın üstündən çay içir?

Kiçik toplumlu yumordan göründüyü kimi müəllif toplayıb oxuculara bəxş etdiyi gülüş səhnələrini çox böyük məharətlə əsl ziyalı kimi oxucusuna çatdırır. Onda təbəssüm yaratmağa nail olmuşdur.

Asif Bağırovun kitabını oxuduqcan yumorları göstərir ki, onun qələmi öz bədii, sanbalı dəyərini davam etdirməkdə, təsir gücünü artırmaqda fikirlərini gücləndirməkdədir.

Asif Bağırovun tanıdığı şəxslər barədə topladığı və tərtib etdiyi fikirlər, bu yumorlar qarşı tətəflə razılaşdırılıb.

Əsərdə müəllifin öz doğmaları haqqında olan yumorları da xatırlanıb yer alır.

Kitabı oxuyub, qurtardım və 24 illik ayrılıqdan sonra bir Zəngilan həyatı yaşadım. Yumor səhnələrin oxuyub nə qədər gülüş qazandımsa, Zəngilan torpağına qədəm açmayan bu kitab məndə təəssüf yaratdı.

Zəngilan həsrətiylə ömür sürən qələm dostuma uzun ömür, can sağlığı, yeni yeni yaradıcılıq uğurları arzulayıram. Səhifəni hazırladı: **Pənah Azəri. «Azərbaycan övladı» qəzeti, 12 oktyabr 2017-ci il.**

## 7. Zəngilan lətifələri çox da uzaq olmayan böyük qələbəmizin təbəssüm mujdəsi

Folklor janrı kimi tarixi qədim olmaqla yanaşı, bu gün də dinamikliyi. yığcamlığı, gülüş yaratma imkanı sarıdan populyarlığını qoruyub saxlayan lətifələr insana gerçək durumunun acı nəticəsini yumor diliylə anlatmağa xüsusi kömək edir.

Xalqın kəskin ağlını, canlı ifadə biçimini əks etdirən bu janr müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşib, dövrümüzə kimi əhəmiyyətini, gərəkliliyini saxlayıb. Mənfilikləri tənqid atəşinə tutan, satira və yumor elementləri ilə yoğrulmuş dolğun məzmunlu regional lətifələr də əsrlər boyu həmişə söyləyici-dinləyici nəslinin yaşam gündəminə çevrilib. Bölgə lətifələri Azərbaycan gülüş mədəniyyətinin-xalq satira yumorunun aparıcı qolu kimi tarixən bu və ya başqa dərəcədə yazılı ədəbiyyata da təsir edib, onunla sıx təmasda olub, kəmiyyət və keyfiyyət baxımından yeni çalarlar qazanıb.

Ölkəmizin elə bir bölgəsi, elə bir rayonu, kəndi, məskun məntəqəsi yoxdur ki, oranın özünəməxsus lətifələri olmasın. Möv-

zu və mündəricə etibarilə zəngin olub, ictimai həyatın müxtəlif sahələrini əhatə edən regional lətifələrin ana xəttini ailə-məişət, siyasi ideoloji düşüncə tərzi, tarixi hadisə və tanınmış kimsələrin həyatı ilə bağlı məlumatlar, dini mistik mahiyyət daşıyan əhvalatlar müəyyənləşdirir.

Zəngilan rayon Ağsaqqallar şurası sədrinin müavini Asif Bağırovun bu il çap olunmuş «Doğma yurda qayıtmaq istəyinə boy verən Zəngilan lətifələri» kitabında zaman zaman ağızdan ağıza gəzən canlı lətifələr, olmuş əhvalatlar, sahibi tanınan deyimlər toplanıb. Azərbaycan Yazıçılar Birliyinin, Azərbaycan Jurnalıstlər Birliyinin ezvü, Həsən bəy Zərdabi adına mükafat lauerατı, şair publisist Salam Cavadlının redaktorluğu ilə işıq üzü görən bu kitab görkəmli şəxsiyyıtlərlə yanaşı, sadə insanlarla bağlı şux lətifələr, yerində verilmiş sərrast cavablar toplusudur. Lətifələrin əksəriyyətinin yaranma tarixi işğaldan əvvələ təsadüf etsə də, yazıya köçürülməsi 2000 -ci illərə aiddir. Nəşrə daxil edilən 200-ə yaxın lətifənin hamısı real həyat hadisələridir və işğal olunmuş rayonun tarixi keçmişi, ictimai həyatı haqqında geniş məlumat verən mənbə kimi diqqəti cəlb edir. Kitabda lətifə iştirakçılarının, o cümlədən ziyalıların şəkilləri verilib. Zəngilan lətifələri həm də folklorumuzun zənginləşməsi üçün dəyərli töhfə kimi dəyərləndirilir.

Kitabı Salam müəllimin rəhbərlik etdiyi «Zəngilanın səsi» qəzetinin redaksiyasında gördüm. Qeyd edim ki, özüm də jurnalist olaraq peşə lətifələri yazıdığım üçün bu janrda qələmə alınmış digər nümunələr həmişə maragımı çəkib. O üzdən .....Zəngilan lətifələri,, nin bir nüsxəsini Salam müəllimdən birovuz götürdüm. Söz verdiyim vaxtda da, qaytardım. Salam müəllim gülümsünərək:

-Necədir? -deyə sual verdi. Onun təbəssümünün səbəbini elə söhbətimizin qayəsini təşkil edəcək lətifələr mövzusu ilə əlaqələndirdiyim üçün təəccüblənmədim. Fikirləşdim ki, yəqin, az sonra baş verəcək hadisəni-kitabda oxuduğum lətifələrin sırasından ən duzlu, ən məzəli hesab etdiklərimi xatırlaycağımı, birgə güləcəyimizi təsəvvürünə gətirdiyindən dodağı qaçdı. Amma sən demə, başqa səbəbi də varmış...

Oxudum, amma doymadım,- deyə cavab verdim. Salam müəllimin təbəssümü dərinləşdi. Kitabın titul səhifəsinə dərkənar qoyub:

- Doyunca oxuyarsan, bu nüsxəni sənə hədiyyə edirəm, -söylədi.

Təşəkkür etdim, bildirdim ki, ürəyimin dərin bir guşəsində kitabı mənə bağışlayacağına əminlik hissim olub. Əlimi sıxaraq:

- Duyğun səni aldatmayıb-dedi. Zəngilan lətifələrinin yaranma, kitabın ərsəyə gəlmə tatixçəsindən danışdı, lətifələrin bir çoxunun ayrı ayrı vaxtlarda qəzetdə dərc olunğunu, polemikalara, müzakirələrə səbəb olduğunu xatırlatdı. Salam müəllimə kitabda toplanmış lətifələr sırasından qəhrəmanı məhz özü olduğu nümunələrin diqqətimi çəkdiyini dedim. Bildirdi ki, öz başına gəlmiş, habelə rayon qəzeti redaksiyasında şahidi olduğu hadisələr əsasında hazırladığı həmin lətifələri özü kitaba daxil edib, müəlliflik hüququnu da Asif Bağırova bağışlayıb. Təvəzökarlığını alqışladım. Belə məqsədəuyğun idi, dedi.

Asif müəllim daha alicənabdır, kitabın redaktə işini etibar etməklə, mənə həm də bütöv kitaba həmmüəlliflik hüququ qazandırıb.

Müşahidəli oxucu elə ilk səhifələrdən hiss edir ki, Zəngilan lətifələrinin doğurduğu gülüş insanın daxili aləmini, mənəviyyatını, ovqatını təmizləmək, bütün bunlarla yanaşı onu tərbiyələndirmək işində mühüm estetik vasitə rolunu oynayır. Bu lətifələr insan psixologiyası ilə bağlı olan xudpəsəndliyi incə yumor hissi ilə qamçılayır onları istehza ilə satira atəşinə tutur. Bu yumor ifşaya məruz qalan subyekti oyatmaq, onu tərbiyələndirmək məqsədi güdür. Başqa cür ola da bilməz axı lətifə lərdəki personajların çoxu Asif Bağırovun yaxın-uzaq qohumları, qonşuları, dostları, tanış-bilişləridir.

Sovet imperiyasından miras qalmış son dərəcə aktual bir problem kimi Qarabağ sindromu adı altında. ictimailəşdirilən azərbaycanlı-erməni (hay) münasibətləri də bu və ya digər şəkildə öz izlərini Zəngilan lətifələrində saxlayıb. Məsələn:

Lenin bağındakı yeməkxanaya Qafanın Sav kəndindən dörd nəfər hay gəlir.

Yeyib içmək vaxtı Xəlil əmi onlardan kəndliləri Varosu soruşur. Onlardan biri deyir ki Varos bir ildi ölüb.

Xəlil əmi hi.hi eləyə eləyə:

Nə danışırsan, Varos yenə öldü?

Birdən Xəlil əminin sifəti dəyişir.

-Varos mənə iki tay kələm borclu idi. Niyə biriniz ona başa salmadınız ki, apar keçəl Xəlilin borcunu ver, sonra ölürsən cəhənnəmə öl, gora öl?

«Doğma yurda qayıtmaq istəyinə boy verən Zəngilan lətifələri» həm də Zəngilanın tarixini özündə əks etdirir. Oxucular, əlalxüsus da orta və daha yuxarı yaşlı zəngilanlı oxucular məzəli əhvalatların vaqe olduğu məkanları - Zəngilan şəhərinin Lenin bağını, Karl Marks xiyabanını, Pircivan və Sayıflı dəmiryol stansiyalarını, «Məscid düzü», «Çinar» restoranını, «Səməd Vurğun» adına stadionunu, «Kənd həyatı» qəzetinin redaksiyasını, Mehdiqulunun kababxanasını və digər tanış məskənləri nostalji hisslərlə xatırlayacaqlar. Nə yazıq ki, bir sıra epizodlarda məskənlər dəyişərək zəngilanlıların köçkün düşüb məskunlaşdıqları ünvanları əks etdirir: Neft Akademiyasının tələbə şəhərciyi...

Kitabda zəngilanlıların azərbaycanlı müsəlman- qafqazlı mentalitetinə uyğun adət-ənənələri də öz əksini tapmışdır. Nəzər yetirək:

Zəngilanda llaxır çərşənbədən əvvəl keçirilən «Qəbir üstü» günlərində bişirilən plovdan adət-ənənəyə görə yeddi evə pay verilərdi. Alı həkim Məscid Düzündəki ictimai yaşayış binasının birinci mərtəbəsində yaşayarkən onlara ilk plov payı Xəlil Quliyevgildən gələrdi. Xəlilin atası Kərbəlayi Ibiş də vaxtilə Pircivan məscidində mollalıq eləmişdi. Alı həkim plovdan yeyib Kərbəlayi İbişə rəhmət oxuyardı.

Bir dəfə Xəlil Quliyevin ömür-gün yoldaşı Yazdagül xanım plovu bir qədər gec bişirdiyindən Alı həkim Abbas müəllimgildən gələn plovu yeyib küçəyə çıxır və darvazanın qarşısında dayanmış Xəlıl Quliyevi səsləyir:

-Xəlil! Ay Xəlil, yatmısan? Nə oldu sizin aşınız? Mən artıq Abbasın dədəsi Həşim kişiyə rəhmət oxumağa başlayıram, qarnım doyandan sonra Kərbəlayi İbiş heç yadıma da düşməyəcək ha...

Xəlil Quliyev də zarafatla:

- Alı! O qarın ki, səndədir, bütün məhəllədəki «ölülərə rəhmət oxusan da, yenə doymayacaqsan - deyir.

«Əsrlər ruhundan süzülüb gələn bu sənət inciləri öz yığcamlığı ilə seçilib, zaman keçdikcə daha da büllurlaşıb. Elə buna görədir ki, lətifələrin çoxu bu gün də misal kimi işlənir, aforizm səciyyəsi daşıyır. Təsadüfi deyil ki, müəllif kitabın son səhifələrində «Mən dünyanı belə gördüm...» sərlövhəsi altında öz kəlamlarını təqdim edir: «Özü üçün yaşayanlar, öləndə də özləri üçün ölürlər...»

Kitabdakı personajların bir çoxu, o cümlədən, Asif Bağırovun qardaşı Şəhriyar Bağırov artıq dünyalarını dəyişmişlər. Adları Zəngilan lətifələrində əbədiləşibsə, deməк, yalnız özləri üçün yaşamayıblar. Allah onlara rəhmət eləsin, müəlliflərə və bütün zəngilanlılara da uzun ömür versin ki, doğma yurdlarının düşmən tapdağından azad, ediləcəyi günü görsünlər. Düşünürəm ki, oxucularına nikbin ovqat bağışlayacaq bu kitabı çox da uzaq, olmayan Böyük Qələbəmizin təbəssüm müjdəsi kimi qəbul etmək olar.

**Pünhan Şükür. «Dərkənar»** qəzeti. 6-12 oktyabr 2017- ci il.

**Zəngilan lətifələri dərc edilmiş qəzetlər.**

**1. «İstedadlara yaşıl işıq» qəzeti. Mart aprel N-13. 2019 cu il.**

- 21 yox 22 yıxdı

-Yoxsa özüm

-Vaxtını niyə alaq?

-Əsgərliyə çağırdılar

-Yırtıqdan baxma

-Ətçi ətçi

-Kolxoz qulu deyiləm

**2. «Zəngilanın səsi» iyun 2021 N-5977**

-Qurbanın bacısı oğlu qiymətini alıb gedib.

-Qoç sahibinin qapısındadır
-Şotu (hesabı) ermənicə ödəyəcəyik, yoxsa Azərbaycanca
-Onda dilini farağat saxla
-Kor mənəm
**3. Azərbaycan övladı, 20 yanvar, 2018- ci il**
-Onda bılarsan ki, sana na olacaq
-Deməzsən ki, aldatdım?
-Yoxsa mən
-Ancaq kinoda görmüşəm
-Mən isə solistəm, başa düşdün?
-Məndən də başqa Talehiniz var?
-Adı Yüküdür
-Orada kimlərdənsən?
-Avtandil müəllimə çatdırarsan
-İndi isə qalanlar
**4. «Zəngilanın səsi». Noyabr, dekabr, 2019-cu il. N-5973**
-Bundan sonra heç hara
-Mafura xalanın kişi cildinə girmiş formasıyam
-Rayonun baş baytar həkimi odur.
-Onları təmiz havaya çıxarasınız
-Borcumu artıqlaması ilə ödədim
**5. «Azərbaycan övladı» N-34. (2747). 12 noyabr, 2017-ci il.**
Mərdlik, etibarlılıq nümunəsi. Pənah Azəri
**6. «Dərkənar qəzeti» N-02. 6-12.X.2017**
«Zəngilan lətifələri» -çox da uzaq olmayan böyük qələbəmizin təbəssüm mujdəsi. Pünhan Şükür

# FOTO



**Soldan sağa: Yeməzli kənd sakini, sürücü Rəhim, Asif Bağırov və «İki sahil» qəzetinin müxbiri Mikayıl Nəriman oğlu**



**Soldan sağa: Zəngilanlı xanəndə Aşur Adığözəlov və Asif Bağırov**



**Asif Bağırovun anasının dayıları: Cahangir Kərbəlayi Nəbi, Mehdi və Ələsgər. (Cahangir Gorusda Meşəçiliyi, Mehdi isə baytar feldşerliyini bitirib).**



**Asif Bağırov mükafatları təqdim edərkən.**



**Asif Bağırov ailə üzvləri ilə birlikdə**



**Soldan sağa: Həcər Bağırova, Telbikə İbrahimova və Asif Bağırov**




**Soldan sağa: Ağstafadan olan Mahir Qəhrəmanov və Asif Bağırov**



**Soldan sağa: Asif Bağırov və Oqtay Zəngilanlı**




**Soldan sağa: Səhiyəddin Həsənov, Asif Bağırov və Yusif Hüsüyev**



**Soldan sağa: Salam Cavadlı, Bəxtiyar Süleymanlı və Asif Bağırov**




**Soldan sağa: Asif Bağırov və Zakir İbrahimov**



**Asif Bağırovun oğlu Vüqarın toyundan**



**Soldan sağa: Cabir Əliyev, Mahir Cavadlı və Asif Bağırov**



**Soldan sağa: Asif Bağırov, Bəxtiyar Süleymanlı və Eldar Eyvazov. Bəxtiyar Süleymanlının 80 illik yubileyində.**




**Soldan sağa: Asif Bağırov, İbrahim Xudiyev və Salam Cavadlı**



**Soldan sağa: Tahir Qocayev, Raqif İsmayılov, Asif Bağırov və Məzahir Qocayev**




**Asif Bağırov «Kənd Həyatı» qəzeti redaksiyasının kollektivi ilə**




**Asif Bağırov Xanməmməd Xanməmmədovun oğlunun toyunda**



**Respublikanın əməkdar artisti Almas Orucova və Asif Bağırov**



**Soldan sağa: Xürrəm Həsənov, Akif Fərəcov, Raci Rüstəmov, Sabir Həsənov, Asif Bağırov, Arif Şıxəliyev, Nüsrət Hüseynov, Yusif İsmayılov. Oturanlar Zülfüqar Məmmədov və Yusif Heydərov 28.05.2005.**



**Asif Bağırov Bakı kondisioneri Elmi İstehsalat Birliyi Zavod Daxili Nəzarət Qrupunun əməkdaşları ilə. 1998-ci il.**



**Soldan sağa: Mahir Cavadlı, Asif Bağırov, Bəxtiyar Süleymanlı və Salam Cavadlı. 29 may 2010-cu il.**



**Asif Bağırov Heydər Əliyevin «Gülüstan sarayı»nda keçirilən 90 illik yubiley tədbirində**



**Soldan sağa: Şahin Bağırov, Asif bağırovun bacısı oğlu Elxan və Rasif Həsənov**




**Asif Bağırov və qızı Lamiyə xanım**



**Soldan sağa: Şərif Bəsirov və Asif Bağırov. 1968-ci il.**



**Asif Bağırov və həyat yoldaşı Həsər Bağırova nəvələri ilə**



**Asif Bağırovun atası**
**Kərim Quliyev**



**Asif Bağırovun anası**
**Diliş Quliyeva**



**Asif Bağırov**
**toyda**




**Asif Bağırov bacısı oğlu Oqtayın nəvəsi ilə**



**Soldan sağa: Zəngilan rayon 5 saylı orta məktəbin direktoru Mayis Məmmədov, Asif Bağırovun nəvəsi Aysu və Asif Bağırov**



AZƏRBAYCAN
DÖVLƏT İDARƏLƏRİ VƏ İCTİMAİ XİDMƏT
İŞÇİLƏRİ HƏMKARLAR İTTİFAQININ

ZƏNGİLAN RAYON
HƏMKARLAR İTTİFAQI KOMİTƏSİ

# Təbrik edirik.

## Hörmətli Asif müəllim !

Sizi doğum gününüz və 55 illik yubileyinizlə əlaqədar təbrik edir, Sizə xoşbəxtlik, səadət və həyatda ən qiymətli nemət olan can sağlığı arzulayır, müstəqil dövlətimizin daha da çiçəklənməsi istiqamətində yeni-yeni uğurlar diləyirik.

DİİXİ Hİ ZƏNGİLAN RAYON
HƏMKARLAR İTTİFAQI
KOMİTƏSİNİN SƏDRİ CÜMŞÜDLÜ Ə.S.

M.Y.

Bakı şəhəri 01.01.2002




**Zəngilanda mahnı və rəqs bayramı. Oktyabr 1983.**



**Pioner təşkilatının yarandığı gün. S.Vurgun adına şəhər stadionu.**



**Pioner təşkilatının yarandığı gün. 19 may 1989.**



**Artek. Soldan sağa ortadakılardan 6-cı Yuri Qaqarin adına pioner və məktəblilər sarayının direktoru Əhməd Əliyev, 9-cu Asif Bağırov**



**Asif Bağırov pionerlər evinin kollektivi və məktəblilərlə**



**Soldan sağa: Arif Bəşirov, Qəzənfər Rüstəmov və Asif Bağırov**



**Soldan sağa: Asif Bağırovun qardaşı Şəhriyar Bağırov və Seyid Rza Seyid Hüseyn oğlu**



**Soldan sağa: Zülfüqar İsa oğlu Məmmədov, Həcər Hüseynova, Arif İdris oğlu Şıxəliyev və Asif Kərim oğlu Bağırov.**



**Asif Bağırov toyda**



**Soldan sağa: Gülarə Ələkbərova, Simuzər Fərəcova, Camal Sultanov, Nüsrət Paşayev, Şərif Bəşirov, Mehri Nəcəfova Asif Bağırov. mart 1968, Mincivan.**



**Turş su (Noxudlu. Yuxarı Gəyəli kəndi)**



**Soldan sağa: Asif Bağırov, Xürrəm Həsənov və Dilşad Həsənova. 1957-ci il.**



**Soldan sağa: oturanlar İsa Əkbərov, Əsgər Əsgərov, Şamı Bağırov, Hay Arşavik, Şəhriyar Bağırov, Zülfüqar Məmmədov və Mansur Mustafayev, ayaq üstə duranlar Qurban Mustafayevin anası Mələk, digəri isə Mələyin bacısı oğlu Ağadır, tərsinə hərbi salam verən Asif Bağırov**



**Soldan sağa: Yavər Paşayev, Məcnun Kərimov, Asif Bağırov və Aydın Şıxəliyev. Aşağıda Yusif Məmmədov.**



**Asif Bağırovun bacısı Firəngiz xanımın yoldaşı Hüsü Hüsiyev**



**Soldan sağa: Asif Bağırovun böyük qardaşı Şamı Bağırov və həkim Alı Cəfərov**



**Soldan sağa: Mustafa Mustafayev və qızı, Zəngilan qəsəbə orta məktəbinin ilk qızıl medal alan məzunu Rima xanım.**



**Asif Bağırovun qardaşı Şəhriyar Bağırov**



**Asif Bağırov və Cabbar İmamverdiyev**



Soldan sağa: Mübariz Əlixan oğlu və Asif Bağırov



TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR

*H.Əliyev*

FƏXRİ FƏRMAN

Zəngilan rayon Təhsil şöbəsi

təltif edir.

Zəngilan rayon
Təhsil şöbəsinin müdiri: Z.S.İbrahimov

Verildiyi tarix: "05" Yanvar 2005 il



TƏHSİL MİLLƏTİN GƏLƏCƏYİDİR.
H.ƏLİYEV

FƏXRİ FƏRMAN

Zəngilan rayon Təhsil şöbəsi məsləhətçi Bağırov Asif Kərim oğlunu anadan olmasının 60 illiyi və təhsil sahəsində uzun müddətli səmərəli əməyinə görə təltif edir.

Zəngilan rayon
Təhsil şöbəsinin müdiri: Z.S.İbrahimov

Verildiyi tarix : "25" fevral 2007 il



AZƏRBAYCAN AĞSAQQALLAR ŞURASI
ZƏNGİLAN RAYON AĞSAQQALLAR ŞURASI

FƏXRİ FƏRMAN

BAĞIROV ASİF KƏRİM oğlu

Rayon Ağsaqqallar Şurasının təşkilatlanmasında və gənclərin mənevi, əxlaqi, hərbi vətənpərverlik ruhunda tərbiyə olunmasında fəal iştirakına görə təltif edilir.

Rayon Ağsaqqallar
Şurasının sədri: X.ə.İsgəndərov

12.03.2010

# FƏXRİ FƏRMAN

**BAĞIROV ASİF**
**KƏRİM OĞLU**

**Rayonun ictimai həyatında uzun illər səmərəli fəaliyyətinə görə təltif edilir.**

**Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı:** **R.Ş. Həsənov**

**04 fevral 2013-cü il**

---

**Zəngilan Rayon İcra Hakimiyyəti**

# FƏXRİ FƏRMAN

**BAĞIROV ASİF KƏRİM oğlu**

**Uzun illər səmərəli fəaliyyətinə və rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə**

Zəngilan Rayon İcra Hakimiyyəti başçısının
08 yanvar 2015-ci il tarixli 02 nömrəli sərəncamı ilə təltif olunmuşdur.

**Zəngilan Rayon İcra Hakimiyyətinin başçısı:** **R.Ş.Həsənov**

№ 001

# Mündəricat

Müəllifdən...........................................................................3

**I FƏSİL**
Asif Kərim oğlu Bağırovun həyatı və fəaliyyəti...................... 5

**II FƏSİL**
Atası Kərim Məmmədbağır oğlu Quliyev ............................. 45
Anası Quliyeva Diliş Paşa qızı ............................................ 47
Ailəsi və övladları ................................................................ 47

**III FƏSİL**
Asif Bağırovun macaraları .................................................... 49
«Məni kövrəldən toy» ........................................................... 51
Gözlənilməz təklif.................................................................. 51
Adilin toyu ............................................................................ 52
Süleymanın toyu ................................................................... 53
Sərməz Əhmədovun toyu...................................................... 54
Yazdırdığı pulu pozduran kişi ............................................... 55
Məzahir həkimin toyu ........................................................... 56
Mincivanda bir toy ................................................................ 57
Yarımçıq toy yarımçıq qalan ömür........................................ 57
Yarımçıq dayandırdığım toy ................................................. 58
Həkəri hövzəsində bir toy ..................................................... 59
Zəngilanda çaldığım ilk və son toy ....................................... 60
Hafiz Baxış. Bizim dost itirən vaxtımız deyil........................ 61
Sən bunları anlamazsan ........................................................ 63

**IV FƏSİL**
YARADICILIĞI ................................................................... 64
Novruz bayramı .................................................................... 64
Zəngilan rayonu barədə.......................................................... 72
Pirçivan piri............................................................................ 73

Xanazır piri ........................................................................ 77
Cinli bağı ........................................................................ 78
Zalxa nənə........................................................................78

**V FƏSİL**

TƏBRİKLƏR........................................................................ 85
Qışın soyuğunda doğulan isti ürək........................................ 85
Təbriklər ........................................................................ 86
Qısaca təbrik edənlər............................................................ 94

**VI FƏSİL**

LƏTİFƏLƏR ........................................................................ 95
Sənnən üz-üzə oturub dayna .................................................. 95
Kor mənmişəm........................................................................ 96
Bəs bu nədir?........................................................................ 96
Yol böyüyündür........................................................................ 97
21 yox, 22 yıxdı ........................................................................ 98
Yoxsa, özüm........................................................................ 98
Vaxtını niyə alaq?........................................................................ 98
Əsgərliyə çağırdılar........................................................................ 99
Yırtıqdan baxma........................................................................ 99
Ətçi-ətçi ........................................................................ 100
Kolxoz qulu deyiləm........................................................................ 100
Bundan sonra heç hara ........................................................ 100
«Mafura xalanızın kişi cildinə girmiş formasıyam» ............ 101
Rayonun baş baytar həkimi odur ........................................ 101
-Onları təmiz havaya çıxarasınız ........................................ 102
-Borcumu artıqlaması ilə ödədim........................................ 102
Qurbanın bacısı oğlu qiymətini alıb gedib......................... 103
Şotu (hesabı) ermənicə (hayca) ödəyəcəyik,
yoxsa azərbaycanca?........................................................ 103
Onda dilini faraqat saxla!.................................................... 104
Gərək belə eləməyəydi........................................................ 105
Morqunov, Nikulin bir də Vitsin........................................ 106
O sənin salamat yerindən öpüb. ........................................... 106

Sən də mənim kimi süddən yanıqsan.................................. 107
Bu günkündən də çox yeyərik............................................ 107
Onda bılarsan ki, sana nə olacaq........................................ 108
Yoxsa mən.............................................................. 109
Məndən də başqa Talehiniz var?.......................................... 109
Orada kimlərdənsən? .................................................... 110
İndi isə qalanlar....................................................... 110
Avtandil müəllimə çatdırarsan .......................................... 111
Adı Yüküdür ............................................................ 111
Mən isə solistəm, başa düşdün?.......................................... 112
Ancaq kinoda görmüşəm ................................................... 113
Deməzsən ki aldatdım?.................................................... 113
Qoç sahibinin qapısındadır............................................... 114

**VII FƏSİL**
XATİRƏLƏR............................................................... 116
1. Nigar Orucovadan...................................................... 116
2. İşıqlı və mənalı ömür... .............................................. 117
Tərlam Nəriman qızı Əliyeva ............................................ 118
3. Mahir Cavadlı ........................................................ 119
4. Bağırov Asif Kərim oğlu................................................ 122
5. Həsən Orucoğlu Asif Bağırov haqqında. ................................. 124
6. Mərdlik, etibarlılıq nümunəsi.......................................... 126
7. Zəngilan lətifələri çox da uzaq olmayan böyük
qələbəmizin təbəssüm mujdəsi ........................................... 129

Zəngilan lətifələri dərc edilmiş qəzetlər............................... 133

**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Azər Aydın*

Çapa imzalanmışdır: 28.03.2022.
Formatı 60x90 1/16.
Həcmi 10.5 ç.v. Sifariş № 37. Tiraj 300

«Zərdabi Nəşr» MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru